Bu bir xalq qəzetidi

ƏDALƏT

## HACI ŞAHİN DİN XADİMLƏRİ İÇİNDƏ ƏN AYDIN ADAMLARDAN BİRİDİR



**İndi, xüsusilə son zamanlar ölkədə görkəmli, tanınmış adamların adından saytlar və sosial şəbəkələrdə uydurulmuş məlumatlar yayımlanır. Sonra da bu məlumatlar ətrafında müzakirələr açılır, söyüşün-qarğışın biri bir qəpik. Bu uydurma məlumatları yayanlar xaricdən maliyyələşən, həm də ilana ağ verən içimizdəki kərtənkələlərdən ibarət qruplardı.**

Bu günlərdə bir sayt mənim adımdan bir açıqlama paylaşmışdı. Diqqətli oxucu, məni tanıyan oxucu o dəqiqə anlaya bilərdi ki, bu açıqlama nə mənim deyim tərzimdi, nə də yazı tərzim. Amma neyləyirsən, altında nə qədər söyüş, təhqir vardı. Nə isə, fikir vermədim. İndi baxıram bu həssas dönəmdə, yəni Məhərrəmlik ayında məzhəb davası qızışdırmaq istəyənlər Hacı Şahinin adından uydurma statuslar paylaşıblar. Altda da millət bölünüb iki yerə - sünni-şiə davası, biri bir qəpik... Cahil adamlar.

Hacı Şahini Azərbaycan xalqı yaxşı tanıyır. O, din xadimləri içində ən aydın adamlardan biridir və həmişə dövlətin və dövlətçiliyin yanında olub.

Respublika Prokurorluğu son zamanlar feyk xəbərlər yazan jurnalistlərlə bağlı haqlı olaraq ciddi addımlar atır. Yaxşı olar ki, milləti parçalamaq istəyən,məzhəb davası salmaq istəyən qrupları da bir araşdırsın və bu dövlətçiliyə qarşı cinayət olduğuna görə də həmin şəxsləri tapıb cinayət məsuliyyətinə cəlb eləsin.



*Ramiz Qusarçaylı*

## Azərbaycan bayrağı

*Şənini vəsf etməyə yetər, qüdrətim yetər,*
*Ulduzunu,ayını göydə mələklər öpər,*
*Hər rəngində "ya qazi, ya şəhid" bir mən bitər,*
*Sən ey İstiqlalımın əbədiyyət sancağı, -*
*Azərbaycan bayrağı !*

*Yağının min hiyləsi küydən, kələkdən keçər,*
*Sən sancılan ucalıq min-min ürəkdən keçər,*
*Dağlar yerindən oynar, daşlar ələkdən keçər,*
*Göylərin nur yağmuru, yerlərin göy qurşağı,-*
*Azərbaycan bayrağı !*

*Sən Arazın, Samurun umuduna bələndin,*
*Çəni ağlar Göyçənin buluduna bələndin,*
*Dərbəndin dərd hıçqıran sükutuna bələndin*
*O tayımda Savalan, bu tayımda Şah dağı,*
*Azərbaycan bayrağı !*

*Cəngidə cövlan yerim, cövlanda can yerimsən,*
*Barışda gül çələngim, savaşda qan yerimsən,*
*Sən mənim and yerimsən, mənim iman yerimsən,*
*Dalğalı ləngərlərin yelpiklənən yarpağı,-*
*Azərbaycan bayrağı !*

*Sənsən Azadlıq eşqim, sənsən Hürr,- deyəcəyəm,*
*Ən son nəfəsimdə də sənə şeir deyəcəyəm,*
*Şuşada sən qonduğun daşa pir deyəcəyəm,*
*Çəkəcəyəm gözümə kölgən düşən torpağı*
*Azərbaycan bayrağı!*
*Azərbaycan bayrağı!*

## BAXIRAM, HAMI PREZİDENTƏ MƏSLƏHƏT VERİR

**Dünyada ən asan şey məsləhət verməkdir. Məsləhət yaxşı şeydir, amma baxır kim verir, kimə verir. Saytlara, sosial şəbəkələrə baxıram Londondakı iyrənc hadisədən sonra hamı Möhtərəm Prezident İlham Əliyevə məsləhət verir: bunu belə elə, bunu elə elə, səfirliyin bütün əməkdaşlarını işdən çıxart, nə bilim Britaniyaya müharibə elə və sair və ilaxır.**

Prezidentin məşhur bir kəlamı var: "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm". .

İndi özünüzü yormayın, onsuz da sizin mənasız məsləhətlərinizi oxumağa Prezidentin vaxtı da yoxdu.

Prezidentin xarici siyasətini həyata keçirən Xarici İşlər Nazirliyi var və dövlət başçısı nə etmək lazım olduğunu Xarici İşlər Nazirliyinə deyir. Və gördüyünüz kimi də Xarici İşlər Nazirliyi müvafiq addımlar atır.

**Qoyun dövlət işini görsün, mənasız məsləhətlərlə əl-ayağa dolaşmayın.**

## ATƏT DƏ LƏĞV OLUNDU, İNDİ BƏS NEYLƏYƏCƏYİK?





**AMİP-in lideri Etibar Məmmədovla Ümid Partiyasının sədri İqbal Ağazadə arasında qırğın davam edir. Hər iki tərəf ən müasir söz silahlarından istifadə edərək bir-birini aşağılayır. Tərslikdən ATƏT də ləğv olunub, daha doğrusu, gorbagor olub. Bəs, indi bu iki liderin qırğınını kim saxlayacaq? Ümid qalır Rusiya, İran, Türkiyəyə.**

## Şah İsmayıla bu qədər nifrət hardandı?



**Son illər Azərbaycanda xüsusi bir dəstə yaranıb və hardansa, kimdənsə aldıqları əmrə qul olub xalqımızın böyük oğullarına qarşı çox ciddi kompaniya aparırlar. Çox təəssüf ki, Tarix İnstitutu və tarixçilərimiz onların layiqli cavablarını vermirlər. AMEA-nı elə buna görə ləğv eləmək lazım idi.**

Bir Güntay var, xaricdə yaşayır. Təzə bir kitab yazır, Şah İsmayıldan və Şah babamızı yıxıb sürüyür. Heç demə Şah İsmayıl adam əti yeyirmiş, pedafil imiş. Yaratdığı dövlət də türk deyil, fars dövləti imiş. Hətta anasını belə sünni olduğuna görə öldürübmüş. Və sair və ilaxır. Onun yazdıqları murdar fikirləri təkrar eləmək istəmirəm.

Jurnalist Fəxrəddin Hacıbəyli (söhbət Bülbülün Ev muzeyinin direktoru Fəxrəddin Hacıbəylidən deyil, xaricdə yaşayan Fəxrəddin Hacıbəylidən gedir) Güntayın kitabından bəh-bəhlə bir yazı yazıb və onu Şah İsmayıldan da yuxarı qaldırıb. Çox təəssüf ki, millət vəkilimiz Fazil Mustafa da həmin yazını bəh-bəhlə paylaşıb.

**Bizim tarixçilər isə hələ də susur. Hörmətli tarixçilər, atalar qələt edib deyib susmaq qızıldı. Qızıl zad deyil, belə anlarda susmaq mal təsidi.**

## VARın var-yoxuna lənət





**Bizim bəxtimizdəndi, xiyar həmişə əyri bitir. Çempionlar Liqasının təsnifat mərhələsində ilk dəfə VAR tətbiq olundu və o da bizim əleyhimizə işlədi. Hakim siftə mərkəzi göstərdi, sonra VARdan dedilər gözlə, sonra da dedilər ki, bizim oyunçu bir santimetr irəli imiş.**

Nə isə, olsun.

Amma "Qarabağ" sonacan at kimi döyüşdü. İkinci heyətlə oynamasına baxmayaraq, Macarıstan çempionuna göz açmağa imkan vermədi. Möhtəşəm və çox həyəcanlı bir oyun oldu. Azarkeşlərimiz də sonacan "Qarabağ"ın yanında oldu. Eşq olsun azarkeşlərə də, "Qarabağ"a da. İnşallah, Budapeştdə daha möhtəşəm oynayacağıq. Qələbə bizimdir!

**Qurban Qurbanov və onun köhlən atlarına bizə belə ləzzətli həyatı yaşatdıqlarına görə təşəkkür edirik.**

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 35 (5972) 6 avqust 2022-ci il | Qiyməti 30 qəpik

# Qaynana idarəsi



**Əgər ailəyə dövlətin əsası deyiriksə... Ki, uzun illər belə demişik - qaynana önəmli adam sayılmalıdı... Əslində evdəki qadınların hər ikisi (bəzən çox da ola bilər) eyni bir kişini - evin sahibini, yiyəsini sevir və paylaşmağa məcburdu... Ortaq dəyər deyək...**

**Amma, amma, amma... Uzaq tarixlərdən evdəki qadınların qatı düşmənlər kimi davranışı da məlumdu axı... Təbii ki, bu, ev yiyəsini tədirgin edən bir durumdu və o, belə hallardan uzaq olmaq istəyir. Zamana görə dəyişik hallar ola bilər və hər kəsdə fərqli, mental olaraq toplumlar arasında da fərqli deyək... Amma ortaq tərəfləri də var bu ailəvi xəstəliyin... Qısqanclıq deyək. Hər iki qadın haqlı olduğunu düşünür və öz haqqının daha çox, daha üstün olduğunu düşünür... Burda "qardaş payı" sözünü işlədə bilməyəcəyik, dava elementləri, dava üçün səbəblər həddən çoxdur... Və həm də təcrübə də çoxdur... Aşağı-yuxarı ailə sözü varsa bu fiqurlar da mövcuddur...**

Bax:səh-3

## Türk Dövlətləri Təşkilatı Azərbaycanın Londondakı səfirliyinə hücumu pisləyib

**Türk Dövlətləri Təşkilatı Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə edilmiş hücumu pisləyib.**

Trend-in məlumatına görə, bu barədə təşkilatın "Twitter" səhifəsinə yazılıb.

"Türk Dövlətləri Təşkilatının təsisçi üzü Azərbaycanın Londondakı səfirliyinə radikal dini qruplar tərəfindən törədilən hücumu pisləyirik. Bu insanlıqdan kənar aksiyanın ətraflı şəkildə araşdırılmasını tələb edirik", - bəyanatda deyilir.

Xatırladaq ki, səfirliyə bir qrup şəxsə tərəfindən hücum ötən gün qeydə alınıb. Hücuma görə London polisi 8 nəfərin saxlandığını bildirib.

## Araz Zeynalovu itirdik



**Bir vaxtlar bir məhlədə işləyirdik. Gözəl "Panarama" qəzeti buraxırdı. Hər gün görüşərdik, dərdləşərdik. Yaranandan təmir üzü görməyən "Azərbaycan" nəşriyyatındakı məhləmiz it günündə idi. Elə indi də elədi. Qərara aldım ki, öz məhləmizi, yəni "Ədalət" qəzetinə "Panarama" yerləşdiyi mərtəbənin bizə aid olan hissəsini təmir elətdirim. Nə isə. Ustalar gəldi, təmir başladı, hətta qadın tualeti yox idi, onu da yaratdılar. Bir gün səhər işə gələndə Araz gəldi mənim otağıma. Dedi təmirə görə sağ ol. Amma bu insafdan deyil ki, xərcin hamısını sən çəkmisən. Gəlmişəm xərcə şərik olam. Nə qədər elədim, əl çəkmədi. Çıxarıb stolun üstünə 1000 dollar qoyub getdi.**

**"Panarama" həmin dövrün ən obyektiv qəzetlərindən biri idi. Onu Araz Zeynalov yaratmışdı. Ümumiyyətlə Araz Azərbaycan jurnalistikasında öz sözü, öz səsi olan bir jurnalist idi. Heyif, çox tez itirdik.**

**Ailəsinə, onu sevənlərə və eləcə də bütün qələm dostlarına başsağlığı veririk.**

**Yerin həmişə görünəcək, Araz!**

## Ermənilərin hələ bir muzeylik də texnikası varmış

**Müdafiə Nazirliyinin paylaşdığı son görüntülərə baxıram. Və görürəm ki, Ermənistan Qarabağda hələ bir muzeylik də hərbi texnika saxlayır. Özü də sülhməramlıların gözü qarşısında. Sülhməramlılar da keşiyini çəkir, yuyur, təmizləyir. Yəqin hələ silah-sursatla da təmin edir.**

Görünür, ikinci bir muzey də yaratmalıyıq. Amma bu dəfə Bakıda yox, elə həmin texnikanı vurduğumuz ərazidə. Əlavə xərc çəkib Bakıya gətirməyə ehtiyac yoxdu.

*AQİL ABBAS*

## CIDIR DÜZÜ BİZİ BAĞIŞLADI

Bax:səh-5

## Laçında iki əsgərimiz şəhid oldu



**Dünən Laçın rayonunda çətin relyefli ərazidə xidməti döyüş tapşırığını yerinə yetirərkən sıldırım qayalıqlardan qopan qaya parçası Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Xudiyev Samir Səməd oğlu və əsgər Əliyev Tahir Çingiz oğlunun üzərinə düşüb. Bu barədə Müdafiə Nazirliyindən bildirilib.**

Məlumata görə, nəticədə əsgər S.Xudiyev aldığı bədən xəsarətlərindən hadisə yerində, müxtəlif bədən xəsarətləri almış əsgər T.Əliyev isə həkimlərin səyinə baxmayaraq vəfat edib.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.

## Türkiyə ordusu 5 terrorçunu zərərsizləşdirdi



**Türkiyə ordusu 5 PKK/YPG terrorçusunu zərərsizləşdirib.**

**Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi Tvitter hesabında yazıb.**

**"Suriyanın şimalında "Fərat qalxanı" əməliyyat bölgəsində hücuma cəhd edən 5 PKK/YPG terrorçusu ordumuz tərəfindən zərərsizləşdirilib", - məlumatda bildirilib.**

## QAPANMA OLACAQ-OLMAYACAQ?



**Yaylaq festivalında iştirak edən bir qələm dostum zəng edib sevindirici bir xəbər verdi. Dedi burda çobanyastığı çiçəyi tapıb, ləçəyini bir-bir yolub - qapanma olacaq-olmayacaq? Sevindirici o oldu ki, olmayacaq çıxdı.**

**Dedim, bəs, gərək bir dənə də çiçək qoparıb yoxlayaydın yağış yağacaq-yağmayacaq? Dedi, vallah, elə qəşəng hava vardı ki, o ağlıma gəlmədi.**

## ARAĞI YANINDA, SOĞANI YANINDA, PUTİN NİYƏ QAÇSIN AXI?



**Saytlarda belə bir yazı gedib ki, Putin qaçmağa hazırlaşır. Ağzı olan konuşuyor. Putin dünyanı dolayıb barmağına, Ukraynanın şəhərlərini Ağdamın gününə salıb. Hələ səfərbərlik də elan edib, müharibəni gündən-günə genişləndirir. Avropa da öz-özünə mırtdıyır, müharibəni saxlamaq haqqında deyil, müharibəni qızışdırmağı fikirləşir. Çünki nə can onlarındı, nə də cəhənnəm. Can da ukraynalılarındı, cəhənnəm də.**

Putin niyə qaçsın axı? Arağı yanında, soğanı yanında, Lavrov bir tərəfində, Şoyqu bir tərəfində. Hələ sayın Ərdoğanla görüşəndə Ərdoğana boğaz çəkib ki, bəlkə bizə də "Bayraktar" satasan? Ərdoğan da gülümsəyib. Və bu gülümsəmə də odur ki, biz avropalılar kimi müharibəni qızışdırmaq yox, dayandırmaq arzusundayıq.

## "NEFTÇİ"Nİ TƏBRİK EDİRİK



**Dünən gözəl bir oyun izlədik. "Neftçi" futbolsevərlərə gözəl bir qələbə bəxş etdi. Dünən "Neftçi" "Rapid" kimi oynayırdı, "Rapid" də köhnə "Neftçi" kimi.**

"Forza Neftçi" azarkeşlərini də aqışlayırıq ki, axıra qədər "Neftçi"nin yanında oldular. Hələ Rəhman Hacıyev bizdən oynasaydı hesab daha böyük ola bilərdi.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## BAYRAKLARI BAYRAK YAPAN ÜSTÜNDƏKİ QAN DEYİL...



*Bu bir şairin bayrağa sevgisinin poetik tapıntısıdır, vəssalam. Bunu televiziya çıxışlarımda da demişəm, bayrağı bayraq yapan üstündəki qan deyil. Ona qalsa Stalinin də bayrağında qan vardı, Hitlerin də. Amma o qanlar bayraqları bayraq yapa bilmədi. Günlərin birində atdılar ayaqlar altına. Düzdür, indi Putin Stalinin bayrağını yenidən bayraq yapmaq istəyir, amma çox gecdir - pozdno, Rita.*

*Məmməd Əmin Rəsulzadənin də bayraq haqqında gözəl bir fikri var, uşaq da əzbər bilir: "Bir kərə yüksələn bayraq bir daha yenməz!". Amma bu da bayraq sevgisidir. O qədər yüksələn bayraqları yenən görmüşük ki. Yenə Stalinin, Hitlerin bayraqları... Misal çox çəkmirəm.*

*Bayraqları bayraq yapan üstündəki qan deyil, bayraqları bayraq yapan onu başının üstündə ucaldan millətdir. Bir kərə yüksələn bayrağı yenməyə qoymayan da millətdir.*

*Amerika filmlərində çox görmüşük, bayraqlarını çimərlikdə iç tuman kimi geyinirlər. Və yaxud bayraqları ilə hətta ayaqqabılarını təmizləyən də görmüşəm.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Aqil Abbas Vəli Xramçaylını Moskvaya gəzməyə aparır. Aqil müəllim sürpriz etmək üçün Vəlini "Bolşoy teatr"da "İvan Qroznu" operasına baxmağa aparır. Tamaşadan sonra Aqil müəllim:

**- Vəli, opera xoşuna gəldi?**



Vəli Xramçaylı:

**- Qağa, vallah mən evdə bir az səsimi yuxarı qaldıran kimi dörd ölü qonşu hay-küy salırlar ki, yavaş danış evdə xəstə yatan var. Bunlar burda iki saat çığırdılar, bir belə adam sakitcə oturub qulaq asdı, heç birinin də səsi çıxmadı ki, ayə yavaş çığırın qulaqlarımlz batdı.**

# İlham Əliyev yeni təyin olunmuş səfirlərin etimadnamələrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Slovakiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Layçakın etimadnaməsini qəbul edib.**

Səfir Milan Layçak etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında əlaqələrin uğurlu inkişafını qeyd edərək qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfəni vurğuladı.

Dövlətimizin başçısı əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi, əvvəllər müzakirə edilən məsələlərin həyata keçiriləcəyinə ümidvar olduğunu dedi. İqtisadi əlaqələrə toxunan Prezident İlham Əliyev bu sahədə əməkdaşlığın və qarşılıqlı ticarətin dərinləşdirilməsi, həmçinin Azərbaycan və Slovakiya şirkətlərinin ölkələrimizdə fəaliyyətinin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı, eyni zamanda, Slovakiya şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində iştirakda marağını da qeyd etdi.

Prezident İlham Əliyev Slovakiyanın Azərbaycan-Avropa İttifaqı tərəfdaşlığına verdiyi dəstəyi də vurğuladı.

Səfir Milan Layçak ölkələrimiz arasında siyasi əlaqələrin kifayət qədər fəal olduğunu qeyd edərək iqtisadi münasibətlərin genişləndiyini dedi və əlaqələrimizin daha da möhkəmlənməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Tomas Şuller-Qötzburqun etimadnaməsini qəbul edib.**

Səfir Tomas Şuller-Qötzburq etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək özünün Avstriyaya səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırladı. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığa toxunaraq Avstriya şirkətlərinin Azərbaycanda uzun illər uğurla fəaliyyət göstərdiyini qeyd etdi.

Dövlətimizin başçısı bir çox Avropa şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərinə böyük maraq göstərdiklərini deyərək Avstriya şirkətlərinin də həmin ərazilərdə tikinti, infrastruktur və digər sahələrdə fəal iştirak edəcəklərinə ümidvar olduğunu bildirdi. Azərbaycan-Avropa İttifaqı əməkdaşlığına toxunan Prezident İlham Əliyev Avstriyanın bu əməkdaşlığı daim dəstəklədiyini məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə əlaqələrimizin genişləndirilməsində Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin səfərinin önəmini qeyd etdi və səfər çərçivəsində imzalanan Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında eyni zamanda nəqliyyat, ticarət, yüksək texnologiyalar, turizm, kənd təsərrüfatı, tikinti sahələrini də qeyd etdi.

Azərbaycana səfir təyin olunmasından məmnunluğunu bildirən Tomas Şuller-Qötzburq ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini vurğuladı. İkitərəfli əlaqələrimizin daha da inkişaf etdirilməsinin vacibliyinə toxunan səfir bunun üçün səylərini əsirgəməyəcini dedi. Tomas Şuller-Qötzburq vurğuladı ki, dövlətimizin başçısı tərəfindən əməkdaşlığımızın qeyd olunan əsas istiqamətləri hər iki ölkə üçün çox vacibdir.

Səfir, eyni zamanda, Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində də Avstriyanın ikitərəfli əlaqələri bundan sonra da dəstəkləyəcini bildirdi.

O, ölkəmizin tolerantlıq nümunəsi olduğunu vurğulayaraq Azərbaycanın bu sahədə beynəlxalq tədbirlərə verdiyi töhfəni xüsusi olaraq qeyd etdi.

# Emmanuel Makron Prezident İlham Əliyevə zəng edib

**Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon danışığı əsnasında Emmanuel Makron son günlərdə regionda yaranmış gərginlikdən narahatlığını ifadə edərək Ermənistan və Azərbaycan arasında danışıqların davam etdirilməsinin və 2020-ci 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının həyata keçirilməsinin vacibliyini qeyd edib. O, Fransanın iki ölkə arasında dialoqun davam etdirilməsinə dəstək verməyə hazır olduğunu bildirib.

Prezident İlham Əliyev Ermənistan tərəfindən növbəti hərbi təxribatın törədildiyini və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində baş vermiş bu təxribat nəticəsində hərbi qulluqçumuzun həlak olduğunu vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycan Silahlı Qüvvələrinin bu təxribatın qarşısını aldığını, lazımi cavab tədbirləri gördüyünü deyib və baş vermiş gərginliyə görə bütün məsuliyyətin Ermənistanın üzərinə düşdüyünü bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində mövcudluğunu davam etdirən Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ünsürlərinin ərazimizdən çıxarılması təmin edilməlidir. Lakin Ermənistan tərəfindən bu hələ də təmin edilməyib. Bu isə öz növbəsində rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması və Ermənistanın üzərinə düşən öhdəlikləri yerinə yetirməməsidir.

Dövlətimizin başçısı vurğulayıb ki, üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq Rusiya Müdafiə Nazirliyi ilə əldə olunmuş razılaşma nəticəsində Laçın dəhlizinə alternativ yeni yolun marşrutu müəyyən edilib və Azərbaycan tərəfindən bu yolun inşası başa çatdırılmaq üzrədir.

Bu işlər yekunlaşan kimi 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən Rusiya sülhməramlı qüvvələrinin həmin yola dislokasiya olunması nəzərdə tutulur.

**Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.**

## Soçidə Ərdoğanla Putinin görüşü başlayıb

**Soçi şəhərində Rusiya prezidenti Vladimir Putinlə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında ikitərəfli görüş başlayıb.**

Trend-in məlumatına görə, görüşün mətbuata açıq keçirilən hissəsində rusiyalı prezident taxıl dəhlizi, eləcə də Rusiya gübrəsinin tədarükü ilə bağlı razılaşmaların əldə olunmasında təşəbbüsünə görə R.T.Ərdoğana təşəkkürünü bildirib.

Eyni zamanda, R.T.Ərdoğan Rusiya ilə Türkiyənin münasibətlərdə yeni səhifə açacaqlarına ümidvar olduğunu bildirib.

**Görüş zamanı liderlərin Türkiyənin Suriyadakı əməliyyatları, eləcə Türkiyədə inşası davam etdirilən "Akkuyu" atom elektrik stansiyasının inşası məsələsini müzakirə edəcəyi bildirilib.**

# QMİ Azərbaycanın Britaniyadakı səfirliyinə qarşı törədilən təcavüz aktı ilə bağlı bəyanat yayıb

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin binasına qarşı törədilən təcavüz aktı ilə bağlı bəyanat yayıb.**

İdarənin mətbuat xidmətindən verilən məlumata görə, bəyanatda deyilir: "Qafqaz Müsəlmanları İdarəsi avqustun 4-də Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin binasına qarşı törədilən təcavüz aktını narahatlıq hissi ilə qətiyyətlə pisləyir və öncədən hazırlanmış, siyasi məqsədli terror, vandalizm aktı kimi qiymətləndirir. Bu hadisə Azərbaycan Respublikasına, ümumən beynəlxalq hüquqa zidd təxribat aktıdır. Aşkar şəkildə dindən sui-istifadə edən "Mehdinin xidmətçiləri" adlı radikal qruplaşmanın müstəqil Azərbaycanın suverenliyini və atributunu - dövlət bayrağını hədəf alması, aksiyanın dini şüarlar və məzhəbi tələblərlə müşayiət olunması dindən sui-istifadə və nifrətə çağırış kimi dəyərləndirilə bilər. Azərbaycan dinlər və məzhəblərarası dostluq, qardaşlıq, anlaşma mühitinin hökm sürdüyü nadir ölkələrdəndir. Ölkəmiz öz milli-mənəvi dəyərlərinə yüksək ehtiramı, dini irsinə, ənənələrinə ali diqqəti ilə tanınan, bəşəri dəyərlərə istinad edən hüquqi-demokratik, dünyəvi dövlətdir. Məzhəb ayrı-seçkiliyi və dini dözümsüzlük, dini radikallıq və ksenofobiya təzahürləri Azərbaycan cəmiyyətinə yaddır. Azərbaycanda müsəlmanlarla yanaşı pravoslavlar, katoliklər, yəhudilər, bütün dini və milli azlıqlar öz mədəni dəyərlərini inkişaf etdirir, dini ayin və ibadətlərini azad həyata keçirirlər.

Biz öz tolerant, multikultural həyat tərzimizi birgəyaşayış modeli olaraq dünyaya təqdim edirik. Ölkəmizə qarşı təxribatların arxasında dayanan və təşkilində iştirak edən qüvvələr bilməlidirlər ki, Azərbaycan cəmiyyətində radikal, ekstremist qüvvələrə, onların destruktiv ideologiyalarına yer yoxdur və Azərbaycan dindarları heç vaxt belə qüvvələrin məkrli təxribatlarının ardınca getməyəcəklər. Azərbaycan bayrağına siyasi sifarişlə, din, məzhəb təəssübkeşliyi bəhanəsi ilə həqarət olunması yolverilməz təxribatdır və ümidvarıq ki, Böyük Britaniya hökuməti hadisə ilə bağlı lazımi ölçü götürəcəkdir. Düşmən qüvvələr Zəfərimizin əsas mənbəyinin milli, dini birliyimizin olduğunu gözəl bilir, bu səbəbdən məhz bu birliyi hədəf alırlar. Heç bir qüvvə güclü, sarsılmaz Azərbaycan dövlətinin bayrağını endirə, mənəviyyatımıza, birliyimizə, mənəvi ənənələrimizə xələl gətirə bilməz.

Əhli-Beytə ehtiramın uca tutulduğu, İslami dəyərlərə yüksək qiymət verildiyi ölkəmizdə milli-dini vəhdətimizə heç kim xələl gətirə, nifaq sala və səflərimizi dağıda bilməz.

Milli-mənəvi dəyərlər bizim ümummilli sərvətimizdir. Bütün qələbələrimizin kökündə tarixən qoruyub saxladığımız bu dəyərlər durur və Azərbaycan bu irsə istinadən hər zaman qələbələr qazanacaq, yeni tarixi Zəfərlərə imza atacaqdır, İnşallah!"

# Milli Şuranı diriltmək istəyirlər







**Yadınızdadırsa özlərini radikal müxalifət adlandıran bir qrup özlətinə "milli şura" deyilən qurum yaratmışdılar. Professor Cəmil Həsənlini də bu "şuraya" rəhbər seçmişdilər. Cəmil müəllim bir vaxtlar deputat mandatı da daşımışdı və onda adı müxalifət yönümlü olsa da, müxalifətçilik zad eləməzdi. Amma növbəti seçkilərdə mandat ala bilmədiyi üçün müxalifətçi olduğu yadına düşdü və elə hesab elədi ki,hakimiyyətə qarşı radikal mövqe tutmaqla nəyəsə nail olacaq. Ilk vaxtlar çox "çalışdı", müxalifətin təşkil eləyi məhşur Qələbə kinoteatrının yaxınlığındakı stadiona toplaşan bir-neçə yüz adamın iştirakı ilə keçirilən mitinqlərdə anladı ki, xalq nə radikal adlandırdıqları müxalifəti, nə də "milli şura" adlandırdıqları qurumu dəstəkləmir. Alınmadı və yaratdıqları "milli şura" nəinki xalqın, heç müxalif qüvvələrin də etimadını qazana bilmədi.**

5-6 il "çəkdiyi əziyyətin bir fayda verməyəcəyini görüb, baş götürüb xaricə qaçdı. Ordan da, ara-sıra verdiyi mənasız bəyənat və açıqlamalarla, bir neçə dəfə milli şura adlandırdıqları qurumun 4-5 nəfəri ilə "zoom" proqramı vasitəsilə onlayın iclaslar keçirməklə guya hələ aktiv siyasətdə olduğunu göstərmək istədi, amma yenə uğursuz alındı və heç nə əldə edə bilmədi.

İndi deyəsən Cəmil müəllimin özü də bu uğursuzluqlardan bezib. Son vaxtlar məlumat gəlir ki, hazırda uzun illərdi xaricdə yaşayan Cəmil müəllim milli şura sədrliyindən istefa vermək qərarına gəlib.

Hazırda yeri boşdu və deyilənə görə, həmin yeri Gültəkin Hacıbəyli ilə, Tofiq Yaqublu tutmaq istəyir. Milli şura özü bu illər ərzində gündəm yarada bilməsə də, Tofiq bəy ara-sıra müxalifətin təşkil elədiyi uğursuz mitinqlərdə, yürüşlərdə, piketlərdə əsayişi qorumağa çalışan polis əməkdaşları ilə qalmaqallarla bəzi KİV-lərin və sosial şəbəkələrin gündəminə çevrilməyi bacarıb. Amma eks YAP-çı, eks deputat Gültəkin xanımın şuradakı fəaliyyəti barədə nəsə söyləmək mümkün deyil. Görünən odur ki, Cəmil müəllimin rəhbərlik etdiyi şura artıq unudulub və yenidən gündəmə gəlmək niyyətilə "istefa" oyununu ortaya atıblar. Lakin ölü doğulmuş bir qurumun yenidən həyata qaytarılacağı cəhdlərinin uğur qazana biləcəyi heç inandırıcı görünmür.

**Mehriban Cəfərova**

# Tural İsmayılov: "Ermənistan Rusiya və onun imzasına qarşı da açıq hörmətsizlik nümayiş etdirir"

**"Qisas" antiterror əməliyyatı bir daha bunu sübut etdi ki, qalib tərəf kimi Azərbaycanın diqtə etdiyi tələblər yerinə yetirilməlidir.**



Bunu Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi Tural İsmayılov "Qisas" antiterror əməliyyatı ilə bağlı Adalet.az-a danışarkən deyib.

"Təəssüflər olsun ki, Ermənistan son 10 noyabr bəyanatının müddəalarına əməl etmir və bununla bağlı üstünə götürdüyü öhdəlikləri icrasından boyun qaçırır. Son bir həftə ərzində Ermənistan tərəfindən Kəlbəcər, Laçın, Gədəbəy, Xocavənd istiqamətində bir neçə dəfə atəşkəs pozulub, mövqelərimiz atəşə tutulub. Sonuncu olaraq isə dünən Azərbaycan ordusunun əsgəri şəhid oldu. Bütün bunlardan sonra Azərbaycan ordusu öz ərazisində yerləşən qanunsuz birləşmələrə qarşı antiterror əməliyyatına start verdi. "Qisas" əməliyyatı nəticəsində kifayət qədər vacib coğrafi mövqelər ordumuz tərəfindən Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi konteksində işğaldan azad edildi. Həmin bölgələrdə Azərbaycan ordusu tərəfindən mühəndis istehkam işləri görülməyə davam edir. Bütövlükdə Laçın dəhlizinə alternetiv yolun Azərbaycanın üzərinə düşən hissəsini ölkəmiz artıq demək olar ki yekunlaşdırıb. Ermənistan isə hələ də bu yolun öz ərazindən keçən bu yolun tikintisilə bağlı məsələdə çevik davranmır və ümumilikdə Laçın dəhlizinin təhvil verilməsilə bağlı 10 noyabr bəyannaməsinin müddəalarına əməl etməməklə həm də Rusiya və onun imzasına qarşı da açıq hörmətsizlik nümayiş etdirir.

"Qisas" antiterror əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan prezidenti İlham Əliyevin vurğuladığı kimi Ermənistan Azərbaycanın bütün sülh danışıqlarına, eyni zamanda iki ölkə arasındakı münasibətlərin normallaşdırılması prosesinə sabotajlar törətməyə davam edərsə, təxribatlardan əl çəkməsə, o zaman Azərbaycanın dəmir yumruğu yerindədir. "Qisas" antiterror əməliyyatı bir daha bunu sübut etdi ki, qalib tərəf kimi Azərbaycanın diqtə etdiyi tələblər yerinə yetirilməlidir. Bu xoşluqla olmasa Azərbaycan öz suveren hüquqlarını bərpa edəcək".

**Eminquey**

# Qarabağda antiterror əməliyyatı - ABŞ və Rusiyanı birləşdirən tək məqam - ANALİZ

**Avqustun 3-də Azərbaycan Ordusunun Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinə qarşı apardığı "Qisas" əməliyyatı ugurla başa çatdı.**





Maraqlı burasıdır ki, 100 ildir müxtəlif qütblərdən hər zaman bir-birinə qarşı olan ABŞ və Rusiya növbəti dəfə Qarabağ mövzusu meydana gələndə eyni fikirləri səsləndiriblər.

Adalet.az İnterfaks.ru- ya istinadən xəbər verir ki, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Bakı və İrəvana çağırış edib. Peskov bildirib ki, Kreml Qarabağda vəziyyətin gərginləşməsindən narahatdır, onun inkişafını izləyir və tərəfləri təmkinli olmağa çağırır: "Həqiqətən də biz hadisələri diqqətlə izləyirik, təbii olaraq vəziyyətin gərginləşməsindən narahatıq, tərəfləri təmkinli olmağa, ən əsası məlum üçtərəfli sənədlərin bütün müddəalarına əməl etməyə çağırırıq"

Maraqlıdır ki, Azərbaycan Ordusunun Qarabağda qeyri-qanuni yerləşmiş erməni silahlı dəstələrinin üzvlərinə qarşı apardığı "Qisas" əməliyyatarəsmi Vaşinqtonun fikirləri Rusiyanın fikirlərindən heç də fərqlənməyib. Beləki, ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays deyib ki, ABŞ Qarabağdakı vəziyyətdən narahatdır və gərginliyi azaltmaq üçün təcili tədbirlər görməyə çağırır: "Birləşmiş Ştatlar Qarabağda toqquşmalar barədə məlumatlardan dərin narahatdır və Qarabağ bölgəsində intensiv döyüşlər, eləcə də insan itkiləri barədə xəbərləri diqqətlə izləyir". Praysın onu da qeyd edib ki, vəziyyətin gərginləşməsi regiondakı bütün həll edilməmiş məsələlərin razılaşdırılmış, hərtərəfli və davamlı həllinə ehtiyac olduğunu göstərir.

Yeri gəlmişkən KTMT-nin baş katibi Stanislav Zasın fikirləri də Kremlin, yaxud Ağ evin fikirlərindən fərqli deyil: "KTMT Katibliyi "Dağlıq Qarabağ"da baş vermiş və insan tələfatına səbəb olan silahlı toqquşmalar barədə xəbərdən narahatdır. Həlak olan hərbçilərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Biz münaqişə tərəflərini güc tətbiqindən çəkinməyə və mövcud fikir ayrılıqlarını aradan qaldırmaq üçün sırf diplomatik üsullardan istifadə etməyə çağırırıq"

**Bir beynəlxalq qurumun, iki hegemon dövlətin doğrudanmı yadından çıxıb ki, 10 noyabr 2020-ci il bəyanatına əsasən Azərbaycan qanunsuz erməni silahlılarının Azərbaycan ərazisindən çıxmasını, Zəngəzur yolunun açılmasını və Laçın yolunun alternativə dəyişdirilməsini iki ildir gözləyir?. Dünyanın da diqqəti bu məsələnin həllindədir . Amma Ermənistan hakimiyyətinin hazırkı mövqeyi münaqişəni nəinki səngidir, əksinə daha da alovlandırır. Adıgedən dövlətlər və KTMT Qarabağ məsələsinin həllini istəyirsə, Azərbaycana deyil, Ermənistana çağrış etməli olduğunu, eyni zamanda 10 noyabr sazişinin maddələrini yerinə yetirməsinin vacibliyini Paşinyana anlatmalıdırlar !**

**Əntiqə Rəşid**

AQİL ABBAS

# BAYRAKLARI BAYRAK YAPAN ÜSTÜNDƏKİ QAN DEYİL...

*Bu bir şairin bayrağa sevgisinin poetik tapıntısıdır, vəssalam. Bunu televiziya çıxışlarımda da demişəm, bayrağı bayraq yapan üstündəki qan deyil. Ona qalsa Stalinin də bayrağında qan vardı, Hitlerin də. Amma o qanlar bayraqları bayraq yapa bilmədi. Günlərin birində atdılar ayaqlar altına. Düzdür, indi Putin Stalinin bayrağını yenidən bayraq yapmaq istəyir, amma çox gecdir - pozdno, Rita.*

*Məmməd Əmin Rəsulzadənin də bayraq haqqında gözəl bir fikri var, uşaq da əzbər bilir: "Bir kərə yüksələn bayraq bir daha yenməz!". Amma bu da bayraq sevgisidir. O qədər yüksələn bayraqları yenən görmüşük ki. Yenə Stalinin, Hitlerin bayraqları... Misal çox çəkmirəm.*



*Bayraqları bayraq yapan üstündəki qan deyil, bayraqları bayraq yapan onu başının üstündə ucaldan millətdir. Bir kərə yüksələn bayrağı yenməyə qoymayan da millətdir.*

*Amerika filmlərində çox görmüşük, bayraqlarını çimərlikdə iç tuman kimi geyinirlər. Və yaxud bayraqları ilə hətta ayaqqabılarını təmizləyən də görmüşəm. Day dünyada elə bir ölkə yoxdur ki, ABŞ bayrağını yandırmasın, ayaq altına atmasın, tapdamasın, amma vecinə deyil. Çünki amerikalılar yaxşı bilirlər ki, öz bayraqlarını bir xalq olaraq elə bir yüksəkliyə qaldırıblar ki, onu ordan heç kim yendirə bilməz. Yəni bayraqlarından arxayındırlar. Həm də kim onların bayraqlarını tapdalayır, sonradan onlar da həmin ölkənin, dövlətin özünü tapdalayırlar.*

*Artıq Azərbaycan xalqı da öz bayrağını başının üstünə elə qaldırıb ki, heç bir kəs, heç bir qüvvə onu yendirə bilməz. Bir xalq, bir millət olaraq bunu bacardıq. Möhtərəm Prezident, cənab Ali Baş Komandan bu bayrağı Azərbaycanın ən uca zirvəsində - Şuşada başının üstünə qaldırdı, Şuşanın zirvəsinə sancdı. Oğullar bu bayrağın uğrunda şəhid oldular, amma bayrağı yenməyə qoymadılar. İndi Şuşada dalğalanan bayraq dünyanın hər yerindən görünür.*

*Millətin hissləri ilə oynamaq üçün kimsə bayrağı stolun üstünə tərsinə asılmış qoyur. Ermənilər özləri yandığından hər gün bayrağımızı yandırırlar, xeyiri yoxdu. İndi bir qrup şərəfsiz Londonda səfirliyimizə hücum edib, bayrağımızı açıb tullayıblar yerə. Bu, təxribatdan başqa bir şey deyil. Sən o bayrağı çıxarıb yerə ata bilərsən, tapdalaya da bilərsən, amma o bayrağı başı üzərinə qaldıran milləti tapdalaya bilməzsən!*

*Mənim sözüm ingilis hökumətinə və London polisinədir. Özünü dünyanın yiyəsi sayan Britaniya kimi bir dövlətdə bu cür biabırçılıq əslində bizim bayrağın tapdalanması deyil, Britaniyanın, özü də Veliko Britaniyanın bayrağının tapdalanmasıdır. Britaniyanın, özü də Veliko Britaniyanın nüfuzunun tapdalanmasıdır.*

*Hər bir ölkə ərazisində fəaliyyət göstərən səfirliklərin, diplomatik korpusların toxunulmazlığına cavabdehdir və təminatçıdır.*

*Azərbaycanda da səfirliklər və diplomatik korpuslar var, Azərbaycan hökuməti də, dövləti də onların toxunulmazlığının təminatçısıdır. Görək Azərbaycanda Azərbaycan polisi belə bir biabırçı hadisənin baş verməsinə biganə qala bilərmi? Qətiyyən! Nəinki hansısa bir ölkənin səfirliyinə hücum etmək olar, bayrağını yendirmək olar, heç icazəsiz həmin binaya yaxınlaşmaq mümkün deyil. Azərbaycan polisi buna qətiyyən yol verməz. Bu, Azərbaycan polisinin həm şərəf işidir, həm də borcudur.*

*Amma London polisi şərəf və ləyaqətinin borcunu yerinə yetirə bilmədi.*

*Ağzı olan da konuşuyor. Konuşuyor ki, səfirliyin işçiləri niyə müqavimət göstərmədi, niyə bayrağı qoruya bilmədi? Sadəcə olaraq bu təxribata uymadılar, təxribatın böyüməsinə yol vermədilər. Həm də arxayın idilər ki, Britaniyanın, özü də Veliko Britaniyanın polisi üzərinə götürdüyü öhdəliyi yerinə yetirəcək.*

*Amma Britaniyanın, özü də Veliko Britaniyanın polisi tumanının bağını bir az gec bağladı. Kənardan tamaşaçı kimi izlədi, sonra da guya təxribatı törədənləri tutub yığdı it maşınlarına, apardı. Və yəqin ki, aparıb polis idarəsində cərimələyəcəklər, sonra da buraxacaqlar. Demokratiya, al bu da sənə demokratiya!*

*Heç bir müsəlman, özü də İmam Hüseyn aşiqləri müqəddəs Məhərrəm ayında belə bir şərəfsizliyə, İmam Hüseyn adının ləkələnməsinə qol qoya bilməz. Bu, muzdla tutulmuş adamların (cübbəsini soyundursanız altından erməni casusu da çıxa bilər, ingilis də, amerikan da) Məhərrəmlik ayında, bu həssas dönəmdə Azərbaycanı məzhəb, savaş alanına çevirmək üçün törətdikləri uğursuz bir təxribatıdır.*

*Yəqin Azərbaycanın xüsusi xidmət orqanları bu məsələnin araşdırılmasını Britaniyanın, özü də Veliko Britaniyanın polisinin üzərinə qoymaz. İnşallah, xüsusi xidmət orqanlarımız cinayətkarların həm özlərini ifşa edər, həm də bu cinayətin hardan qaynaqlandığını tezliklə üzə çıxarar.*

*Bu millət 44 günlük müharibədə elə birləşib ki, heç bir təxribat, sosial şəbəkələrdə cahillərin yazdığı qarşılıqlı ittihamlar bu birliyi poza bilməz.*

*Day Tanrının başı çox qarışdığından Türkü qorumur, indi Türk Tanrını qoruyur.*

*Türk Tanrını qorusun!*

*Türk bayrağımızı qorusun və necə ki qoruyur!*

***P.S.*** *Şair Ramiz Qusarçaylının "Azərbaycan bayrağı" şeirini də çap edib soxuram bu bayrağı sevməyənlərin gözünə.*

## *Britaniya səfirliyinin müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə çağırılıb*

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**

Nazirlikdən verilən məlumata görə, bir gün öncə Londondakı Azərbaycan səfirliyinə qarşı dini radikal qrup tərəfindən törədilən hücumla bağlı XİN-ə çağırılan Britaniya müvəqqəti işlər vəkilinə qəti etiraz bildirilib. Bu təxribatın diplomatik nümayəndəliyin təhlükəsizliyinin təminatı məsələsini ciddi şəkildə üzə çıxardığını və ev sahibi ölkəsinin beynəlxalq hüquqi öhdəliklərinə uyğun olaraq təhlükəsizlik tədbirlərini görməli olduğu qarşı tərəfin diqqətinə çatdırılıb. Belə halların bir daha təkrarlanmayacağına dair qarşı tərəfdən zəmanət tələb edilib.

Baş vermiş vandallıq aktı ilə bağlı Birləşmiş Krallığın müvafiq qurumları tərəfindən hərtərəfli istintaq araşdırmanın aparılması və cavabdeh şəxslərin məsuliyyətə cəlb edilməsi tələbi səsləndirilib.

Britaniya müvəqqəti işlər vəkili baş vermiş hadisə ilə bağlı dərin təəssüf hissi və narahatlıqlarını ifadə edib. Hadisə ilə bağlı istintaqın aparıldığı bildirilib.

*İRADƏ TUNCAY*

# Qaynana idarəsi

**Əgər ailəyə dövlətin əsası deyiriksə... Ki, uzun illər belə demişik - qaynana önəmli adam sayılmalıdı... Əslində evdəki qadınların hər ikisi (bəzən çox da ola bilər) eyni bir kişini - evin sahibini, yiyəsini sevir və paylaşmağa məcburdu... Ortaq dəyər deyək...**

Amma, amma, amma... Uzaq tarixlərdən evdəki qadınların qatı düşmənlər kimi davranışı da məlumdu axı... Təbii ki, bu, ev yiyəsini tədirgin edən bir durumdu və o, belə hallardan uzaq olmaq istəyir. Zamana görə dəyişik hallar ola bilər və hər kəsdə fərqli, mental olaraq toplumlar arasında da fərqli deyək... Amma ortaq tərəfləri də var bu ailəvi xəstəliyin... Qısqanclıq deyək. Hər iki qadın haqlı olduğunu düşünür və öz haqqının daha çox, daha üstün olduğunu düşünür... Burda "qardaş payı" sözünü işlədə bilməyəcəyik, dava elementləri, dava üçün səbəblər həddən çoxdur... Və həm də təcrübə də çoxdur... Aşağı-yuxarı ailə sözü varsa bu fiqurlar da mövcuddur...

Böyük qadın... Yəni mövqeyi böyük, təcrübəsi böyük, nüfuz qabiliyyəti çox olan qadın bir müddət anadır əlbət. Bir müddət... İllər keçdikcə, yaş artdıqca və kapital azaldıqca yerlər dəyişə bilər... Və əlbəttə burda evin idarəsi kimin əlindədirsə (kişinin yəni) onun xasiyyəti mühüm rol oynayacaq. Bəzən özünü qurban, bəzən də vampir kimi aparan qadın. Xüsusən də qadının özünün şəxsi həyatı yoxdursa... Vacib amildir... Şəxsi həyat... Həyat ümumilikdə... Varsa yola getmək mümkün olur...

Xarakter, savad, tərbiyə fərqi var. Fizioloji fərq var. Lazımsızlıq hissinin yaranması var... Gəncliyin getmə təəssüfü var... Varlar var bir xeyli...

Ailə modeli - təsəvvür edək. Çaydan qaynana - qaynayır pakkaa-pakla, gəlin dəmlənir altdan-altdan, damad hər iki qadının doldurduğu çay stəkanı, qaynata (çox da müzakirə mövzusu olmayan obraz) sakit qalan, yerində qalan sini, baldız da çay qaşığıymış - qarışdırırmış ortalığı... Kobud bənzətmə oldu deyəsən .... Amma həyatında ikinci qadının peyda olacağına hazır olmalısan. O, mütləq gələcək. Və səndən asılı olmayacaq bu yalnız...

Ana oğluna uşaq kimi yanaşsa da, gəlini çox böyümüş biri kimi görsə də... Hər iki qadın münasibətlərdə ancaq qüsur axtarır, üstünlük yox. Danlaq artıq dərəcədə çoxalır... Hər addımını lupayla izləməyə çalışırsan... Tam da bir iqtidar-müxalifət savaşına çevrilir münasibətlər. Ya da ölkələr arası diplomatik savaşa. Ana qadın özünü hər zaman haqlı sayır. Eqolar tüğyan edir... Tam da bir cəmiyyət münasibətləri.

"Qarabağ" futbol klubunun oyununda bizə olunan ləçərliyi görüb xatırladım Vaqif Səmədoğlunu... Onun Strasburqda foyedə royalda Şopeni ifa etməsini, təəccüb və ikrahla baxan Avropalıları da xatırladım. Qaynana gəlinə baxan kimi baxırdılar bizə... Onun söhbətindən xatırladım yəni... Yəni bunlara baxın da... Adam sayırlar özlərini...

Əlbəttə, çox yerləri görmüş biri kimi deyim - Avropada futbol oynayan və ya royalda ifa edənlərimiz də var... Azdı sadəcə... Sonra məcbur olub qayıdacaqlar elə bura... Ora bizim deyil... Amma buranı da ora kimi etməliyik!!! Bizim kəndi şəhərə çevirməliyik, yoxsa xeyiri yoxdu... Yoxsa elə irqçi yanaşma davam edəcək... Yoxsa yenə hamının qarşısında təzim etməyə məcbur olacağıq...Yoxsa yenə olmayan elmdən, olmayan TV-dən danışacağıq...

Olanlar isə var... Sadəcə qoruya bilmirik...

İnsana işgəncə verəndə əvvəl qışqırır, ağlayır, sızıldayır, sonra heç nəyə reaksiyası olmur... Susur və ağrını hiss eləmir... Ağlayan, sızlayan, qışqıran adamın həyata qayıtmaq şansı var... Susdunsa öləcəksən - bir nömrəli qanun!!!!!!!! Ağrını hiss eləmək lazımdı...

Bağırmaq lazımdı!!! Lap qaynana-gəlin kimi savaşmaq...

Nə sirrdi bilmirəm, hər iyul ayında tufan qopur mətbuat aləmində... Ümumiyyətlə, mətbuatda xanlıqlara parçalanma hökm sürür. Vaxtilə məşhur bir film vardı "Qatır Məmməd" - adını rusca belə tərcümə etmişdilər "Mstitel iz Qəndjabasara"... Gəncəbasarlı qisasçı... Region söhbəti oldu... Bu söhbət əbədi məsələdi deyəsən, çıxmır gündəmdən. Bir vaxtlar mətbuat Fatma xanımın protektoratı altında idi - onun hansı bölgəyə aid olduğunu bilmirəm, sonra məlum kim oldu. Regionu da məlum, nəticələri də məlum. Yetirmələrini də bilirik. Hazır materialdı, niyə dəyişsinlər? Gəncəbasarlı qisasçı (filmin adını deyirəm haa) da qanadları altına aldı onları və qanadlar geniş açıldığından yer tapıldı hamısına. Amma arada yerli əhəmiyyətli mövqe savaşları davam edir... Müşahidələrim deyir ki, köhnə (köhnəlməyən) xozeyin daha güclüdür və qisasçı onun adamlarına tabe olacaq ... Görək savaş hansı strateji və taktiki əsaslarla davam edəcək. Çünki ortada başqa fiqurlar da mövcuddu Hər sahədə qaynana idarəsi var.

Ən kütləvi peşədi - bizim işimiz. Bir vətəndaşa üç jurnalist düşür təxminən. Ona görə hamı çalışır bu sahədə monopoliyanı ələ keçirsin.

Yazanlara arzum - Oxumağı bacaran, anlayan, qiymətləndirən bir cəmiyyətiniz olsun. Cəmiyyət derkən əlahəzrət Oxucunu nəzərdə tutdum. İMZAnızın gətirdiyi parayla, çörəklə yaşamağı arzu edirəm. Bax, o zaman gələndə...

Obyektiv səbəblərdən TV izləməli olmuşam son günlər... Nə görürəm? Müğənnilər samo-soboy... Həm də yemək bişirmək dərsləri çoxalıb...

Deməli, partiya və hökumətimiz bizdən əlini üzüb... Siyasət özlərinə aiddi, düşüncə də eləcə... Deyirlər nə eləmişik əcəb eləmişik, əlimizin içindən gəlib...

Şir və tülkü ac olurlar, qarşılarına eşşək çıxır... Eşşək görür ki, bunu yeyəcəklər - deyir ki, məni yesəniz padşahla başınız dərdə girər. Şir də, tülkü də soruşur ki, niyə? Eşşək cavab verir ki, mən padşahın fərmanlı eşşəyiyəm! Deyirlər hadi ya - fərmanın harda? Eşşək deyir - arxa sağ ayağımın altındakı nalda yazılıb,oxuyun görəcəksiz... Şir bağırır ki, ay tülkü, oxu görək... Tülkü də çoxbilmiş... Deyir mən savadsızam, oxumaq-yazmaq bilmirəm... Şir qəzəblə özü gedir eşşəyin ayağının altını oxumağa və eşşək buna elə bir təpik vurur ki, sümükləri qırıq-qırıq olur... Tülkü qorxudan aradan çıxır və deyinir ki, bu dövrdə oxumaq da başa bəla...

Nəsə deyirdimee... Yadımdan çıxdı...

Bu didişməni nahaqdan fikirləşməyiblər.

Reklamlara baxıram - "Sən ana olacaqsan" - deyir... Nə üçün olsun ki? Bir qrup adam pul qazanacaq deyə? Həkim, memar, əsgər, alim? Bu proyekt nədən yaradılıb? Bu qısa ömürdə çürüməkdən ötrü?

Bayaqdan müşahidə edirəm ana zarıyır, oğul da sürüyür ananı həkim kabinetlərində. Oğul da gənc deyil, o da az keçmiş elə ananın tayı olacaq... Özü sürünəcək... Anlaya bilmirəm bizim kimi yoxsul ölkələrdə niyə artmağa, doğub-törəməyə çalışırıq... Bir qrup üçün??? Qaynana idarəsi olsun deyə...

**Dövlət Baba, bizim qaynanamız kimdir?**

*AQİL ABBAS*

# İslanmışın yağışdan nə qorxusu

*Mətbuat, bir tərəfdən sosial şəbəkələr, bir tərəfdən də yüksək çinli dövlət məmurları, Operativ Qərargah yaydıqları xəbərlərdə, açıqlamalarda elə bil söz veriblər ki, bu xalqı daima vahimə və qorxu içərisində saxlasınlar.*

*Oxuyuram, ikinci baş nazirimiz hörmətli Mikayıl Cabbarov bir açıqlama verib ki, böhran gözlənilir. Amma bu böhrandan necə çıxacağıq, bu barədə heç nə demir. Böhran olacağını, böhran gözlənildiyini nənəm də bilir. Bütün dünyada böhran varsa, təbii ki, Azərbaycan göydən zənbillə düşmədiyinə görə, bizdən də yan keçməyəcək. Özü də Mikayıl müəllim dedi, demədi böhranı canımızda hiss edirik.*

*Hörmətli Mikayıl Cabbarov iqtisadçı alimləri başına yığıb böhrandan çıxış yollarını axtarmalıdı.*

*Heç kəsə sirr deyil ki, bəşəriyyətdə III Dünya Müharibəsi əslində çoxdan başlayıb. Rusiya Ukrayna ilə yox, bu müharibəyə ABŞ başda olmaqla NATO dövlətləri də qoşulub. Çinlə ABŞ müharibənin astanasındadı. Yaxın Şərqdə bir rahat ölkə yoxdur. Suriya, Liviya, İraq, Yəmən, İsrail, Fələstin və sairədə müharibə davam edir. Əfqanıstan da buğda yeyib behişdən çıxıb... Pakıstanla Hindistanın münasibəti də aydındı. İndi bir tərəfdən də Avropanın mərkəzində Serbiya Kosova ilə yenidən müharibə vəziyyətindədi.*

*Bir tərəfdən də bizdə müharibə xəbərləri yayılmaqdadır. Nə qədər prokurorluq işə qarışır, Müdafiə Nazirliyi az qala boğaz çəkib yalvarır ki, rəsmi məlumatlardan başqa ayrı məlumat yazmayın, xeyri yoxdur. Kimə deyirik?*

*Evdə nəvəm də soruşur ki, baba, müharibə olacaq? Deyirəm ki, qorxma, olmayacaq. Mən deyirəm olmayacaq, amma əlindəki telefon deyir olacaq.*

*Vahimə yaratmaq nəyə lazımdır. Bir də ki, islanmışın yağışdan nə qorxusu?! 30 ildən çoxdur müharibənin içində yaşayırıq. İkincisi də 44 günə 17 min kv.km-dən artıq ərazini işğaldan azad edən Müzəffər Ordumuz və Ali Baş Komandanımız, 44 gün əsgərlərlə bir yerdə olan xalqımız da. 2 min kv.km-də (olsun 2500) toplaşmış terrorçuları təmizləmək üçün Azərbaycan ordusuna 44 gün yox, 44 saat lazımdır. Sizi inandırıram, belə bir müharibə olsa, o incik qazilər var ey, birinci onlar gedəcək. Çünki onlar bir dəfə ölüb-diriliblər, ölüm onlar üçün adi bir şeydir və bu Vətən torpağını da canlarından və onları incidənlərdən çox istəyirlər.*

*Aradan iki ilə yaxın keçməsinə baxmayaraq, sülhməramlılar, daha dəqiq desək, Rusiya üzərinə düşən öhdəliyi yerinə yetirmədi. Ermənistan Xankəndi yolunu su yoluna çevirsə də, nəinki Zəngəzur dəhlizi açılıb, hətta Ağdamdan Şuşaya gedən 37 km yol da üzümüzə bağlanıb.*

*Putin SSRİ-ni bərpa eləmək istəyir. Amma unudur ki, SSRİ-nin dağılması Qarabağ hadisələrindən başlayıb. Əgər yenə ermənilərə "stavka" edib üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsə, nəinki SSRİ-ni bərpa edəcək, Rusiyanın özü də dağılacaq.*

*Xalqı vahimə içərisində saxlamayın. Müharibə olacaqsa, vuruşacayıq, necə ki, 44 gün vuruşub qalib gəldik. Böhran olacaqsa, ona da hazırıq. Elə böhranın içində yaşayırıq da.*



Emin Çölaşan

# Hitlerin Qobbels maşını

*Faşist Hitler rejiminin təbliğat naziri Qobbels sıradan bir insan deyildi.*

*Təbliğat işlərinin "kitabını yaza biləcək" səviyyəyə çatmışdı.*

*1940-cı illərdə media sadəcə qəzetlərdən və radiodan ibarət idi.*

*Televizor, internet və sairə şeylər kəşf edilməmişdi.*

*Qobbels mövcud medianı ələ aldı və bala-bala istədiyi kimi istifadə etməyə başladı.*

*Qorxudaraq, əzərək, həbs cəzalarıyla, edam fərmanları ilə...*

*Hitler rejiminə qarşı çıxan bir dənə də olsun media qurumu qalmamışdı.*

*Qəzetlər, dərgilər və radio əmirləri və təlimatları sadəcə ondan alırdı. Ölkədəki bütün müxalif kəsimlərlə birlikdə media da yox edilmişdi.*

*Hətta məhkəmə sistemi də rejimin nəzarətinə keçmişdi.*

*Hakimlər, vəkillər qərarlarını qanunlara görə yox, Hitler-Qobbels ikilisinin əmir və təlimatlarına görə verirdi.*

*Bu prosesdə Hitlerin sağ əli, təbliğat naziri Qobbelsin yaratdığı "prinsiplər" ortaya çıxdı.*

*- Bir çox insanda beyin tənbəlliyi var. Bundan istifadə edib istədiyimiz hər şeyi etdirə bilərik.*

*- Yalan deyin, mütləq inananlar olacaq. Olmasa, yalan danışmağa davam edin. Bir şeyi uzun müddət nə qədər çox təkrar etsəniz, insanlar o qədər çox inanacaqlar.*

*- Yalan belə olsa, bir fikri tez-tez təkrarlayın. İnsanların çoxusu sonra o fikri unudur, öz fikri kimi mənimsəyir və müdafiə etməyə başlayırlar.*

*- Söylədiyiniz yalan nə qədər böyük olarsa, o qədər təsirli olar və insanların inanması asanlaşar.*

*- Xalqı həmişə müxtəlif vədlərlə, ümidlərlə atəşə tutun. Soyumasına və düşünməsinə izn verməyin.*

*- Xətalı olduğunuzu, səhv etdiyini əsla qəbul etməyin.*

*- Xalq böyük yalanlara kiçik yalanlara nisbətən daha tez inanır.*

*- Özünüzdən başqa heç kimə meydanda hərəkət üçün yer qoymayın.*

*- Qəbahəti və günahı heç vaxt üstünüzə götürməyin. İşinizə gəlməyən hər şeyi inkar edin.*

*- Bir rəqibinizə fokuslanın və tərsə düşən hər şeyin günahını həmişə onun üstünə atın.*

*- Yaxşı bilin ki, məhkəmə dövlət həyatının ağası deyil, Fürerin və dövlət siyasətinin xidmətçisidir.*

*- Ətrafınızda həmişə yaltaqlar ordusu olsun. Öz medianızı yaradın, onlar sizi daima tərifləsinlər.*

*- Prestik və karizma sahibi bir lider yalançı olsa belə təbliğat onun işini asanlaşdırır.*

*- Vacib olan aydınlar deyil, kütlələrdir, çünki onları aldatmaq daha asandır.*

*- Vicdansız və satılmış bir media əlimizin altında olduğu müddətdə yaradılan şüursuz xalq ən böyük dayağımızdır.*

*Hitlerin Təbliğat naziri Qobbels bu işin həqiqətən ustası olaraq illərlə Hitlerə xidmət etdi, alman toplumunun beynini yudu.*

*Dilimizə uyğunlaşdıran:*
*Eminquey*

# Ukraynalı iş adamı öldürüldü



**Rusiyanın Ukraynanın cənub-şərqindəki Nikolayev şəhərini hədəf alan bombardmanları nəticəsində ölkənin ən zəngin iş adamlarından biri olan Oleksiy Vadaturskinin həyatını itirdiyi bildirilib.**

BBC Türkcənin verdiyi xəbərə görə, Ukrayna mediası 74 yaşlı Vadaturski və həyat yoldaşı Raisa Mixaylovnanın yaşadığı evin gecə saatlarında raketlə vurulduğunu açıqlayıb. Vadaturski taxıl ticarəti ilə məşğul olan Nibulon Group-un sahibi idi. İş adamına "Ukrayna Qəhrəmanı" medalı da verilib. Forbes jurnalının 2020-ci il qiymətləndirməsinə görə, Vadaturskinin aktivləri 450 milyon dollar təşkil edirdi. Cütlüyün öldürüldüyü hücum barədə şəhərin meri "Bu, bəlkə də bu günə qədər Rusiyanın ən ağır bombardmanı idi" deyə açıqlama verib. Atışma nəticəsində evlərlə yanaşı, bir otel, iki məktəb və idman kompleksi də zərər görüb. Qeyd edək ki, Nibulon şirkəti bir sıra infrastruktur işlərini, o cümlədən taxılın daşınması üçün silosların tikintisini həyata keçirmişdi. Dünyanın ən mühüm taxıl istehsalçılarından biri olan Ukraynadan daşınmalar Rusiya işğalı səbəbindən dayanmışdı. Türkiyə və Birləşmiş Millətlər Təşkilatının vasitəçiliyi ilə Rusiya və Ukrayna keçən həftə İstanbulda taxıl dəhlizi sazişi imzalayıblar.

# Ukraynada əhaliyə zorla rus pasportu verilir

**Ukraynanın müvəqqəti işğal olunmuş ərazilərində əhalini Rusiya pasportu almağa məcbur edirlər.**



Bu barədə Ukraynanın Baş Kəşfiyyat İdarəsi məlumat yayıb. "Melitopol və onun ətrafının sakinləri üçün işğalçılar "torpaq payları" ilə bağlı ictimai tələblər irəli sürüblər. Torpaq payları üçün icarə müqaviləsi olan şəxsləri onları yeniləmələyə məcbur edirlər. Müqavilə müddəti başa çatmış şəxslər Rusiya pasportu əsasında və Rusiya qanunvericiliyinə uyğun olaraq yeni müqavilə bağlamalıdırlar. Müqavilənin müddəti başa çatdıqda və mülkiyyətçi gəlmədikdə, o, torpaq paylarına sahib olmaq hüququndan məhrum edilir. İşğalçılar bildiriblər ki, sentyabrın əvvəlindən nəqliyyat vasitələrindəki Ukrayna tipli dövlət nömrə nişanlarını müvəqqəti nömrələrə dəyişmək lazımdır. Amma bunun üçün Rusiya pasportu da olmalıdır", - məlumatda deyilir. Qeyd olunur ki, Xerson vilayətinin işğal olunmuş ərazisində qondarma "yerli hakimiyyət" kənd təsərrüfatı istehsalçılarını Rusiyanın qanunlarına uyğun olaraq fəaliyyətlərini qeydiyyata almağa və "vergi" ödəməyə çağırıb. "İmtina edənlər torpaq sahəsinə sahiblik hüququndan məhrum ediləcək, aqrobiznes sahibləri isə rayondan çıxarılacaq", - deyə onların hədələndiyi vurğulanıb.

**MEHRİBAN**

# Enməyən bayraq



**Bir ölkənin səfirliyinə hücum etmək o ölkənin ərazisinə təcavüzdür.**

**Bayrağın endirilməsi o toplumun bütün dünyəvi, milli, mənəvi dəyərlərinə tüpürməkdir.**

**Bu isə son damladır. Paylaşdığım videodakı hadisə 1996-cı ilin avqustunda baş verib.**

**Türk bayrağını dirəyə çıxaraq endirməyə çalışan yunan türk hərbçisi tərəfindən elə dirəkdəcə, bayrağı endirmədən güllələnib. Londonda da belə olmalıydı...**

**https://www.youtube.com/watch?v=eEdadLgyLb4**

**Emin Piri**

# Nüsrət Tebişdən sonra Erhan Arman da məhv edildi: "Fərat qalxanı"da 4500-cü terrorçu...



**Xəbər verdiyim kimi, 29 iyulda Türkiyə Milli Müdafiə Nazirliyi məlumat verdi ki, Suriyanın şimalında "Fərat qalxanı" bölgəsində atəş açan 7 PKK/YPG terrorçusu zərərsizləşdirilib.**

Bundan əvvəl isə, yəni, 27 iyulda əməliyyatlar nəticəsində xeyli sayda terrorçu zərərsizləşdirilmişdi. Qurumdan deyilmişdi ki, şəhidlərimizin qisası alınıb:"Şəhidlərimizin qanı yerdə qalmadı. Türkiyə ordusunun komandoları "Fərat qalxanı" və "Sülh çeşməsi" əməliyyat bölgələrində PKK/YPG-nin 25 terrorçusunu məhv edib"

Əməliyyatlar bütün sürəti ilə davam edir.

Adalet.az Türkiyə mediasına istinadən xəbər verir ki, terrorçularının Suriya qanadının obyektlərinə kütləvi zərbələr endirilib. Adalet.az Türkiyə mediasına istinadən xəbər verir ki, PKK terror təşkilatının önəmli üzvü Nüsrət Tebişdən sonra, təşkilatın rəhbərlərindən olan Erhan Arman xüsusi əməliyyatla məhv edilib. Qeyd edək ki, 2012-ci ildə PKK-ya qoşulan "Berxwedan Muş" kod adlı Erhan Arman təşkilatın "şura" üzvü olub.

Qeyd edək ki, Türkiyə mediasının xəbərinə görə qurumdan bildirilib ki, "Fərat qalxanı" əməliyyatı çərçivəsində 4 500 terrorçunu zərərsizləşdirib.

**Əntiqə Rəşid**

# Beynəlxalq axtarışa verilən şəxs Azərbaycana ekstradisiya edildi

**Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Minsk Konvensiyasının tələblərinə əsasən Gürcüstan Baş Prokurorluğu ilə ikitərəfli münasibətlər çərçivəsində ölkəmiz ərazisində cinayət törətmiş şəxsin cinayət məsuliyyətinə cəlb edilməsindən ötrü Azərbaycan Respublikasına ekstradisiya edilməsi barədə sorğu edilib.**



Baş Prokurorluqdan Trend-ə verilən məlumata görə, Abşeron rayon prokurorluğunun icraatında olan cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmiş Bağırov Nurlan Şükür oğlunun - qabaqcadan əlbir olan bir qrup şəxs halında xüsusi amansızlıqla adam öldürmə əməlini törətməsinə əsaslı şübhələr müəyyən edilib. Nurlan Bağırov barəsində beynəlxalq axtarış elan edilib. Axtarışda olan şəxsin Gürcüstan Respublikası ərazisində yerinin müəyyən edilməsi əsası ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun Gürcüstan Baş Prokurorluğuna sorğusu təmin edilməklə Nurlan Bağırov avqustun 5-də Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə ekstradisiya edilib.

# Papazyandan sonra Abramyan da İrəvan aeroportundan qovuldu: Təfərrüat...

**Xəbər verdiyimiz kimi, Ermənistan hökuməti qatı millətçi, Fransadakı ermənilərin himayədarı, Daşnaksütyun" partiyasının üzvü, Murad (Frank) Papazyanın ölkəyə girişinə yasaq qoyub.**

Bu haqda Murad- Frank Papazyan öz Facebook hesabında paylaşım edib:" "Türkiyə və Azərbaycana girişimin qadağan edildiyini bilirdim və indi də bildim ki, bu, Paşinyanın Ermənistanına da aiddir".

Papazyan daha sonra paylaşımına bu sözləri də əlavə edib:" Mən 40 ildir Ermənistan üçün vuruşuram. İnanmazdım ki, qiymətim belə veriləcək. Xalqı bu hakimiyyət "DUR"deməyə çağırıram".

Diaspora rəhbərinin fikirlərinin müxalifət liderlərinin fikirləri ilə üst-üstə düşməsi Ermənistan Baş Naziri Nikol Paşinyan hakimiyyətinin diqqətini çəkməyə bilməzdi. Çünki, Papazyan Av-





ropada Ermənistanın və "Artsax"ın maraqlarını qətiyyətlə müdafiə etməsi ilə fərqlənir və eyni zamanda o, Fransa və "Artsax"ın parlamentlərarası dostluq qrupunun başında dayanır. Təbii ki, "Artsax Azərbaycan ərazisidir" deyən Nikol Paşinyanın yürütdüyü siyasətə zidd ermənilərdəndir. Görünən odur ki, nə qədər ki, Paşinyan bu ölkədə baş nazirdi, Frank Papazyan Ermənistana həsrət qalacaq. Frank Papazyan Avropada həm də Azərbaycan və Türkiyə hökumətlərinin əleyhinə təbliğatların başında duran ermənilərdəndir. Çünki, onun bu fəaliyyətini bilən hər iki qardaş ölkədə də onun ölkəyə girişi qadağan edilib.

Adalet.az erməni mediasına istinadən xəbər verir ki, bu dəfə "Hay Dat"ın ("Erməni məhkəməsi) təşkilatının Hollandiyadakı ofisinin rəhbəri, türklərə qarşı barışmaz olan Masis Abramyan Ermənistanda "persona nonqrata" elan edilib.

Abramyanın İrəvandakı Zvartnots hava limanından geri göndərildiyi deyilsə də səbəb açıqlanmır.

**Qeyd edək ki, 10 noyabr sazişindən sonra erməni diaspor təşkilatları o cümlədən Avropanın müxtəlif şəfərlərində fəaliyyət göstərən "Hay Dat" təşkiları Nikol Paşinyanın istefasını tələb edirdilər.**

**Əntiqə Rəşid**

*Rauf Tamer*

# Eşqim Xirosima...



**77 il oldu.**

**Amerikanın Yaponiyaya atom bombası ataraq insanlıqdan çıxmağının 77 ili.**

**Naqasaki və Xirosima.**

**Yüz minlərlə ölü, bir o qədər də yaralı, xəstə və şikəst...**

**Məhv olan nəsillər...**

**Nə olsun?**

**Amerika əllərindən insanların qanını yuyub geri qayıtdı, heç nə olmamış kimi.**

**Bir tərəfdən bəhanə uydurdu ki, Səddamda kimyəvi silah var, bir tərəfdən də yüz minlərlə insanı məhv etdi.**

**Hələ dünənə qədər Əsədin "həqiqətən" istifadə etdiyi kimyəvi silahlara göz yummağını demirəm.**

**Başda PKK olmaqla bütün terror təşkilatlarının qoruyucusu, havadarı və vəlisidir.**

**Bütün çevrilişləri memarı, yaradıcısı...**

**Bundan qəribə şəkildə zövq alır.**

**Sağalması mümkün olmayan birr uh xəstəsidir.**

**Bu halıyla "erməni soyqırımı" adlı bir nağılı bağrına basdı.**

**Heç kim bu nağılı yeməz.**

**Qurduğu dövlətin təməlində qan və göz yaşı var.**

**Tez ya gec, bir gün hesabı çəkiləcək.**

**Naqasaki və Xirosimaya atılan Atom bombasının 77-ci ildönümündə izləyək görək başqa nə hoqqa çıxaracaq.**

**Axı o üz qarası olan şeyləri zəfər kimi soxuşdurmaqda mahirdir?!**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# "31 fevral" dan sonra Kadırov yenə gülüş hədəfi oldu: "Böyük güc" kimdir?

**Məlum olduğu kimi son iki həftədir ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvana səfəri ilə bağlı vəziyyət gərgin mübahisə, proqnoz və şərhlər ortaya qoymuşdu. Adanı özünün əyaləti hesab edən Çin Pelosinin hərəkətlərini daxili işlərə müdaxilə adlandırır və hərbi cavaba qədər sərt cavab verməklə hədələyirdi.**

Ötən gün bütün dünyanın diqqətini n Çinə eyni zamanda Tayvana enən ABŞ təyyarəsinə yönəldiyi bir məqamda, planet nəfəsini tutaraq III Dünya Müharibəsi dəhşətinin bir addımlığında olduğunu izlədiyi vaxtda Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırovun pafosu hamı da bir gülüş yaratdı. Adalet.az xəbər verir ki, ötən gün, kritik bir vaxtda Kadırov öz teleqram kanalında ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvana səfərini şərh edib. Çeçen lider bildirib ki, 15 dəqiqədən sonra biz "böyük güc"ün kim olduğunu görəcəyik: "ABŞ və ya Çin? Biz özümüz haqqında hələ danışmırıq". Bütün hədə və gərginliyə baxmayaraq Nensi Pelosini gətirən xüsusi reys dünən, avqustun 2-də, Bakı vaxtı ilə saat 18.44 radələrində Taypey hava limanına endi. ABŞ öz siyasi iradəsini nümayiş etdirərək, SÖZ sahibi olan GÜC, dünyanın birinci dərəcəli dövləti olduğunu sübut etdi. Qeyd edək ki, hələ bu ilin fevral ayında Kadırov öz Teleqram kanalında siyasətçilərə sanksiyaların ləğvi üçün "31 fevrala qədər" vaxt vermişdi və onda da dünya ictimaiyyətinin gülüş hədəfinə çevrilmişdi.

**Əntiqə Rəşid**




*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*


# Yalan evimizi yıxır...

*...Bizə o qədər yalan deyiblər ki, o yalanlara düz 70 il inanmışıq. Düz 70 il SSRİ-nin tərkibində olanda inanmışıq ki, kommunizm olacaq, südün, balın, yalın içində üzəcəyik. Amma illər keçdikcə tam başqa şeylərin şahidi olmuşuq. O şeylərin şahidi olmuşuq ki, ötən əsrin 60-cı illərində kommunizm əvəzinə ölkədə aclıq olub. Daha doğrusu, o vaxt biz uşaq idik. Amma görünən o idi ki, ölkədə çörək qıtlığı var idi, ərzaq çatışmazlığı olurdu və üstəlik də bəzi məhsullar talonla satılırdı...*

*...Ancaq yalan öz işində idi. Deyirdilər ki, bizim vətəndaşlar hamıdan yaxşı yaşayır, yaxşı dolanır və yaxşı günlər görür. Deyirdilər ki, bir az da dözün, 15 ildən sonra kommunizm olacaq və hər şey də insanlara pulsuz veriləcək. Bir az da dözdülər, gördülər ki, yox balam, pulsuz heç nə yoxdur, əksinə hər şey qəhətə çıxır. Və ötən əsrin 70-ci illərində yağı, əti talonla verirdilər. Camaat növbəyə durub saatlarla gözləyirdi ki, talonla ət alacaq, yağ alacaq...*

*Bax, beləcə saxta rəqəmlər, saxta statistika baş alıb gedirdi. Xüsusən də pambıq "pripiska"sı tüğyan edirdi və belə çıxırdı ki, SSRİ-də dünyanın hər yerindən daha çox pambıq, taxıl və digər kənd təsərrüfatı məhsulları istehsal olunur. Bunlar hamısı kağız üzərində idi, real həyatda isə hər şey başqa cür idi: yəni ölkədə məhsul qıtlığı, aclıq və yalavaclıq hiss olunurdu. Belə yalanların üstündə günlərin bir günündə o qüdrətli ölkə dağıldı...*

*Bəzən yalanı elə deyirlər ki, onun həqiqət olduğuna inanırsan. Hətta həqiqətə inanmırsan, o yalana inanıb onun dalınca düşürsən. Elə bilirsən həqiqətdir və o yalana çatırsan, görürsən ki, balam yox, üstü parıltılı olan, içi də zəhər kimi dad verən yalanın özünə rast gəlmisən. Və bu yalanlar bu gün də davam edir. Yalan vədlər... yalan sözlər...yalan söhbətlər... Düşünürsən ki, yəqin bu yalanın ömrü az olar. Amma görürsən ki, yox, yalanın ömrü uzundur, sənin ömrün bu yalanlara çatmır. Ən azından ona görə ki, yalanı o qədər bər-bəzək, şirinlik və rəng vurub insanlara çatdırırlar ki, insanlar onun yalan və həqiqət olduğunu heç cürə aydınlaşdıra bilmir...*

*Mənim bir qohumum var. Bütün günü yalan danışır. Qardaşının danışdığı həqiqətə heç kim inanmır, amma onun danışdığı yalana hamı inanır. Hətta həqiqəti danışan qardaş deyir ki, vallah, mənim özüm də məəttəl qalmışam. Qardaşım elə gözəl yalan danışır ki, hətta özüm də dediyim həqiqətə şübhə ilə yanaşıram və onun danışdığı yalana inanıram. Qardaşım olduğuna görə demirəm ha! O hər şeyi bacarır. Mən isə çox şeyi bacarmıram. Onu həyatda fərasətli, işgüzar və ağıllı adam kimi tanıyırlar. Məni isə düz danışan, amma fərsiz, maymaq, bir işə yaramayan, qohum-əqrəbaya əl tutmayan insan kimi dəyərləndirirlər. Neyniyim, dünya belədir! Kim yalan danışırsa, o həmişə sevilir və irəli gedir...*

*Bax, ermənilər də belədir. Bizim dediyimiz həqiqəti dünya qəbul eləmir və onların yalanlarına inanır. Çünki onlar yalanı elə gözəl deyirlər ki, bizim xətrimizə dəyməsin, o yalanlar həqiqətə bənzəyir. Ən azından ona görə ki, ermənilər yalan danışmaq üzrə dünya çempionudur. Biz isə həqiqəti dünyaya çatdırana qədər çox çətin anlar yaşayırıq, faktları, sübutları ortaya qoyuruq, hər şeyi beynəlxalq hüquq əsasında gündəmə gətiririk. Amma buna inanmırlar, onların yalanlarına inanırlar...*

*Bu yerdə Vaqif Bayatılı Odərin bir şeiri yadıma düşür. Şeirin məzmunu belədir ki, həqiqət və yalan bir-biri ilə savaşa girir, axırda da şair deyir ki, yaşasın yalan! Çünki həqiqəti heç kim qəbul eləmir. Amma yalanı nəinki insanlar, hətta bütün dünya qəbul edir və ona həqiqət kimi inanır. Bax, ona görə də yalanlar həm dünyanın, həm də bizim evimizi yıxıb, yıxır və yıxacaq!*




*Emin Piri*


# Laçının ikiyə böldüyü cəmiyyət və ya cəmiyyətin böldüyü Laçın

*Cəmiyyətimiz yenə ikiyə bölündü. Əməliyyatdan orqazm olanlar və anti-əməliyyatçılar.*

*Vətən torpağı da bizimdi, o anaların göz yaşı da.*

*Heç birini kiçik görmək olmaz. Heç nə o anaların göz yaşından önəmli deyil, nə də vətəndən vaz keçmək olmaz.*

*Sadəcə hər iksinin də haqqını vermək lazımdı və danmaq olmaz. Bu arada Laçında yerləşən hərbi hissələrdən biri xidmət etdiyimdi. Günlərdir danışırdıq zabit yoldaşlarla. Xəbərimiz vardı bir çox məsələdən.Amma like, İp naminə düşünməkdənsə, yazmaqdansa adam vicdanını dinləməlidir. Sizin bilib-bilmədən yazdığınız o yalan güllələr neçə ananın ürəyini parçalayır, neçə övladın gələcək ümidlərini puç edir. Susmaq da olar. Hə, ayrı məsələ ki, vaxtında bəzi informasiyalar verilməlidir. Amma verilməməsi belə sizi məcbur etmir ki, İrəvana gedirik, Göyçəyə az qaldı kimi xəbərlərinizlə öz eqonuzu tətmin edərək insanları səksəkidə qoyasınız. Onsuz da bu xəbəri yazanların heç birinin o işlərdə rolu olmayacaq. Dövlət edəcək və bunu həyata keçirəcək oğulları var. Yuxarıda qeyd etdiyim kimi o iki təbəqə bilib bilmədən bir-birini üzür. Amma sonda bu dediyim orqazmçılar, ordudan xəbərsiz irəvanı alanlar- bax, onlar problemdi.*

*Sevinmək lazımdı, ordakı oğulların haqqını verməklə.*

*Üzülmək də lazımdı amma o oğullar hesabına vətən torpağının azadlığına sevinməklə. Birini edənin nə vətən sevincinə, nə şəhid üzüntüsü barədə paylaşımının səmimiyyətinə inanmıram.*

*Sondasa onu qeyd edim ki, hələ psixoloji və.s durumu yerində olan bir döyüşçünün( məhz döyüş görənin) f.bdakılar kimi müharibə tərəfdarı olduğunu görmədim. Çünki normal adam yaxşı başa düşür ki, müharibə nə deməkdir. Bu məhlə arası dıx-dıx da deyil. Bu təkcə dron deyil, bu təkcə pulla da deyil, bu təkcə adam öldürmək də deyil...*

*İnsanları müharibəyə başlamaq məcburiyyətində qoyanları lənətləyirəm. Müharibəyə qədər bütün müharibələrin əleyhinəyəm. Müharibə başladıqdan sonrasa müharibə tərəfdarı...*

*Belə...*

# Şimali Koreya yeni nüvə sınağına hazırlaşır

**ABŞ və Cənubi Koreya kəşfiyyat rəsmiləri Şimali Koreyanın Punggye-ri poliqonunda yeni nüvə sınaqları keçirməyə hazırlaşdığını müəyyən edib.**

Peyk görüntüləri sınaq yerində mart ayından etibarən Tunelin-3-ün girişində yeni qazıntıların aparıldığını və 2018-ci ildə dağıdılan bəzi binaların həmin ərazidə yenidən inşa edildiyini göstərib.

Digər tərəfdən, BMT ekspertlərinin BMT Təhlükəsizlik Şurasına təqdim etdiyi hesabatda Şimali Koreyanın Yonbyon nüvə sahəsindəki uranın zənginləşdirilməsi obyektini genişləndirməyə davam etdiyi bildirilib.

**MEHRİBAN**

# Diqqətsizlik ağır qəzalara yol açır...

## *Son vaxtlar respublikamızın avtomobil yollarında bəzi sürücülərin məsuliyyətsizliyi üzündən ölümlə nəticələnən qəzalar baş verir*

**Biz həmişə yay gələndə çox sevinirik. Sevinirik ki, yayda, daha doğrusu, isti günlərdə ailəmizi, uşaqlarımızı götürüb gözəl yerlərə və istirahət məkanlarına gedəcəyik. Və gedib orada ürəyimiz istədiyimiz kimi dincələcək, yorğunluğumuzu canımızdan çıxaracağıq. Elə çoxumuz da istirahət məkanlarına gedib çıxa bilirik və ürəyimiz istədiyi gözəl anları ailələrimizlə birlikdə yaşayırıq.**

Amma bir çatışmayan cəhətimiz var ki, meşədə, yaylaqda (burda şair dostum Əbülfət Mədətoğlu yadıma düşür), bulaq başında qaladığımız və kabab bişirdiyimiz ocağı söndürmürük, hətta bəzən yeyib-içdiyimiz vaxt yaranan tullantıları da o gözəl məkanlara atırıq. Hələ bundan da dəhşətlisi əgər ocağı söndürmədən gediriksə və külək də başlayırsa, onda demək həmin yerdə meşə yanğınları qaçılmaz olacaq. Elə meşə yanğınları da çox vaxt biz insanların səhlənkarlığından qaynaqlanır.

Deyəsən, bir balaca mətləbdən uzaq düşdük. Amma yenə qayıdırıq söhbət açacağımız əsas mövzunun üstünə. Yəni respublikamızın avtomobil yollarında nəqliyyat vasitələrinin sürücülər tərəfindən necə idarə olunmasına. Heç kimə sirr deyil ki, əksər sürücülər yol hərəkəti qaydalarına əməl etsələr də bir çoxları mövcud qanuna diqqət yetirmir, sürət həddini aşır, magistral yollarda manevr qaydalarını tez-tez pozur, kondisionersiz avtomobillərdən istifadə edir və hətta bəzən sərnişin daşıyan avtobus və mikroavtobus sürücüləri 16 saatdan çox sükan arxasında əyləşirlər. Üstəlik də bu gün mövsümlə əlaqədar olaraq bostan, tərəvəz məhsullarını Bakıya və digər yerlərə aparan sürücülər çox vaxt istirahət eləmir, düşünür ki, mənzil başına daha tez çatsa yaxşıdır. Bəli, əksər vaxt onlar mənzil başına tez çatırlar. Amma bəzən də sükan arxasında yataraq avtomobili aşırır, meyvə-tərəvəz məhsulları yola dağılır, üstəlik də bu qəzalar zamanı ölüm və xəsarət alma halları da qaçılmaz olur.

Bir çox sürücülər isə uzun müddət, hətta illərlə, nəqliyyat vasitəsini istismar etsə də, onu bir dəfə olsun belə texniki müayinədən keçirmir. Və fikirləşir ki, əşşi, texniki müayinə boş şeydir. Onsuz da mənim maşınım saz vəziyyətdədir. Əgər hər gün hər hansısa nəqliyyat vasitəsini idarə edirsənsə, heç olmasa ayda, ildə bir dəfə onu ustaya göstərmirsənsə, bu, o deməkdir ki, hə-



min avtomobil günlərin birində səni yarı yolda qoyacaq, hələ üstəlik də ya qəzalar zamanı həyatınla vidalaşacaqsan, ya da ağır xəsarət alacaqsan.

Əfsuslar olsun ki, bizdə bəzi sürücülər yol polisinin apardığı maarifləndirmə işlərinə biganə yanaşırlar. Daha doğrusu, düşünürlər ki, müəyyən tövsiyyələrə əməl eləməsinlər. Bu isə bayaq dediyimiz kimi, hər hansı yol-nəqliyyat hadisəsinin baş verməsinə münbit şərait yaradır. Yol polisi sürücülərə xəbərdarlıq edir ki, avtomobili yüksək sürətlə idarə etməyin, magistral yolda ara məsafəsi saxlayın, küləkli havada diqqətli olun, texniki cəhətdən nasaz avtomobillərlə yola çıxmayın, amma buna bir çox halda müxtəlif markalı maşınların arxasında əyləşən sürücülər əhəmiyyət vermirlər.

Son vaxtlar respublikanın avtomobil yollarında həm sərnişin daşıyan, həm ağır yüklər aparan, həm də Bakıya və müxtəlif yerlərə meyvə-tərəvəz məhsulları daşıyan sürücülər ağır qəzalar törədiblər. Bu qəzalar zamanı neçə-neçə sərnişin dünyasını dəyişib, neçə-neçə də sərnişin ağır xəsarətlər alıblar. Deməli, burdan belə nəticə çıxır ki, sürücü məsuliyyətsizliyi bu gün də davam edir. Respublikanın bütün avtomobil yolunda ən müasir standartlarına cavab verən kameralar quraşdırılıb və bu kameralar vasitəsilə baş verən yol-nəqliyyat hadisələrinin hamısı lentə alınır və sonradan o kameralara açıb baxarkən məlum olur ki, sürücülər yol hərəkəti qaydalarını kobud surətdə pozmaqda davam edirlər.

Gərək hər hansısa bir hadisə kiminsə başına gəlsin və bundan sonra diqqətli olsunlar?! İndi Baş Dövlət Yol Polisi İdarəsi 200-300 metrdən bir yol polisi qoymalıdır ki, hərəkətin təhlükəsizliyini tənzimləsin. Birincisi, yol polisinin o qədər qüvvəsi yoxdur və yollarda da bayaq dediyimiz kimi, ən müasir texniki vasitələr quraşdırılıb. Deməli, hər bir sürücü də zəhmət çəkib sükan arxasında əyləşərkən yol hərəkəti qaydalarına əməl etməlidir.

Bir vaxtlar bəzi yük maşınlarının sürücüləri gileylənirdilər ki, onları stasionar postda saxlayırlar. Mənim tanıdığım mişar daşı aparan "Kamaz" markalı yük maşınının sürücüsü deyir ki, heç bir stasionar postda qanunu pozmasan sürücünü saxlamırlar. Mən hər gün o postlardan keçib mişar daşı aparıram. Bir yol polisi olsun məni saxlamayıb. Çünki normaya uyğun maşına yük yığdırıram və özüm də qayda-qanuna əməl edirəm. Çox sağ olsun yol polisləri. Stasionar postda hava isti olanda maşını saxlayıram, bir az dincəlirəm, əl-üzümü soyuq su ilə yuyub yoluma davam edirəm. Biz sürücülərin də günahı çoxdur. 16, 17 saat sükan arxasında oluruq, sonra da bəzilərimiz yuxulayıb ağır qəza törədirik. Buna görə də norma iş rejimi olmalıdır və ona da uyğun əməl edilməlidir.

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli bildirir ki, biz hər hansı vəziyyətlə əlaqədar tez-tez sürücülərə müraciət edir və onlara tövsiyələrimizi bildiririk. Bir neçə gün bundan əvvəl isə avtomobillərin texniki baxışdan keçirilməsi ilə bağlı bir daha müraciətimiz oldu. Həmin sürücülərə bildirdik ki, hər bir sürücü avtomobili müəyyən edilmiş vaxtda texniki baxışa təqdim eləsin. Çünki vaxtında texniki baxışa təqdim olunmayan avtomobillər ağıllı radarlar vasitəsilə aşkarlanır və onlar barəsində elektron protokol tərtib olunur. Bu da o deməkdir ki, texniki baxışdan həmin nəqliyyat vasitələri vaxtında keçirilmədiyinə görə, 50 manat məbləğində cərimə olunur. Ona görə də bir daha tövsiyəmiz budur ki, sürücülər nəqliyyat vasitələrini vaxtında texniki müayinədən keçirsinlər.

**Hər şey gün kimi aydındır. Aydın olmayan odur ki, bir çox sürücülər bugünün özündə də yol hərəkətini pozmaqda davam edirlər. Bunun isə acı nəticələrini ya onlar özləri, ya da heç bir günahı olmayan sərnişinlər hiss edirlər. Havalar son vaxtlar daha da isti keçir, ona görə də hər bir sürücü kondisionersiz avtomobilin sükan arxasında əyləşməməli və hətta kondisioneri olan avtomobili idarə edən insanlar uzaq məsafələrə gedərkən mütləq dincəlməlidilər. Bu qaydalara əməl edilməsi o deməkdir ki, həm sürücü, həm sərnişin mənzil başına sağ-salamat çatacaq.**

**Faiq QİSMƏTOĞLU**

## *ÇİP-lər reallığa çevrilir*



**Nyu-Yorkda 48 yaşlı iflic xəstənin beyninə rəqəmsal cihazları telepatik yolla idarə etməyə imkan verəcək dörd santimetrlik çip yerləşdirilib.**

Bu, amiotrofik sklerozdan əziyyət çəkən və iflic olan bir şəxsə daimi beyin-kompüter interfeysinin ilk implantasiyasıdır. İmplant "Neuralink"in rəqibi olan "Synchron" tərəfindən hazırlanıb. Ekspertlərin fikrincə, cihaz artıq İlon Maskın beyin implantlarını qabaqlayır. İmplantın interfeysində beyin fəaliyyətinə nəzarət edən və insanın nəyisə düşündüyü zaman neyronların fəaliyyətini qeydə alan 16 elektrod var. Çip xəstənin sinəsinə implantasiya edilmiş başqa bir cihaza birləşdirilir. Yeni texnologiya sayəsində insan beyindən gələn siqnalları kompüter və ya smartfon kimi rəqəmsal cihazlara ötürə və beləliklə, onları idarə edə biləcək.

**Eminquey**

## *Bostan-tərəvəz məhsulları ucuzlaşır?*



**10-15 gün bundan əvvəl Bakı bazarlarında pomidorun 1 kq 1 manat 50 qəpik, 2 manat 50 qəpik arasında idi. Bu isə əhalinin çox böyük narazılığına səbəb olurdu. 3-4 gündür ki, adını çəkdiyimiz tərəvəz məhsulunun qiyməti aşağı enib. Yəni 1 manatla, 60 qəpik arasındadır. Amma görünən odur ki, bütün bostan-tərəvəz məhsulları avqust ayında heç də ucuz deyil. Buna da səbəb bəzi topdansatış mərkəzlərinin məhsullarının üstünə çox pul qoymasıdır. Yəni süni bahalaşma bu gün də var və İqtisadiyyat Nazirliyi buna qarşı ciddi mübarizə aparmalıdır.**

Əgər pomidorun qiyməti aşağı enibsə, digər bostan-tərəvəz məhsullarının qiymətinin baha olması ağılabatan deyil. Deməli, burda kimlərinsə əli var və bir də daxili bazar mütləq qorunmalıdır. Əgər məhsul daxili bazarı tam təmin edirsə, onda həmin bostan-tərəvəz məhsullarını ixrac etmək olar. Yoxsa burda hər şey od qiymətinə satılır, bir çox bostan-tərəvəz məhsulları isə inhisarçılar tərəfindən Rusiya bazarlarına daşınır.

## *Kondisionersiz avtobuslar*



**Yayın istisində kondisionersiz avtobuslarda mənzil başına getmək sərnişinlərə çətin anlar yaşadır. Xüsusən də Bakı şəhərinin uzaq qəsəbələrinə və yaşayış sahələrinə hərəkət edən marşrutlarda kondisionerlər yoxdur. Çox uzağa getməyək. Yeni Günəşliyə işləyən 50 nömrəli marşrutda isti havalarda camaat havasızlıqdan boğulur. Üstəlik də, sərnişinlər çox olanda vəziyyət daha da ağırlaşır.**

Bir sözlə, qışda sərnişinlər soyuqdan üşüyürlər, yayda da istidən təngənəfəs olurlar. Görəsən, 50 nömrəli marşrutda nə vaxt normal şərait yaradılacaq ki, camaat qışda soyuqdan üşüməsin, yayda da istidən əziyyət çəkməsin?!

**Emil FAİQOĞLU**

## *Qarabağla demokratiyanın müqayisəsi yersizdir*



**Siyasi şərhçi Aqşin Kərimov Qarabağla Kərbəla, demokratiya müqayisələrini yersiz hesab edir. Onun bildirdiyinə görə bütün bu müqayisələr 44 günlük müharibədə alt-üst oldu.**

"Azərbaycan ordusu 44 günlük müharibədə:

**1.** Milli-trol demokratik cəbhənin "Qarabağa gedən yol demokratiyadan keçir" tezisini darmadağın etdi,

**2.** "Qarabağa gedən yol Kərbəladan keçir" İrançı təfəkkürünü alt-üst etdi,

**3.** Bəzi üzdə millətçi, arxada alverçi olanların "Qarabağa gedən yol Təbrizdən keçir" pafosunu göyə sovurdu.

***P.S.* *Demokratiya da istəyirik, Kərbəla hadisələrinə də qiymət veririk, Təbrizi də öz vətənimiz sayırıq.***

***Amma bu mövzuların murdar spekulyasiya vasitəsi olaraq Qarabağa dair dəxilsiz müqayisələr kontekstində dəyərləndirilməsi qəbuledilməzdir."***

**Cavid**

# NATO-nun bacarmadığı

**Orduda bildiyiniz kimi millət ayrımcılığı yoxdu, əksinə şirin zarafatlar olur. Bu olayda yeri və şəxsləri təbii olaraq qeyd etmirəm.**

Bizim hərbi birləşmələrdən birinin artileriya rəisi milliyətcə talış idi. Orduda maraqlı zarafatlar olur. Onlar da zabit dostlarıyla belə zarafatlar edirdilər. Saat 12 söhbəti falan.

Aprel hadisələri zamanı talış qardaşımıza deyiblər ki, saat 12-dən sonra bütün atışları dayandır.




Bu qardaş da elə bilib yenə zabit dostları onunla zarafat edir. Yəni, saat 12 ilə bağlı.

Saat 12-ni keçən kimi bölmələrə atış əmri verib. Nə isə, ordu ermənlərin başına mərmilər töküb.

Əlaqəyə çıxıblar ki; nə edirsən, saxla.

Deyib ki; zarafat edirsiz.

Nə isə, axırda yuxarı komandanlıqdan əlaqəyə çıxıblar ki; artileriya atışlarını saxla, arada Putinlə anlaşma var, nə edirsən?

Bir təhər qardaşı inandırıblar.

Ermənilər bu hadisədən sonar nə qədər itki verib bundan sonra, nə itirib, bu ayrı məsələdir.

Talışlar Azərbaycan ordusunda önəmli yer tutur. İstər bu savaşda, istərsə bundan öncə.

**Həmin qardaşsa NATO-nun Rusiyaya qarşı bacarmadığı edib...**

**Emin Piri**


*AQİL ABBAS*


# DADANMISIZ DOLMAYA, O DA BİR GÜN OLMAYA

**Bütün gənclik illərim yaylaqda keçib, düz iki ay. Kəlbəcərdə, daha dəqiq desək, İstisuyun Taxta deyilən yaylağında. Mindən çox alaçıq qurulardı. Fənərkadan yeməkxanalar tikilirdi, hər yeməkxanada da canlı musiqi - ya aşıqlar, ya da xanəndələr. Bazar-filan, səhər-səhər hər alaçığın önündə samovar tüstüləyərdi. Havaya bir meyxoş ətir dağılardı bu samovarların tüstülərindən.**

**Əsl yaylaq festivalı idi: çalan kim, oynayan kim, güləşən kim. Futbol yarışları ayrı bir dəstgah idi. Yaylağa köçən hər rayonun bir futbol komandası yaradılırdı, afişalar vurulurdu. Dəlidağdan, Yüzbulaqdan, hətta Minkənddən bu yarışları izləmək üçün minlərlə tamaşaçı gəlirdi. Bu futbol yarışları indiki Azərbaycanın region diviziyasından, eləcə də birinci diviziyasının oyunlarından maraqlı keçərdi. Yəni bir sözlə, əsl yaylaq festiıvalı idi. Nə Mədəniyyət Nazirliyi, nə də hansısa bir rayonun icra hakimiyyəti təşkil etmirdi. Saytal oğlanlar yığışıb təşkilatçılıq edərdilər.**

**Hər həftə şənbə-bazar günləri Bakıdan konsert briqadaları gələrdi. Şövkət Ələkbərovanı ilk dəfə canlı olaraq həmin yaylaqda görmüşəm. Belə konsertlər pulsuz olurdu. Yalnız səyyar kino gətirənlər 10 qəpikdən bilet satardı, o da açıq havada. Yağış, dolu olardı, sel baş verərdi. Bəzən sel bir də görürdün bir alaçığı yuyub apardı. Bir yol Minkəndə ayrılırdı, bir yol da Cermuxa gedirdi. Maşınlar yağışdan, doludan sonra batardı, yaşlı-cavan tökülərdik maşınları çıxarmağa - bu da bir əyləncə idi.**

**Səhər tezdən çobanlar tökülürdü yaylağa, hamının gözü qabağında qoyun-quzunu kəsərdilər, hər məhlənin də öz çoban-qəssabı olardı. Hər alaçığın qabağında bir ocaq qalanardı, qonşu-qonşuya pay göndərərdi, ya da yığışıb bir süfrənin arxasında bir qismət çörək kəsərdilər. Hamı da bir-birini tanıyardı, çünki uzun illər bir yaylaqda istirahət edərdilər.**

**Atam adətən şənbə günü Telman əminin "QAZ-53"-ündə gəlirdi. Yalan olmasın, bir maşın yemiş, qarpız, üzüm gətirərdi. Bütün günü qonşulara yemiş, qarpız, üzüm daşıyardıq, hədiyyə edərdik. Bazar günü də bizi, qohum-əqrəbanı doldurardı "QAZ-53"ə ya Yüzbulağa, ya Dəlidağa, ya da Gəlin qayasına apardı. Ən çox da sevinərdik işlədiyi sovxozun fermalarına gedəndə.**

**Təxminən 20 il bu yaylaq festivallarının iştirakçısı olmuşam. Aradan illər keçib, yaylaqda tanış olduğum dostlarla indi də görüşürük, xoş xatirələri yada salırıq.**

**İndi bir yaylaq festivalı keçirilib Hacıkənddə.**

**Üç il bundan qabaq Gədəbəydə keçirilmişdi, çox da gözəl təşkil olunmuşdu, hamı razı qalmışdı. Gədəbəy cənnətdi, adamları da dağ adamı, qonaq-qara sevən, mehriban, xeyirxah. Gədəbəy həm də genişlikdi - meşələri, suyu.**

**Bu il isə bu festival Hacıkəndə salınıb. Əvvəla, yer düz seçilməyib. Festivalın yerini tez-tez dəyişməzlər. Məsələn, Boluda hər il Koroğlu festivalı keçirilir. Festival üçün də ən münasib yer Gədəbəydi. Yağış da yağsa, dolu da yağsa indiki xoşagəlməz hadisələr baş verməzdi.**

**Baxıram, neçə gündür qələm dostlarımız bir ağızdan festivalı vururlar. Doğrudanmı bu festivalda maraqlı heç nə olmayıb? Deyilənə görə, 20-yə yaxın türk dövlətindən nümayəndələr gəlibmiş. Çalıblar, oynayıblar, deyiblər, gülüblər, türk xalqlarını bir-birinə bağlayıblar. Heç kəs bundan yazmır. Bütün jurnalistlər ac qalmalarından yazır. "Dadanmısız dolmaya, o da bir gün olmaya". Redaktorlar festivala göndərdiyi müxbirlərinin cibinə bir yüz manat pul niyə tapıb qoymurdular?**

**Təşkilatçılıq zəif olub, bunu başa düşdük, amma dünyanın müxtəlif ölkələrindən gəlmiş nümayəndələrin iştirak etdiyi festivalı belə gözdən salmaq kimə və nəyə lazımdı? Məşhur ifadədə deyildiyi kimi, gələn il sizə Yezid lazım olmayacaq? Belə gözdən salınmış festivala gələn il qonaq çağırmayacaqsız?**

**Mətbuata festivalı vurun əmrini kim verib?**

**İnşallah, gələn il bu festivalı Kəlbəcər yaylaqlarında keçirərsiniz.**

**Təşkilati işi də Oksfordda oxuyanlara deyil, ömründə heç olmasa bir-iki dəfə yaylaqda selə-suya düşmüş, alaçıq qurmağı bacaran, dağın-dərənin qədrini bilənlərə tapşırın.**


*Eminquey*


# O xiyarın qabığını atmayın, qoyun jurnalist vicdanınızın üstünə



*Deməli, jurnalistlər binasına neçə-neçə katibələrə, kimlərinsə saxladıqlarına ev verildi, jurnalistlər incimədilər.*

*Vüqar Səfərli prezident tərəfindən mediaya ayrılmış 1 milyon pulu (bundan əlavəsini də bilirsiniz) basıb yedi, jurnalistlər incimədilər.*

*Ölkədə baş vermiş ədalətsizlikdən, haqsızlıqdan nəinki işlədikləri media orqanlarında, hətta şəxsi profillərində yazmaq qadağası qoyuldu, jurnalistlər incimədilər.*

*Üç yüz-beş yüz manat maaşın əlində girinc qalıb "inək" kimi sağıldılar, sözü "kamasutra"nın hər pozasında qayırdılar, jurnalistlər incimədilər.*

*İşlədikləri media rəhbərlərini orada işlədiklərinə görə sağdasolda haqlı-haqsız müdafiə etdilər, dostlarına, həm də çox yaxşı dostlarına sırf işlərini itirməyələr deyə qara yaxdılar, irad tutdular, utanmadılar, incimədilər.*

*Əli həsənovların və digərlərinin himayəsində oldular, bir qram tükləri tərpənmədi.*

*Hər cür alçaqlığa, şərəfsizliyə göz yumdular, baş redaktorlarına quyu qazıldı, müxbir dostlarının, yoldaşlarının torbaları tikildi, incimədilər.*

*Gözlərinin önündə hansısa "CIR"lardan jurnalist qayırdılar, aparıcı düzəltdilər, gətirib harasa rəhbər qoydular, haranınsa mətbuat katibi qoydular, incimədilər.*

*Nazirliklərin qapısında ağaca döndülər, zəng vurduqları vəzifə adamları bunları adam yerinə saymadı, incimədilər.*

*Mikrofonları itələndi, özləri döyüldülər, tutuldular, incimədilər.*

*İndi gəlib bir xiyara görə mısmırıq salladılar, a kişi, bir xiyara görə.*

*Bu saydıqlarım və hələ-hələ nə qədər saymadığım şeylər başınıza gətiriləndə kimlərinsə önündə xiyara dönən xiyarların önündə xiyar yerinə qoyulanda xiyar əyri bitmədi, indimi əyri bitdi?*

*Məsələ bilirsiniz nədir?*

*Çoxunuz mətbuata dəyəri elə o xiyarda görürsünüz. Sözün təmizliyi, azadlığı, vicdan, şərəf, qürur və sairə kimi şeylər o xiyardan önəmli deyil.*

*Ümid edirəm ki, bu boyda şeylərdən inciməyən siz mənim bu yazımdan inciyəcəksiniz. Hərəniz xiyarınızı əlinizə alıb düşəcəksiz mənim canıma.*

*Sizdən bir ricam var, o xiyarın qabığını atmayın, qoyun jurnalist vicdanınızın üstünə, maska kimi xeyirlidir, təmizləyir, fərahlandırır, bəlkə bir xeyri ola.*

# Yaxşı həkimlərimiz var

### İdrak Həsənov da belə həkimlərdən biridir

**Biz bir çox halda xəstələnəndə xaricə gedib orda müalicə olunmaq istəyirik. Amma ölkəmizdəki həkimlərə bir o qədər etibar eləmirik. Çünki xaricdə həm tibbi avadanlıqlar daha müasirdi, həm də həkimlər dünya səviyyəsində tanınan insanlardır. Amma bu o demək deyil ki, respublikamızda savadlı, elmli və tibbin müasir nailiyyətlərini bilən və pasientləri müalicə edən həkimlərimiz yoxdur. Belə həkimlərimiz kifayət qədərdir. Amma sadəcə olaraq onları arayıb-axtarmaq lazımdı.**

Mən neçə vaxtdır ki, belimdə kəskin ağrılar hiss edirdim. MRT olundum, məlum oldu ki, fəqərə sütunumda yırtıq var. Bir neçə həkimə müraciət elədim, onlar əməliyyat olunmağımı bildirdilər. Ancaq səhhətimdə problem olduğuna görə əməliyyata tələsmədim. Çünki şəkər xəstəliyim var, qan təzyiqim yüksək olur, üstəlik də, karona keçirmişəm. Belə vəziyyətdə əməliyyat olunmaq təbii ki, o qədər də asan deyil.

Tanış-bilişlərim və dostlarım da əməliyyat olunmamağımı məsləhət bildilər və mənə bir həkimin adını, soyadını verdilər. Dedilər ki, onun yanına get, səni bəlkə o müalicə edə bilər. Mən də dostlarımın məsləhəti ilə "Diaqnost" Tibb Mərkəzinə getdim, orda bu xəstəlik üzrə gözəl mütəxəssis İdrak Həsənovla görüşdüm. Çox ziyalı, səviyyəli və mədəni insandır. MRT-nin nəticələrinə və digər analizlərə baxıb dedi ki, səni əməliyyatsız müalicə edəcəyəm. Amma gərək bir az səbirli olasan. İndi bir həftəyə yaxındır ki, müalicə olunuram, ağrılarım azalıb və özümü əvvəlki vaxtla müqayisədə daha yaxşı hiss edirəm.

Bir fikri də qeyd edim ki, həmin tibb mərkəzində çalışan və İdrak həkimin köməkçisi, tibb bacısı Yeganə xanım hər bir xəstəni diqqətlə dinləyir, onlara nəvazişlə yanaşır. Üstəlik də hər bir xəstə barədə həkim İdrak Həsənova məlumatlar verir. Bax, belə tibb bacısı birmənalı olaraq biz pasientlər tərəfindən hörmətlə yad edilir.

**İdrak Həsənov bildirdi ki, bu müalicə bir neçə mərhələdə olacaq. Ümumiyyətlə, mən həmişə göydə Allaha və yerdə həkimlərə inanmışam, ümid bağlamışam və indi də inanıram ki, İdrak həkim kimi təcrübəli və güclü mütəxəssis məni tam müalicə edəcək və həyata qaytaracaq. Bir daha belə həkimləri Allah qorusun və onlar da bizi müalicə eləsin!**

**Səməndər MƏMMƏDOV,**
**yazıçı-publisist, Prezident təqaüdçüsü,**
**"Cümhuriyyətin 100 illiyi" mükafatı laureatı**

## Çay paketlərində həşəratlar?



**Trir Universitetinin genetikləri çay paketlərində həşərat qalıqları aşkar ediblər. Alimlərin işi "Biology Letters" jurnalında dərc olunub.**

Alimlər çayın qara, yaşıl, nanə və çobanyastığı da daxil olmaqla bir neçə növünü tədqiq ediblər. Genetiklər xüsusi DNT analizindən istifadə edərək çay paketlərindəki yarpaqlarda yad DNT-nin ən kiçik qalıqlarının olub-olmadığını yoxlayıblar. Ümumilikdə təcrübə zamanı 1200-dən çox buğumayaqlının izləri müəyyən edilib.

Məsələn, nanə çayında ABŞ-ın Sakit okean şimal-qərb bölgəsindən həşərat DNT-si, yaşıl çayda isə Şərqi Asiyadan olan buğumayaqlıların DNT-si tapılıb. Alimlərin fikrincə, həşərat DNT-si çay yarpağının yalnız 0,1%-ni təşkil edir, digər 99,9%-i isə bitki DNT-sidir. Alimlərin fikrincə, çayda həşərat qalıqlarının olması yarpaqlarda pestisidlərin olmamasından xəbər verir.

**Eminquey**



**"Rusiya ilə Polşanın sərhəddində kiçik bir şəhər var idi. Heç kim o şəhərin hara bağlı olduğuna əmin ola bilməzdi. Bir gün rəsmi müqavilə imzalandı və az sonra kartoqraflar gəlib sərhəd xətti çəkdilər.**

Soner Yalçın

# Buça qətliamı

Kəndlilərdən bəziləri yaxınlıqdakı təpədə onlara yaxınlaşdı.

- Biz indi haradayıq, Rusiyada, yoxsa Polşada?

-Bizim hesablamalara görə, kəndiniz indi sərhəddən Polşaya doğru otuz yeddi metr içəridən başlayır.

Kəndlilər dərhal sevinclə rəqs etməyə başladılar.

-"Niyə?" deyə kartoqraflar soruşdular, "nə fərqi olacaq?"

Kəndlilər: "Bunun nə demək olduğunu başa düşürsünüzmü?" dedilər. "Biz daha o dəhşətli rus qışlarına dözmək məcburiyyətində qalmayacağıq!".

Çox ağrılı bir hadisə üzündən üzünüzdə təbəssüm yaradan bu xatirə yadıma düşdü: Buça qətliamı...

Otuz min əhalisi olan kiçik şəhərdə mülki geyimli 280 adamın öldürüldüyü qırğın...

Buça 1898-ci ildə eyni adlı çay kənarında kiçik bir qatar stansiyasının tikintisi ilə yaranan qəsəbədir.

Onun sərhədi bu gün Ukrayna və ya Rusiya daxilində qalsa da, Buça əhalisi Polşa kəndliləri kimi bu ayrılığı sadəlövhlüklə xatırlamayacaq.

Dünya da iki yerə bölündü: Buça kütləvi qətlini kim etdi?

Müharibədə ilk itki həmişə həqiqətdir...

### BİRİNCİ: Uzaq ABŞ

Fransız filosofu Jan Pol Sartrın dediyi kimi: "Müharibəni varlılar başlayır, kasıblar ölür".

Söhbət Buça qırğınından gedir.

Biz Ukrayna-Rusiya müharibəsini müzakirə edirik.

Müharibənin niyə başladığını, kasıbların niyə öldüyünü unuduruq!

ABŞ-ın Ukraynanı vədlər verməklə aldatdığını unuduruq!

Onlar həmişə bizə əsl həqiqətləri unutdururlar!

Qərb mənbələrinə istinad edim:

Stokholmda yerləşən Beynəlxalq Sülh Araşdırmaları İnstitutu/SIPRI 1966-cı ildən bəri hərbi xərclər və silah ticarəti ilə bağlı məlumatları dərc edir.

Yekun hesabatını 14 mart 2022-ci ildə rəsmi saytında dərc etdi:

- 2012-16 və 2017-21-ci illər arasında əsas silahların beynəlxalq təhvilləri bir qədər azaldı; - 4,6 faiz.

Bununla belə, ABŞ və Fransadan Avropaya (+19%), Şərqi Asiyaya (+20%) və Okeaniyaya (+59%) ixrac əhəmiyyətli dərəcədə artıb...

ABŞ 2012-16 və 2017-21-ci illər arasında silah ixracını 14 faiz artıraraq qlobal payını 32 faizdən 39 faizə yüksəldib.

ABŞ-ın silah köçürmələrinin 43 faizi Yaxın Şərqin payına düşür. Dünyanın ikinci ən böyük silah idxalçısı olan Səudiyyə Ərəbistanının silah alışı 2012-16 və 2017-21-ci illər arasında 27 faiz artıb. Qətərin silah alışı 227 faiz artaraq, 22-ci ən böyük silah idxalçısından 6-cı ən böyük silah idxalçısı olub. (Bir neçə il əvvəl ortaya çıxan süni Qətər böhranını xatırlayırsınız, elə deyilmi?)

- Misirin silah idxalı 2012-16 və 2017-21-ci illər arasında 73 faiz artaraq onu dünyanın üçüncü ən böyük silah idxalçısı edir.

İcazə verin davam edim:

### 2 TRİLYON DOLLAR

SIPRI hesabatında deyilir:

Dünya regionları arasında silah idxalında ən böyük artım Avropada olub. 2017-21-ci illərdə Avropa dövlətlərinin əsas silah idxalı 2012-16-cı illərlə müqayisədə 19 faiz çox olub. Bu, qlobal silah transferinin 13 faizini təşkil edib.

-Avropanın ən böyük silah idxalçıları İngiltərə, Norveç və Hollandiya...

- Digər Avropa dövlətlərinin də yaxın onillikdə silah idxalını əhəmiyyətli dərəcədə artıracağı gözlənilir, çünki onlar son vaxtlar böyük silahlar, xüsusən də ABŞ-dan döyüş təyyarələri üçün böyük sifarişlər veriblər...

Avropa niyə bu qədər silah almağa başladı?

SIPRI-nın baş elmi araşdırmaçısı Pieter D. Wezeman deyib: "Əksər Avropa dövlətləri ilə Rusiya arasında münasibətlərin kəskin şəkildə pisləşməsi Avropadan silah idxalında artımın əsas amilinə çevrildi, xüsusən də bütün ehtiyaclarını milli silah sənayeləri hesabına ödəyə bilməyən dövlətlər üçün".

Siyasi böhranlara kim səbəb olur - ABŞ! Səbəbi aydın deyilmi? Yalnız pandemiya olmasına baxmayaraq, 2020-ci ildə dünyada silaha xərclənən pul 2 trilyon dollar olub.

ABŞ-ın niyə israrla müharibə alovu olduğunu başa düşürsünüzmü?

Buça qətliamının, xüsusən də Qərb televiziyasında dəfələrlə yayımlanmasının səbəbini başa düşürsünüzmü: Qorxu yaratmaq!

SIPRI aydın şəkildə yazdı:

-"Ukraynadan Efiopiyaya davam edən silah təhvilləri silahlı münaqişənin təsirlərinə məruz qalan mülki əhali üçün təhlükə və müharibə edən tərəflər üçün sülhə maneə yaradır."

**Mənə deyə bilərsinizmi Buçaa qətliamını kim həyata keçirdi?**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# Daha 150-dək müharibə əlilinin birdəfəlik ödəmə almaq hüququ təsdiqlənib

**Artıq 11 minədək müharibə əlilinə proaktiv qaydada müavinət təyin olunaraq ümumilikdə 66,5 milyon manatadək vəsait onların bank hesablarına köçürülüb və bu barədə SMS göndərilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Trend-ə verilən məlumata görə, hesablarına vəsait köçürülmüş Birinci Qarabağ müharibəsi əlillərinin bir qismi bu gün də onlara təyin edilmiş ödənişləri əldə ediblər.

Onlar birdəfəlik ödəmələrin verilməsinin Prezident İlham Əliyevin qazilərə göstərdiyi diqqətin növbəti təzahürü olduğunu vurğulayıblar, ölkəmizdə həyata keçirilən sosial dəstək tədbirlərindən razılıqlarını bildiriblər.



Eləcə də, sənədləri e-sistemlərdə və arxivlərdə olmayan müharibə əlillərinin müvafiq hərbi-həkim komissiyalarına müraciətləri əsasında daha 150-dək şəxsin birdəfəlik ödəməni almaq hüququ təsdiqlənib və yaxın günlərdə onların da bank hesablarına ödəniş köçürüləcək. Bu barədə hər birinə SMS göndəriləcək.

**Qeyd edək ki, e-sistemlərdə, habelə müvafiq arxivlərdə 1997-ci ilin 2 avqust tarixinədək hərbi xidmət zamanı aldığı xəsarətlə bağlı məlumat olmadığı üçün birdəfəlik ödəmə təyin edilməmiş şəxslər, habelə birdəfəlik ödəməni almaq hüququ olan şəxs vəfat etdiyi hallarda onların vərəsələri birdəfəlik ödəməni almaq üçün müvafiq sənədləri linkdə https://sosial.gov.az/post_576347 qeyd edilən qaydada təqdim etməlidirlər.**

AQİL ABBAS

# CIDIR DÜZÜ BİZİ BAĞIŞLADI

*Ağdam işğaldan azad olunandan sonra şəhərə birinci dəfə girəndə ilk olaraq Pənah xanın məzarını ziyarət elədim, sərdabəsini öpdüm. Və yalvardım ki, qəbrini qoruya bilmədiyimə görə məni bağışla (bizi yox, məni. Mən bizə cavabdeh deyiləm, özümə cavabdehəm). Amma bağışladığına inanmadım. Sonra məscidə getdim, şəhidlərimizin ruhuna bir "Fatihə" verdim və ordan da birbaşa getdim evimizə, həyətimizə. Həyətə girəndə də yerdən bir çimdik torpaq götürüb yedim, dedim görüm dadı qaçmayıb ki? Dadı qaçmamışdı. Yəqin ki, torpaq da mənim dadımı hiss elədi, amma deyəsən mənim dadım qaçmışdı.*

*İnsan doğulduğu torpağa oxşadığı kimi, torpaq da doğduğu insanlara oxşayır, mayaları birdi. Öz mayasından olan, üstündə iməkləyən, qaçan, sonra at oynadan və ən nəhayət, köksünə aldığı insanla nəfəs alır. Mən bu hissləri Ağdamda da yaşadım və daha çox Şuşada - Cıdır düzündə də yaşadım.*

*Cıdır düzündə gördüyüm mənzərə məni dəhşətə gətirdi. Qışda Cıdır düzündə qarı təmizləyirdin, altında yamyaşıl ot olardı. Mən Cıdır düzündə olanda gül-gülü, bülbül-bülbülü çağıran zaman idi, amma nə gül gördüm, nə bülbül səsi eşitdim. Torpaq cadar-cadar, şırım-şırım idi. Elə bil 30 il burda nə bahar olmuşdu, nə yay, nə payız, 30 il burda qış olmuşdu. Cıdır düzündə də bir çimdik torpaq götürüb yedim, dadı qaçmışdı. Pənah xanın at çapdığı, şənliklər təşkil etdiyi, Məmməd bəy Cavanşir Batmanqılıncın qılınc oynatdığı, Vaqifin, Natəvanın vəsf elədiyi, bütövlükdə Üzeyir Hacıbəyovun musiqisinə, Bülbülün səsinə, Sadıqcanın tarının pərdəsinə çökən Cıdır düzündən bir əsər-əlamət yox idi. Mənə elə gəldi ki, Cıdır düzü balacalaşıb və həm də vəhşiləşib.*

*Məmməd Araz bir şeirində deyir:*

*Dağlar məni tanımadı,*
*Yəqin dağlar küsüb məndən...*

*İndi Cıdır düzü məni tanımadı. Təkcə məni yox, 30 ildi həsrətini çəkdiyi əzizləri gəlmişdi, heç kimi tanımadı. Heç Fərhad Bədəlbəylini də tanımadı, ondakı məni ola. Yəqin küsmüşdü bizdən. Haqlıydı.*

*İstədim bağıram ki, mən Pənah xandan, İbrahim xandan, Məmməd bəy Cavanşir Batmanqılıncdan, Qacardan yazan oğlanam, bağıra bilmədim. Qorxdum deyə ki, ay uşaq, get bir az o yanda oyna, necə ki otuz ildi oynayırsan.*

*Gərək ki, 87-ci il idi. Məşhur tədqiqatçı-jurnalist Vasif Quliyevin Malıbəylidəki toyuna Bakıdan və kənar rayonlardan gəlmiş dostları götürüb çıxmışdım Cıdır düzünə. Gözəl də bir süfrə açmışdım. Dostum Mehman Cavadoğlu mənə söz atdı ki, düzdü də, buranı niyə müqəddəs sayırsınız. Söz məni tutdu, incidim. Və "Cıdır düzü niyə müqəddəsdir" əsəbi halda həm Mehmana, həm də ilk dəfə Cıdır düzünə gələn dostlara izah eləməyə başladım. Pənah xandan, Batmanqılıncdan, Vaqifdən, Natəvandan, Üzeyir Hacıbəyovdan, Mirmövsüm Nəvvabdan, Məhəmməd ağa Müctehidzadədən, Bülbüldən, Cabbar Qaryağdıoğludan, Firudin Şuşinskidən, burda keçirilən Cıdır yarışlarından, igidlərin qız seçimindən, qızların qıyqacı baxışlarından və sair və ilaxır o qədər danışdım ki, Mehman durub boynumu qucaqladı, dedi:*

*- Zarafat edirdim, niyə hirslənirsən?*

*Amma ermənilər üçün nə Şuşa, nə də Cıdır düzü müqəddəs deyildi, çünki onlar burda iməkləməmişdilər, ayaqyalın qaçmamışdılar, at oynatmamışdılar. Mənim və bizlər kimi Cıdır düzünün torpağını dadmamışdılar. Ona görə də bu torpaqdan intiqam almışdılar, cadar-cadar, şırım-şırım eləmişdilər. Cıdır düzünün altında yatan, torpağın doğduğu kişilərin və kişi kimi qadınların qəbirlərini də dağıtmışdılar. Ölülərdən də intiqam almışdılar.*

*Onlar da bilirdilər ki, Vətən nə "A" hərfindən başlayır, nə "B" hərfindən, nə də sərhədlərdən. Vətən əzizlərinin yatdığı qəbiristanlıqlardan başlayır. Ona görə də həm Şuşada, həm də bütün Qarabağda birinci qəbiristanlıqları dağıtmışdılar. Hətta faşistlərin belə etmədiyi bir cinayətə əl atmışdılar.*

*Ağcakənddə bir erməni qəbiristanlığı var. Bu barədə yazmışam, şəkillərini də çap eləmişəm. Bir qəbir daşına da toxunmamışıq, qəbiristanlıq necə var, elə də qalır. Axırıncı qəbir də 1988-ci ildə qazılıb. Amma mən Ağdamda Qarağacı qəbiristanlığında nə anamın, nə də qardaşımın məzarını tapa bilmədim. Çünki yox idi qəbiristanlıq. Bir tərəfində taxıl əkmişdilər, bir tərəfində taxıl əkməyə hazırlaşırdılar, ağızlarını cırdıq.*

*Şuşaya ikinci səfərimdə yenə birinci olaraq Cıdır düzünə getdim. Torpaq öz doğduğu əzizlərini, öz doğmalarını görəndən sonra gül açıb çiçəkləmişdi. Mənlə də, bizlə də barışmışdı.*

*Mənim şəhid analarına həmişə bir təsəllim olub. Deyirəm ki, bir gün Qarabağa gedəndə görəcəksiniz ki, övladlarınız gül olub bitib, çiçək olub bitib, çinar ağacı olub bitib, palıd ağacı olub.*

*İkinci səfərimdə mən bunu gördüm. O çiçəkləri də, gülləri də əzizlədim. Sağalırdı Cıdır düzü, day cadar-cadar deyildi, şırım-şırım deyildi.*

*Natəvanın bağı da Paşinyanın "Yallı" getdiyi, sonra da içib sərxoş olub yatdığı bağ deyildi, "Koroğlu üverturası"nın çalındığı bağ idi, Üzeyir bəyin heykəlinin ucaldığı bağ idi. Şuşa da, Cıdır düzü də Paşinyanın xanımının yekə-yekə danışdığı Şuşa və Cıdır düzü deyildi. Heydər Əliyev Fondunun, 1-ci vitse-prezident Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə keçirilən "Xarı bülbül" festivalının musiqisinə bələnmiş Şuşa və Cıdır düzü idi.*

***P.S.** Bu mənim Cıdır düzü haqqında yazdığım ikinci yazımdı. Birinci yazını oxumaq istəyənlər aşağıdakı linkdən tapa bilərlər.*

*https://adalet.az/az/writers/detail/aqil-abbasnbspcidir-duzu-niye-muqeddesdir-2021-09-28-094025*

## Ağdamda qədim tarixə malik mədəni irs nümunələri aşkar edilib



**Ağdamda qədim tarixə malik mədəni irs nümunələri aşkar edilib.**

Bu barədə Trend-ə Dövlət Xidməti tərəfindən məlumat verilib.

Torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən müvafiq qaydada monitorinqlər və mühafizə tədbirləri həyata keçirilir.



**Nazirlər Kabinetinin 132 nömrəli qərarına uyğun şəkildə Ağdam rayonu üzrə dövlət qeydiyyatına götürülən tarix və mədəniyyət abidələrindən olan rayonun Mireşelli kəndində yerləşən Şomullutəpə və Paşabəyli kəndində yerləşən Rəsultəpə yaşayış yerindən yağış sularının yuyulması nəticəsində qədim və orta əsrlərə aid küp qalıqları və saxsı qabların parçalanmış hissələri aşkar edilib.**

**Aşkarlanmış bütün küp qalıqları Ağdam rayon Tarix və Diyarşünaslıq muzeyinə təhvil verilib.**

# Stress, Stress kardiomiopatisi və ya Qırıq qəlb (ürək) sindromu

### (Yeni, yoxsa sirləri yeni açılan qədim xəstəlikdir?)



*Rafiq Yusifli,*
*kardioloq*
*(yusrafkard@mail.ru)*

**(əvvəli ötən saylarımızda)**

**Son otuz illik dövrdə "Qırıq qəlb sindromunun" kəşf edilməsi və xəstəliyin ən müasir vasitələrlə təhlil edilməsi, öyrənilməsi Məcnunun ölüm hadisəsinə də bu xəstəliyin patogenetik nəzəriyyəsi işığında yanaşmaq ideyasını verir. Belə qənatə gəlmək olar ki, stress kardiomiopatisi ilk dəfə 1990-cı ildə kəşf edilsə də, o demək deyil ki, əsrlərlə bundan əvvəl belə hadislər mövcud olmayıb. Bu xəstəlik dəyişikliklərə uğramış bir virus, bakteriyadan və ya sivilzasiyanın töhfəsi olan ətraf mühitin radiyasiya, kimyəvi zəhərlənməsindən dünən və ya 30 il əvvəl baş verən xəstəlik deyil, şüurlu insanda (bəlkə digər canlılarda da) psixoemsional təsirdən yaranan xəstəlik olduğundan, elə insan yaranandan, hətta bu günkündən də daha çox baş verə bilərdi. Çünki, tarix insanların vaxtı ilə daha gərgin şəraitdə, müharibələr, edamlar, qəddarlıqlar, təbii fəlakətlər qarşı çarəsiz yaşadığının şahiddir. Elə bunların təsirindən də, hər bir xalqın yazılı, şifahi ədəbiyyatı, nağılları, dastanlarında bu və ya digər şəkildə belə ani ölümlər, xəstəliklər təsvir edilmişdir. Mənbəini unutduğum bir hadisəni xatırlayıram, boynu vurulmaq hökmü verilmiş bir insanın başının cəllad kötüyünün üstünə qoyulduğu vəziyyətdə, cəllad baltasının enmə anında, boynu vurulmaq hökmü ləğv edilir. Lakin onu cəllad kötüyündən qaldırmaq istədikdə, heç boynu vurulmadan öldüyü məlum olmuşdur.**

Daha bir hadisə, tələbə yoldaşları özlərinin arasında teatrlaşdırılmış bir səhnədə dostlarının birinin boynunu vurulması hökmünü verirlər və onun gözünü bağlayıb, boynun cəllad kötüyü üzərinə qoyurlar. "Cəllad" əlindəki "balta", kəndir parçası ilə boynuna yüngül zərbə vurur, sonra onu qaldırıb, alqışlamaq istədikdə, öldüyünün şahidi olurlar.

Məcnunun ölüm səbəbinin Qırıq qəlb sindromu (Stress kardiomiopatisi) olmasını sübut etməyin mümkün olan yeganə yolu Leyli ilə Məcnunun sevgisini, bu sevginin böyüklüyünü, onun nəyə qadir olduğunu, bizim bu gün varlığına əmin olduğumuz stress, ekstaz halını, psixoemosional gərginliyi və ondan baş verən iztirabın, ağrının və əlamətlərinin həmin əsərlərdə necə təsvir edilməsidir. Hesab edirəm ki, baş vermiş bir ölüm hadisəsi ilə maraqlanan həkim, hətta əlində heç bir tibbi sənəd, müayinə nəticəsi olmasa da, xəstənin yaxınları, onunla təmasda olanların ölən şəxsin keçmişdə və indiki şikayətləri, onda gözlə görünən əlamətləri, həyat tərzi, vərdişləri, xəstəliyi törədə biləcək digər səbəbləri barədə məlumatlara görə, həmin adamın xəstəliyi və ölüm səbəbinə aid çox halda təsdiqini tapan fikir, rəy deyə bilər.

İnstitut illərində unudulmaz müəllimimiz, professor Məmmədəmin Əfəndiyev (o dövrlər xalq onu Emin Əfəndiyev kimi tanıyırdı, çünki hələ Məmmədəmin, Cavid, Müşfiq adları repressiyadan tam qurtarmamışdı) mühazirələrində Azərbaycan ədəbiyyatı və folklor nümunələrindən çox istifadə edər və Mirzə Ələkbər Sabirin şeirindəki bu misraları deyərdi:

*Arizi qəmlər əlindən ürəyim şişmiş idi,*
*Zənn edirdim edəcəkdir ona çarə ciyərim,*
*Bəxti-mənhusimə bax, mən bu təmənnada ikən*
*Başladı şişməyə indi üzü qarə ciyərim...*

Sonra isə izah edirdi ki, şair həkim olmayıb, amma hadisənin bədii təsvirin verib və biz həkim kimi fikirləşərək, bu halın hansı xəstəlik olduğuna rəy verə bilərik. Baxın, ürək çatışmazlığında əvvəlcə müxtəlif səbəblərdən ürək genişlənir, "şişir", sonra xəstəlik inkişaf etdikcə yük əvvəl kiçik qan dövranına, ağciyərə, daha sonra isə tədricən "üzü qarə ciyərə" düşür, qara ciyər böyüyür və şişir. Bu günə qədər ürək çatışmazlığının inkşaf modelini başa düşmək üçün bundan mükəmməl bədii izaha rast gəlməmişəm! Allah sənə rəhmət eləsin, böyük müəllimimiz, sizlər (bura çoxlu müəllimlərimin adını yaza bilərdim) kimi diaqramlardan, slaydlardan, həftəbecər nitqlərdən uzaq mühazirə oxuyan alimlərin yeri görünür!

Türk dünyası məhəbbət ədbiyyatının zirvəsi, "Dizləri üstə hicranlı dastan bağlayan, Leylinin, Məcnunun dərdinə hələ də gizli, gizli ağlayan, əlləri vətəndən üzülü, dədə Füzulinin" "Yoxdu bu rüsvalığın dərdinə dərman, ey təbib" qəzəlini oxuduqca, kiçik bir şeirdə dahi şairin bizim tanış olduğumuz həkim andı, həkimlik etikası və deontologiyanın bütün incəliklərinin necə əks olunduğuna heyrət etməmək olmur.

Tibbin əsas qanunlar olan "Zərər vermə", "Həkim sirri" tələbini Füzuli necə təsvir edir:

*Sən qan almaqla yəqin bir fayda verməzsən cana,*
*Şövqi-lə'lin gəl çıxar mümkünsə candan, ey təbib!*

*Qəmlə öldürsən məni izhar qılma kimsəyə,*
*Qoy rəqibim bilməsin var məndə əfqan, ey təbib!*

Digər bir qəzəlində:

*Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,*
*Al əmanət, qılma hər bidərdə izhar, ey həkim!*

Xüsusilə, həkim-yazıçıların əsərlərində, filmlərdə, rəvayətlərdə xəstəliklərin əlamətləri bəzən çox incəliklə elə təsvir edilir ki, diaqnoz barədə konkret rəyə gəlmək çətinlik törətmir.

Tarixini və nömrəsini dəqiq xatırlamıram, doxsanıncı illərin "Kliniçeskaə Mediüina" jurnalında bədii ədəbiyyatda tibbi mövzulara aid bir məqalədə polşalı yazıçının əsərində miokard infarktı keçirən xəstənin halı elə təsvir edilmişdi ki, hətta peşəkar həkimlər də heyran ola bilərdi.

Məcnunun ölüm səbəbi haqqında fikir söyləmək məqsədi ilə də, dünyada öz fəlsəfi əsərləri ilə tanınan dahi Nizaminin "Leylinin və Məcnun" və poemasında Məcnunun Leylinin məzarı üstündəki əzabları, ah-naləsi, Allaha yalvarışları və ölüm səhnəsinin təsvirinə diqqət yetirək.

*Sızlayıb ahları göyə yüksəldi,*
*Torpaq gəlininin yanına gəldi*
*Hasarlı qəbrə üz qoyub yatdı,*
*Gəmisi bulanıq bir suya batdı.*
*Xəstə qarınca tək başı fırlandı,*
*Yaralı ilan tək qıvrılıb yandı.*
*Iki-üç beyt dedi qəmlə, möhnətlə,*
*Iki-üç göz yaşı, tökdü həsrətlə.*
*Sonra da göylərə tutub üzünü,*
*Əl açıb o zaman yumdu gözünü:*
*"Ey bütün aləmi qurub xalq edən!*
*Səni əzizinə and verirəm mən,*
*Al dərdli canımı ya pərvərdigar!*
*Məni sevgilimin yanına apar!*
*Bu canı bərklikdən özün azad et,*
*Apar o dünyaya könlümü şad et".*
*Deyib bu sözləri, baş qoydu yerə,*
*Qəbri qucaqladı o birdən-birə.*

*Cananın qəbrini öpdükdən sonra,*
*Dost! - deyib, canını tapşırdı ona.*
*Keçdi bu körpüdən axır ki, o da,*
*Bu yoldan keçməyən varmı dünyada?*

Əlli ildən çox həkimliyim dövrümdə yüzlərlə miokard infarktlı, kəskin koronar sindromlu xəstələr görmüşəm, onların dözülməsi çətin olan ağrı şikayətlərini (sinəm yanır, göynəyir, sinəm məngənədə sıxılan kimidir, qurğuşun əridilib sinəmə tökülüb və s.), narahatlıqların müşahidə etmişəm. Füzuli rayonunda çalışdığım dövrdə iş yoldaşımız, çox məhşur, gözəl bir həkimin infarkt olduğu vaxt mənə "ağrımı kəsməsydiniz o divardakı güllə ilə özümü öldürəcəkdim" sözünü tez-tez xatırlayıram. Amma xəstəlrin çəkdikləri əzabın şiddətini bu vaxta qədər heç kimdən eşitmədiyim şəkildə, Nizami kimi göstərən, belə möhtəşəm söz eşitməmişəm: "Yaralı ilan tək qıvrılıb yandı". El arasında belə söz var, ilanı yaralayıb buraxmaq olmaz, o çox əzab çəkir və təhlükəlidir, özünü öldürməyə cəhd edər, öldüyü anda da hamıya ziyan vura bilər.

Böyük türk şairi Füzuli "Leyli və Məcnun" poemasında (əsər 1537-ci ildə yazılmış və Osmanlı hökmdarı Sultan Süleyman Qanuniyə ithaf etmişdir) Nizaminin reallıq kimi təsvir etdiyindən fərqli olaraq, bu sevgini ilahi bir sevgi, məhəbbət kimi təsvir edir. Məcnunun Leyliyə sevgisi artıq maddilikdən ilahiliyə çevrilir, qəzəlləri ilə bu istəyi, arzunu tərənnüm edir.

Leylinin məzarı üstndə Məcnunun dediyi qəzəl, onun sevgisinin, dərdinin böyüklüyünü və bu dərddən qurtarmağın, yeganə yolunu ölməklə o dünyada qovuşmaqda görür. Füzulinin bu anları və Məcnunun ölümünü təsvir etməsi:

*"Yandı canım hicr ilə, vəsli-rüxi-yar istərəm,*
*Dərdməndi-firqətəm, dərmani-didar istərəm.a*
*Nola gər qılsam şəbi-hicran təmənnayi-əcəl,*
*Neyləyim, çoxdur qəmim, dəfinə ğəmxar istərəm.*
*Ey Füzuli, istəməz kimsə rizasilə fəna,*
*Mən ki, bundan özgə bilmən çarə, naçar istərəm".*
*"Qəbrini qucaqladı nigarın,*
*Can sədqəsi etdi ol məzarın.*
*"Leyli!" - dedi verdi cani-şirin*
*Ol aşiqi-biqərarü miskin".*

Bu misraları təkrar-təkrar oxuduqca göz önündə bu xəstəliyə səbəb olan nakam eşq, məhəbbət və daxili yanğı, o dünyada yarına qovuşmaq istəyi, bu gərginliyin ən yüksək zirvəsində baş verən kəskin xəstəliyin əlamətləri, şiddətli ağrıların yaratdığı əzabı Nizami, Füzuli məharətlə elə təsvir etmişlər ki, bu faciənin, ağrıların səbəbinin ancaq ürəkdə yaranmış Qırıq qəlb sindromu (Stress kardiomiopatisi) olduğuna məndə şübhə yeri qalmır.

Məcnunun ölüm səbəbi Qırıq qəlb sindromudur! Bu barədə mənim fikirlərimə şərik olmayan da ola bilər, çünki, hazırkı dövr hər hadisəyə bir sübut axtarmaq dövrüdür. Bunu başa düşmək olar, arxeoloji bir axtarışda tapılan əşya ilə o dövrlərdəki çox hadisələrə qiymət vermək mümkündür. Lakin hesab edirəm ki, dastanlarımız, nağıllarımız, dahi yazıçılarımızın, şairlərimizin əsərləri və bunların hamısından yüksəkdə dayanan müqəddəs kitabımızda elə sirrlər, hikmətlər var ki, onların açılmasına məntiqlə, fəlsəfi düşüncə, bugünkü, sabahkı elmlə yanaşmaq lazımdır və bunlar elmimizə böyük fayda verə bilər. Xatırlayıram ki, insan embrionun inkişafına aid tədqiqatına görə Nobel mükafatı alan bir alim, Quranla tanışlıqdan sonra demişdir ki, mən bu kitabla əvvəldən tanış olsaydım, Nobel mükafatını xeyli əvvəl ala bilərdim!

Başqa bir misal, Həzrəti Peyğəmbərin onu təqib edən düşmənlərdən gizlənməsi üçün girişi hörümçək toru ilə örtülü mağaraya girməsindən az sonra həmin giriş yerində yenidən hörümçəyin tor qurması və onu axtaranların mağaranın ağzının hörümçək toru ilə tutlduğunu görüb, onun içinə girməmələri əfsanə, rəvayət, hədis hesab edilsə də, sonradan o dövrlərdə bu toru qısa zamanda bərpa edən iri hörümçəklərin olduğu sübut edilmişdir!

Dünya bu gün təbiətin, insanın yaranması, dünyanı fəkakətlərdən qurtarmağın, insanların birgə yaşamalarinin mümkünlüyünün, sağlamlığı qorumağın sirlərini Qurandan, Nizamidən, Füzulidən, Fərabidən, İbn Sinadan, Ömər Xəyyamdan öyrənir, biz də öyrənməliyik!

***P.S.** Redaktorlar və opponentlərə qabaqcadan zarafatyana cavab!*

*Bəzi dostlarım mənim bu fikirlərimlə tanış olduqdan sonra, "Leyli və Məcnun" dastanının, elə "Koroğlu", "Aşıq Qərib", "Məlik Məmmədin" də, bir əfsanə olduğunu qeyd edir, onların mövcud olmadığını, heç Məcnunun ölmədiyini, gedib başqası ilə evləndiyini deyib, "irad" tutacaqlar (amma, son illərdəki müşahidələrdən sonra "Əsli və Kərəm" dastanında Kərəmin yanmasına, keşişin onun paltarına tez alışan maddə sürtməsi hesabına ola biləcəyinə inanan çoxdur).*

*Mən hesab edirəm ki, heç bir şey, rəvayətlər, dastanlar quru yerdən yarana bilməz. Əsrlər ötəcək, bu gün şahidi olduğumuz Qaçaq Nəbi, 20 yanvar şəhidləri, ildırım sürəti ilə igidlərimizin Şuşanı azad etmələri, bütünlükdə Qarabağda şəhid və qazilərimizin, ordumuzun qəhrəmanlıqları da, bir dastan, əfsanə kimi yaddaşlarda qalacaqdır.*

Əbülfət MƏDƏTOĞLU



# Bizi aldadan görüntülər...

## Həyatın gerçək ədaləti SEVGİDİR

**Yaşadığımız cəmiyyət və onun özünü ifadəsi hər kəsə məlumdu və bu hər kəsə məlum olan cəmiyyətdə özünü təsdiq etmək o qədər də asan deyil. Bunun üçün Allah vergisi ilə yanaşı zəhmətə qatlaşmaq, axtarışlarda olmaq və bir də səmimiyyətini qoruyub saxlamaq çox vacibdir. O, bütün bunları edib və ona görə də cəmiyyətdə də, ədəbi mühitdə də, musiqi aləmində də O özüdü!**

Onu lap gənclik illərimdən tanıyıram və o vaxtdan da sözünə də, yaradıcılığına da, mənəviyyatına da, gözəlliyinə də bir sayqı, bir sevgi yaşayır içində. Mənim üçün o imzasını təsdiq etmiş nəğməkar şair, həm də çevrəsinin diqqət mərkəzində olan yüksək dəyərlərə malik, xanım-xatın bir mələk Qadındı! Anadı! Nənədi! Və bir də oxucularının sevimlisi, sevənlərinin ilham pərisidi. Bu arayışı ona görə xüsusi təqdim edirəm ki, oxucu təkrar bilib inansın, bir söz adamının dilindən eşitsin ki, bu xanım şairə ruhuyla, vücuduyla, əxlaqıyla sözün iç dünyasını görür, gəzir və axtardığını da tapır...

Yenə kitab rəfimin önündəyəm və yenə əlimi uzadıb bir kitab götürürəm. Bu, onun kitabıdı. Adı da maraqlıdı:

**- VƏTƏN BİR DƏ DOĞULMUR!**

Bu doğulmayan vətəndə, bu bir dəfə bizə verilən vətəndə dünən, bu gün necə yaşamışıq və necə yaşayırıq bu başqa bir mövzudu. Bunu başqa bir zamanda, başqa bir müstəvidə oxucularla bölüşəcəm. İndi isə ruhumu oxşayan, xatirələrimə işıq salan, əlimdən tutub özü ilə aparan kövrək duyğuların cığırına düşmüşəm, gedirəm. Gedirəm və məndən öndə gedən Onu da görürəm. O, bir xəyal deyil, O, bir gerçəklikdir. Və O bir gerçəklik kimi məni duyur və ürəyimdən keçəni öz ürəyinin səsi kimi pıçıldayır. Deyir ki:

***İpə-sapa yatmır daha dözümüm***
***Dara çəkir məni sənli xəyallar.***
***Qınasam da bu sevgidə özümü***
***Qıyma mənə ayrılığı nə olar?..***

Bəli, yaxşı istəkdi, yaxşı diləkdi, içdən gəlir, candan, qandan süzülür. Dupduru göy üzü kimi ovudur məni. Elə ovuna-ovuna da məni çəkən, məni özü ilə aparan xəyalların qucağında yenə Səni görürəm. Yenə Onun səsi sənin təsvirin kimi danışır mənlə. Mən onun səsində Səni görür, sanki Səninlə üzüzə dayanıb bu anın ölümsüz olmasına çalışırıq, güc sərf edirik. Allahdan kömək diləyirik. Axı bizim hər ikimiz üçün hər an bir ömürdü, hər an bütün dəyərlərdən dəyərli və qiymətlidi. Axı:

***Hər anımda gözlərimə görükən -***
***Xəyal deyil, gerçəkliyin özüdü...***
***Təmasımdan, hənirimdən perikən -***
***Sevdiyimin ürək çəkən gözüdü...***

Bax elə bu misralar mənim nə demək istədiyimi oxucuya bir növ ip ucu kimi, gül ləçəkləri kimi çatdırır. Ona görə gül ləçəklərini vurğulayıram ki, həmin ləçəklər soluxşuyanda külək onları bir-bir qoparır və səpib, dağıdır ətrafa. Görənlər görür, düşünür, görməyənlərə də söyləyib düşündürür. Mən də bütün məqamlarda, bütün yerlərdə Səni görmək, dinləmək, baş-başa qalmaq istəyi ilə ayaqdayam. İşim, gücüm, hətta aldığım nəfəs də Sənə köklənib. Ona görə də izinə düşüb getdiyim o xanımın pıçıltısı məni bir az da həvəsləndirir, bir az da dözümlü olmağa kökləyir. O deyir ki:

***Tək bircə gün eşitməsəm səsini***
***Elə bil ki, bu dünyada karam, kar.***
***Həsrətinlə sınama gəl sən məni***
***Qıyma mənə ayrılığı nə olar...***

Hə, görürsünüzmü, nə qədər səmimi deyir, nə qədər içdən gələn sevgi ilə pıçıldayır mənə, sənə, bütün oxuculara, bütün sevənlərə. Bu pıçıltını dinləməmək qeyri-mümkündür. Əgər dinləmirsənsə, deməli, sevmirsən! Sevmirsənsə, deməli, bu dünyanın adamı deyilsən. Bu dünyanın da adamı deyilsənsə, deməli, bir heçliksən... Heç kimə lazım olmayan heçlik!..

Nə yaxşı ki, həmin o pıçıltı var və sevgini də, dünyanı da, bir sözlə, yeri də, göyü də xatırladır sevənə. Ona görə də gerçəklik daha şirin gəlir adama. Daha doğma olur və o doğmalığa bələyirsən özünü. Sən onun içərisində mənim əvəzimə, daha doğrusu, sevən bəndənin əvəzinə sevənin, yəni mənim sözümü deyirsən:

***Mən nağıllar divanəsi deyiləm,***
***Yer üzündə canlı gördüm mələyi!***
***İstəsə o dizlərinə əyilim -***
***Qınamaram bu məqamda fələyi!..***

Heç kimi heç nədə suçlamaq olmaz. Bu bir etik, həm də insani yanaşmanın düsturudu. Mən həyatım boyu kiminsə haqqına girmədən, kiminsə əməlinə, davranışına, öz baxış bucağım altında ləkə salmamışam, onu qaralamamışam. Çünki hər kəsə öz can köynəyi daha yaxındır. Və hər kəs də necə yaşamağı, necə sevməyi özü daha yaxşı bilir. Deməli, yaxşısını bildiyi halda ona mənim bildiyimi zorla aşılamaq ən böyük tərbiyəsizlik olar. Şükür ki, heç zaman bu düşüncəni özümə yaxın buraxmadım. İndinin özündə də içimi görüb, ürəyimi oxuyub, duyğularımı sözə çevirən və bəlkə də öz duyğularının məndə ifadəsini misralayan həmin o xanımın fikirləri bir növ mükəmməl mənbədi. Bütöv bir kitabdı, oxuyur və düşünürsən. Düşünəndə də həmin səsi eşidirsən:

***Gözlərinə baxmaq üçün darıxdım,***
***Gözlərimin sənə neçə sözü var.***
***Əllərinə toxunmaqçün darıxdım***
***Qıyma mənə ayrılığı nə olar...***

Təmas, özü də içdən gələn, ürəyin və ruhun ehtiyacı olan təmas Sevginin tər çiçəyidi. Onun qoxusu, onun təravəti yalnız sevənə aiddi. Bu aid olanın çevrəsinə min arı, min kəpənək, min böcək yığışsa da, Sevənin duyduğunu, daddığını, yaşadığını onların heç biri nə duya bilməz, nə dada bilməz, nə də yaşaya bilməz. Çünki ortada ürək və ruh olmayacaq. Ürək və ruhun olmadığı yerdə isə o təmas ən yaxşı halda bir şəhvət hissidi - özü də bir anlıq! Çılpaq desəm bir öpüşlük... Bununla da ötüb



getdi. Amma ürəyin və ruhun təması öz sehri ilə səni bu misraları dinləməyə, onun qarşısında sükuta dalıb düşünməyə, sevgini yaşamağa məcbur edir. Həmin misralar indi də qulaqlarımda səslənir:

***Yaşadığım, yaşatdığı bir adda***
***Gerçəkləşdi sevgisiylə canımda...***
***Bəlli olan bu tarixdə - həyatda -***
***Allah onu işıq etdi yanımda...***

Əvvəldə dediyim kimi, həyatın ən böyük özəlliyi içindəki özünə aid duyğuların sənə hakim olması və səni yaşatmasıdı. Bu duyğuların işığa çevrilməsi isə dəlilik yox, MƏCNUNLUQDU! Məhz həmin anda bir varlıq olaraq Allahdan və sevdiyindən başqa kimsəni görmürsən. Allaha və sevdiyinə inancdan başqa kimsəyə inancın olmur. Deməli, sevgi səni şah etdiyi kimi, sən də onu ömrünə tac edirsən. Vay onda olur ki, o tacı başında saxlamağa gücün, qüdrətin çatmır. Bax, onda...

Bəli, bax onda bütün duyğular, bütün hisslər ovulmuş sünbül, vağanımış ot, daha nəbilim nə olur. Sən ona toxunanda bir məna kəsb etmir, toxunmayanda da. Belə məqamda isə etdiklərin, layiq olduqların kəsir qarşını. Suallar dolu kimi yağır. Cavablar isə yoxdu. Ən yaxşı halda cavablar sınıq şüşə parçasıdı, heç nəyə yaramır, heç nəyi ifadə etmir.

Həqiqətən bu prosesin içərisində qalib olan sevgi hər zaman DİQQƏT istəyir. Gücü, iradəsi, həqiqi sevgisi olan isə o istəklə yanaşı, bir nigaranlıq da, bir rahatsızlıq da aparır özü ilə hər hər yerə. Çünki o DİQQƏT istəyənin yanında olmaq üçün doğulub, var olub. Amma həyat hər zaman istəkləri rahatlıqla gerçəkləşdirməyə nə meydan vermir, nə də şərait yaratmır. Ona görə də həmin o şairə xanım yazır:

***Taleyindən nigarandı bu sevgi***
***Ürəyində neçə qəmli arzu var.***
***Gör nə vaxtdı sərgardandı bu sevgi,***
***Qıyma mənə ayrılığı nə olar...***
***Qıyma mənə ayrılığı nə olar...***

Biz özümüzün kimliyimizi fizioloji, fiziki cəhətdən hər yerdə göstərə bilirik. Bizi qarşılayan, bizi izləyən, bizi gözləyən qarşılaşanda cismimizlə, görkəmimizlə, kimliyimizi bilir. Amma əsl kimlik görünmür. O insanın içindədi. Onu bilmək üçün o iç dünyaya bələd olmaq lazımdı. Şəxsən mənim kimliyimi Allahdan və Səndən başqa heç kim tam və dürüst bilmir. Mən də Allahdan və Səndən başqa kiminsə kimliyimin bilməsini arzu etmirəm. Və nəhayət mən o kimliyi Sənə vermişəm. Özü də ən böyük həvəslə, ən böyük istəklə. Və demişəm ki:

***Daşıdığım quru cisim - bədəndi***
***Ruhum səndə - onu sayma gəl xəyal!...***
***Mənim sevgi təmənnam tam ödəndi -***
***Şükürlər Sən varsan, sən salamat qal!..***

Təəssüf ki, biz bu dünyada ruhumuzun və ürəyimizin sahibi olmaq üçün heç də həmişə çarpışmamışıq, mübarizə aparmamışıq. Bizi daha çox görüntülər, görünənlər, gözün diqqətini çəkənlər ovudub, aldadıb. Və axırda da...

...Axırda da hər kəs yenə SEVGİYƏ möhtac qalıb. Mənə görə həyatın ədaləti də elə burdadır.

***P.S, Şeri ilə şerimi bir araya izinsiz gətirdiyim üçün Kəmalə Abiyevadan üzr istəyirəm!***

# Bir şeirin işığında

## Unudulmaz Şücaətlə ruh söhbəti

**Bu bir gerçəklikdir ki, İnsa dünyaya gəldiyi kimi bir gün də köçüb gedir. Doğrudur, köçün səbəbləri də olur. Biri əcəldən, biri əcəlmayallaqdan, biri qəzadan, biri qədərdən, biri yazılmış və tamamlanan qismətdən və sair və ilaxır. Bu bir pessimist yanaşma deyil, bu gerçəyin dilə gətirilib kağıza köçürülməsidi. Bir az böyük anlamda yanaşanda isə hamının bildiyini pıçıltıyla, elə-belə söylədiklərini oxucuya xatırlatmaqdı. Təbii ki, bu da səbəbsiz deyil. O səbəb indiki anda mənim ruhuma, qəlbimə hakim olmuş, onu öz işığına bükmüş bir şeirdi...**

Şeirin müəllifini bütün Azərbaycan tanıyır. Onun misraları dillərdə, ağızlarda dolaşır. Adı çəkiləndə hər kəsdə bir daxili sayqı öz ifadəsini büruzə verir. Bu xalqın, elin şairi Şücaətdi. Həyatı, yaradıcılığı, maraqlı və dolanbac yollar keçmiş bir şairin sözü də elə müəllifin özü kimi gəzib-dolanıb, oxucuya gəlib çatıb. Öncə bulaqlar, sonra da ürəklər dinləyib o şeiri. Hər birində də təkcə ruh yox, həm də yaşam adamlara doğma gəlib. Gerçəkliyin pıçıltısı olub və bu gün də olur o şeirlər...

Masamın üstündəki kitabı vərəqləyirəm. Bəlkə də min dəfə vərəqləmişəm. Dünəndən bəri içimə hopmuş ağırlığın altında özümü o qədər rahatsız, arxasız, köməksiz, unudulmuş hiss etdim ki, nə evimə, nə də çevrəmə sığışmadım. Hayıma, harayıma şeir gəldi, Şücaətin şeiri. Bu şeiri oxuya-oxuya elə bildim ki, o həlim, adamın ruhuna sığal çəkən səs mənimlə üzbəüz dayanıb, üzbəüz oturub. Daha doğrusu, o bir qayaya söykənib üzü Tanrıya pıçıldayır bu şeiri. Qaya da əks-səda verir. Mən də o əks sədanı hopdururam özümə. Özü də həm ürəklə, həm də ruhla. Bu da səbəbsiz deyil. Əvvəldə dediyim kimi, içimdəki sıxıntını, məni çökdürən məqamı içimdən çıxarmaq üçün edirəm bunu. Sonra görürəm ki, yanılmamışam. Şücaət şeiri məni yavaş-yavaş xilas etməyə başlayır. O deyir ki:

***Baharım tələsdi, yazım tələsdi,***
***Vaxtından tez gəldi qışım, qocaldım.***
***Gözüm açılmadı, üzüm gülmədi,***
***Çox bəlalar çəkdi başım, qocaldım.***

Hə, doğurdan da doğulduğum zaman, yaşadığım illər və bu gün...arasındakı bağlantı o qədər zəifdir ki, hər an qırılması mümkündü. Çünki böyük bir imperiyanın təbəsi oldum, ali təhsil aldım, əmək fəaliyyətinə başladım və dünya dağıldı... Sonra bu dağılan dünyada yeni qaydalar, yeni yaşamlar, yeni tələblər, bir sözlə, dağıntılar içərisində yenilik axtarışı. Özü də Vətəndə vətənsiz bir bəndənin axtarışı qocaltdı məni. Vaxtından tez, həm də sürətlə. Gördüm ki, qocalıram. Gördüm ki:



***Mən ömür içində ömür əridib***
***Günlərin içində gün kiridirəm...***
***Sevginin əlindən tutub yeridib -***
***Ölməyə qoymayıb qəm dirildirəm...***

Amma neyləyim ki, nə gücüm Rüstəmi Zalın gücü, nə imkanım Nobelin imkanları, nə də görkəmim cənnətin söz sahibi olmadığından heç nəyi dəyişə bilmədim. Əksinə, qocalmanın şərtləri, tələbləri daha güclü, daha ağır və daha dözülməz oldu. Ona görə də qaçmağa yer tapmaq özü də müşkülə döndü. Bir də ki, özü-özündən hara qaçasan ki? Bax, onda bir daha anladım ki, mənim işim Allaha qalıb. Allaha qalan işimin yerdəki mahiyyətini də mənə anladan, söylədən Şücaət oldu. O, birmənalı şəkildə öz həyatının, öz ruhunun işığında mənə qələminin ucuyla bir ünvan göstərdi və dedi ki:

***İşim düşdü zülümkarnan, zalımnan,***
***Dönük baxtım yapışmadı qolumnan.***
***Bu gödək ömürdə əhli-halımnan,***
***Çox oldu nadanım, naşım, qocaldım.***

Bax, bunu demək, bunu mənə xatırlatmaq bir az nəfəsimi genəltdi, elə bil çiynimdəki yük bir az azaldı, elə bir kimsə qolumdan tutdu, büdrədiyim anda dayaq verdi mənə. Bu sözün, şeirin və bir də onu pıçıldayanın əli idi. Onu görmək, onu hiss etmək isə artıq mənim bacarığımdan, mənim duyumumdan gəlib keçirdi. Şükür ki, nə gecikmədim, nə də yanılmadım. Qolumdan tutanın, dayaq verənimin kim olduğunu hiss etdim, anladım. Həm də böyük bir ürəklə, sayqı ilə minnətdarlığımı baş əyməklə ifadə etdim. Həm də sadə bir şəkildə sözün sıra düzümünün bənzərsizliyinin rəsmini göstərməklə deyiləni dinləmək, deyiləni həm də görmək artıq söz sahibinin qüdrətindən xəbər verir, imkanlarını göstərir. Bax, mən də Şücaətdə bir oxucu, bir söz adamı olaraq gördüm bunları, duydum bunları. Ona görə də üzümü öz çevrəmə tutub dedim ki:

***Siz də yaxınlaşın təsəlli üçün***
***Məni hər çəkdiyim gün "ah"a bükün...***
***Sevməkdi günahım vallah, büsbütün -***
***Siz məni elə bu günaha bükün...***

Düşünməyin ki, bu misralar mənə təsəllidi, özümü sığortalamaqdı, ya da kiminsə qarşısında bəraət almaq istəyidi. Xeyr, bu şeirin bütün ovqatı öncə də dediyim kimi, yaşadığımı təkrar-təkrar özümdən, canımdan, ruhumdan keçirtməkdi. Elə bil ki, daşdan su süzülür. Yəqin su süzən daşları görmüsünüz. Bax, onun kimi hiss etdim özümü.

Ona görə də Şücaətlə söhbət etdiyim mövzunun məni necə sakitləşdirdiyini təkrar etiraf etməyə bilmərəm. Nə qədər ağrılı olsa da, mən deməliyəm ki, ən böyük təsəlli həqiqətən də səni duyanın, sənin duyduğunun özüdü, ürəyidi, ruhudu. Bu tamlıq səni də bir növ çəkib quyudan çıxardır, səni də tamlaşdırır. Onda birmənalı şəkildə arxasız, kimsəsiz olmadığına inanırsan. İnam, elə inanc da xilasın başlanğıcıdır. Ondan yapışıb yola çıxmaq, yol getmək olar. Necə ki, mən indi bu yoldayam.

Doğrudur, yola çıxmamışdan öncə necə idim, nə cür idim, Allah, Sən və bir də özüm bilirəm. Yolun başlanğıcına məni çəkib gətirən "Qocaldım" deyən şair oldu. Mən də onun necə, nə cür, nədən, niyə qocaldığını azçox bilsəm də, öz dilindən eşitməyim məni sanki təkrar silkələdi. Üstümə su ələyib oyatdı. Oyananda da bir də təkrar dedi:

***Qəzanın oxları ömrümə süzdü,***
***Dağ dözməz dərdlərə Sücaət dözdü.***
***Yazıq gəncliyimi türmələr üzdü,***
***Otuza çatmamış yaşım, qocaldım.***

Qəribə nüanslar var həyatda. Bu nüanslar bir-birinə bənzər olanda, o bənzərlik adamı düşündürür. Şeirin son bəndində "Otuza çatmamış" deyən Şücaətin haralara daş atdığını, haraların yuxusunu qaçırtdığını bilənlər bilir. Mən də az-çox bilirəm. Ona görə də 30 illik yurd nisgilinin bizlərə nələr yaşatdığını, bizlərdən nələr aldığını təkrar etmədən deyə bilərəm ki, o 30 il bizi yaman qocaltdı. Bizi sözün birbaşa mənasında HEÇ KİM etdi. O heç kim olduğum vaxtda mən də dedim ki:

***Həyat zərbələri qılıncdan da sərt***
***Ürəyin tüstüsü ərşə ucalır...***
***Deyəsən tamamdı kəsilən o şərt -***
***Qocalır Əbülfət, yaman qocalır...***

Hə, indi elə nöqtədə gəlib dayanmışam ki, buradan arxaya baxmaq və hər şeyi görmək olar. Qarşı tərəf isə dumanlı, bir boşluq təsiri bağışlayır. Onu seçmək, o istiqamətdə getmək çətin və bəlkə də təhlükəlidi. Amma başqa istiqamət də yoxdu! Qalır Allahın yazdığı taleha özünü tapşırmaq. Mən də bu düşüncələrin içərisində Allahımı, Səni, özümü, içində olduğum dörd divarı nöqtə, vergülünə qədər gözümdən, könlümdən keçirirəm. Özü də büdrəmədən. Ona görə büdrəmirəm ki, qolumdan tutan var. Bu Şücaətin ruhu və sözüdü. Ruhuna salamlar olsun, sözünə isə oxucu yaddaşı arzu edirəm...

***P.S. Bəli, hamı qocalır, amma qocalmanın şərtləri, tələbləri o qədərdir ki. Bu saysız qocalma şərtləri və tələbləri içərisində seçim etmək imkanı hər kəsə verilməyib. Elə mənə də...***

**Əbülfət MƏDƏTOĞLU**

### *Daha bir şəhid ailəsinə mənzil verilib*



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillə təmin olunanlardan biri də Şəhid Nicat Səmədovun ailəsidir. Ailəyə Bakının Xocasən qəsəbəsindəki yeni yaşayış massivində iki otaqlı tam təmirli mənzil verilib.**

Şəhidin anası Pərvanə Səmədova deyir ki, Nicat sərhədçi olmaq istədiyi üçün hərbi xidmətini başa vurduqdan sonra gizirlik kurslarına yazılıb və sonradan hərbçi kimi işləməyə başlayıb. Aprel döyüşlərində də iştirak edib. 2018-2019-cu illərdə xidmətdə fərqləndiyinə görə fəxri fərmanlara layiq görülüb.

Gizir Nicat Şahin oğlu Səmədov Vətən müharibəsində şərəfli döyüş yolu keçib və Zəngilan uğrunda döyüşlərdə şəhid olub. Dövlət başçısının Sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hazırda dövlət tərəfindən onlara verilən yeni mənzildə yaşayan ailə deyir ki, bu hədiyyə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şəhidimizə, bütün şəhid ailələrinə olan xüsusi diqqətinin göstəricisidir.

Şəhidin valideynləri digər sahələrdə də diqqətlə əhatə olunduqlarına görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Vətən müharibəsindən sonra şəhid ailələri və müharibə əlillərinə 3600, ümumiyyətlə ötən dövrdə 12500-dən çox mənzil və fərdi ev verilib. Bu ilin sonunadək 1500-dən çox mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi nəzərdə tutulub ki, artıq 600 mənzil təqdim olunub. Yaxın iki ayda isə bu kateqoriyadan olan şəxslərə daha 500 mənzil və fərdi ev veriləcək.

# Açılan yollarımızın şeiri

## O hələ tam yazılmayıb

**İnsan bir varlıq olaraq torpağa, xüsusilə doğulduğu məkana bağlı olur. Bu həm bir varlıq olaraq onu ilk təmasının bəhrəsidi, həm də doğulduğu torpaqda o təmasdan zaman-zaman aldığı impulsların onda yaratdığı istəyin, sevginin, arzuların, yaşamın, həm də gerçəkliklərin bəhrəsidi, barıdı. Deməli, bütün bunların içərisində ortaq nöqtə, dayaq məntəqəsi yenə də torpaqdı. Ona görə də müdriklər də vurğulayıblar ki, adam güvəncli olduğu yerdə güclü olur. Yəni öz ocağın, öz torpağın səni dik saxlayır, məğrur saxlayır, güclü edir, dözümlü edir...**

Bütün bunları adi söz - fikir toplumu kimi dilə gətirmirəm, ifadə etmirəm. Ona görə ki, bu söylədiklərimi canımdan, qanımdan keçirmişəm. Torpaqsız, vətənsiz olmağın bütün acılarını, bütün sıxıntılarını yaşamışam. Baxmayaraq ki, bütöv Azərbaycan mənim də Vətənim, mənim deə ünvanımdı.!! Amma doğulduğum ocaq, ilk təmasda olduğum torpaq işğal altında olarkən mən Vətəndə vətənsiz idim... yurdumda yurdsuz idim... torpağımda torpaqsız idim... Bunun nə demək olduğunu, bunu hansı mənanın kəsb etdiyini, bunun ölçüsünü, çəkisini, tənəsini... yalnız yurdunda yurdsuz olan, elində qaçqın olan bilər və bilirdi! Bax elə indi əlimdə tutduğum kitabın müəllifi də, mənim söylədiklərimi, yazdıqlarımı içindən keçirib və özü də onun içərisindən keçib. Ona görə də onun vücudunda da, onun həyatında da, onun səsində də, onun sözündə də bu hiss olunur və o, həmin o hiss etdirdiklərini, yəni özünün yaşadıqlarını qışqırmadan, hay-həşir qoparmadan sakit bir şəkildə deyir:

***Əlimiz - qolumuz bağlıdı,***
***yönümüz, yolumuz bağlıdı.***
***Taleyimiz, naxışımız,***
***sağımız, solumuz bağlıdı.***

Bəli, bunu adi söz kimi, misra kimi oxumaq mənim üçün çox çətindi. Çünki bu qələmin ucu ilə yox, fırçanın çox asta, çox titrəyişli bir şəkildə çəkdiyi rəsmin cizgiləridi. O cizgilər bizim ömrümüzdə özünü kifayət qədər ifadə edib 30 ildə. Və görmüşük ki, daha doğrusu, yaşamağa məhkum olduğumuz hisslərin içərisində əl-qolumuz bağlı, gözümüz yolda, özümüz isə xəyalların, yuxuların caynağında. Belə yaşamışıq. Çünki vətəndən vətənsiz idik. Bu da mənim ürəyimin sarı simini dilə gətirirdi. Onda da mən deyirdim, daha doğrusu, yazırdım ki:

***Gözümüzün qarşısında,***
***Beş addımlıq yoldadır.***
***Hayana boylanıram -***
***sağımda, gah soldadır.***
***Amma...***
***nə əlim çatır,***
***nə də ünüm yetir -***
***Dağlara!***

Gördünüzmü, biz nələr yaşamışıq. Daha doğrusu nələri yaşamağa məhkum olmuşuq. Gözümüzün önündə - bir sıçrayışlıq məsafədə olan kəndimizə, dağımıza, bulağımıza, çayımıza baş çəkə bilməmişik. Əlimizi o yerlərin daşına, torpağına sürtmək, şehli yarpaqlarını gözümüzə çəkmək haqqımız əsir olubdu, girov olubdu. Və biz bu əsirliyi, bu girovluğu həm cismən, həm mənən daşımağa, övladlarımıza hiss etdirməyə özümüz də istəmədən məcbur edilmişik.

Ona görə də yuxumuzdan, xəyalımızdan çıxmayan gerçəkliklərin tablosunu, şəklini gözümüzün önündə saxlamışıq, gəzdirmişik. Özü də heç kimə göstərmədən. Amma bilmişik ki, onlar olub və var. Ona görə də yazmışıq ki:

***Qapıların kirkiridləri,***
***kirkilidlərin qapıları.***
***Bəxtimizin karetaları,***
***arabaları, yabıları***
***bağlıdı, bağlıdı, dostlarım.***

Bu misralar əvvəldə çəkilən rəsmin başqa bir mənzərəsini, başqa bir bucaq altında görüntüsünü oxucuya çatdırır. Bir az da obrazlı desəm, oxucucunu məcbur edir ki, o şəkilə, o fotoya, o rəsmə bir az da yaxın dursun. Eynəyinin üstündən eynək taxıb bir də baxsın. Onda görəcək ki:

***Nisgillə gəlib keçir,***
***illər yaman ötüşür,***
***Azalırıq günbəgün.***
***Sinəmizdə dərd, düyün -***
***Yerdən ümidimiz yox.***
***Qulağı kardır göyün,***
***Soyuyuruq havatək,***
***Soyuyuruq daş kimi.***
***Gərəksiz oluruq biz -***
***Düşünməyən baş kimi.***



Hə, bu yaşamdısa, bu həyatdısa, onun bizə yaşatdığının, bizə bəxş etdiyinin adının nə olduğunu kimsə deyə bilər və verilən ad bu yaşamı, bu həyatı bütünlüklə ifadə edə bilər? Mən şəxsən nə elə bir ad, nə elə bir ifadə bilmirəm, eşitməmişəm, oxumamışam. Yalnız "qaçqın", "köçkün" sözləriylə o mənzərəni ala-yarımçıq diqqətə təqdim etmək mümkündü. Zənnimcə bu nöqtədə dil də, söz də aciz olduğundan yalnız yola verib bizi. Yəni qaçqını, köçkünü. Ona görə də özümüz, öz yaşamımızı öz misramızda, öz dilimizdə göyərtmişik, öz şeirimizin, öz kitabımızın mövzusu etmişik və:

***Dağ - daşımız, dərələrimiz,***
***çaylarımız, bərələrimiz,***
***xanamız, kirkirələrimiz***
***bağlıdı, bağlıdı, dostlarım.***

Hər halda bu şeirin ruhuna əlavəsiz, müdaxiləsiz bir yad baxışla, bir uzaq adam kimi baxmaq qüsur sayıla bilməz. Bunu ona görə dilə gətirirəm ki, biz bəzən şairin xatırlatdıqlarını hardasa söyləyəndə istehza və yaxud laqeydlik alır başımızın üstünü, qınaq yerinə çevrilirik. Kədəri, ağrını, sızıltını mövzu etməyimiz kimlərinsə xoşuna gəlmir. Bu sayqısızlıqdı mənə görə, bu əlimizdən alınanlara, əsir edilənlərə biganəlikdi mənə görə. Odur ki, dözməyib bağırmaq, hər kəsə bu gerçəkliyi ADAM gözüylə görmək hökmünü vermək gəlib keçir içimdən. Çünki:

***Çadır şəhərlərinin***
***Ömrü artır, uzanır.***
***Qaçqın sifətlərimiz***
***Çadırlartək bozarır.***
***Qalırıq baxa-baxa***
***Dağlara!***

İndi mənim nə qədər haqlı olduğumu özünüz dəyərləndirə bilərsiniz. Mən bunu sizin ixtiyarınıza buraxıram. Və hətta ürək yumuşaqlığı da göstərərək mülayim şəkildə şeirin ardını diqqətinizə çatdırıram. Həmin o şeirdə şair dostum yazır ki:

***Birisi mənsəbə, şöhrətə,***
***birisi şəhvətə bağlıdı.***
***Birisi zillətə, birisi***
***İçkiyə bağlıdı dostlarım.***

Görürsünüzmü, biz gerçəkdən geriyə durmamışıq, geriyə çəkilməmişik.... Onu olduğu kimi, yaşadığımız kimi, gördüyümüz kimi ifadə etmişik. Bu da real mənzərəni sizə də, elə bizim özümüzə də göstərməkdi, təqdim etməkdi. Axı göz görəndə fikri, diqqəti daha tez özünə çəkir. Bu da növbəti addıma, yəni qərar verməyə, münasibət bildirməyə yol açır. Ona görə də bizim ağrılarımızın ifadəsi sizi bizimlə həmfikir etməyə, bizi görməyə, bizlərdən biri olmağa hesablanıb. Belə olarsa, birlikdə zamana da, ağrı-acıya da qarşı çıxmaq, güc gəlmək olar. Onda:

***Zamanın üzü dönük,***
***İçimizdə od sönük...***
***Beləcə bölük-bölük***
***Səpələnib dörd yana.***
***Dərd çəkmədən,***
***Dərdi də! -***
***Yığıb boğaza, cana.***

***Əlimiz qoynumuzda -***
***"Qaçqın" ünvanımızın***
***Töhməti boynumuzda***
***yaşayırıq!***
***(Əgər bu yaşamaqsa?)***
***Nə vaxtsa -***
***Qayıtmaq arzusuyla***
***Dağlara!***

Bəli, şükürlər olsun ki, həmin o "qaçqın" ünvanı iki ildir ki, xatirəyə, keçmişə çevrilməyə başlayıb. Biz o töhmətdən də, o çəkdiklərimizdən də ellikcə qurtula bilmişik. Bu qurtuluş 44 günlük Zəfərin bəhrəsidi. Və mən də elə bu yazımın həm müəllifi olan, şeirinə köklənib fikirlərimi ifadə etdiyim Aydın Uluxanlı da şəhidlərimizin ruhu qarşısında, qazilərimizin önündə böyük və sonsuz sayqı ilə baş əyirik. Çünki şəhidlik zirvəsinin, Vətən sevgisinin nə olduğunu, onun bütün çalarlarını nə olduğunu, nəyi ifadə etdiyini anlamışıq, yaşamışıq və bu gün də anlayaraq yaşayırıq. Bu yolda istəyimizi, məramızı ifadə etməkdən çəkinmədən qələmi də, silahı da, bərabər görüb, bərabər tutmuşuq. Və Aydın Uluxanlı şeirinin sonunda yazıb ki:

***İstərdim buxovları keçəm,***
***şəhidlik şərbətini içəm.***
***Heyif ki, təkliyə bağlıyam,***
***tənhalığa öçəm, dostlarım.***

Bu gün isə həmin o təkliyin cəmliyə çevrildiyinin şahidi olmuşuq. Sadəcə Göyçəyə, Zəngəzura dönüşümüzün sürətlənməsini gözləyirik. İnanırıq ki, Tuğa qayıtdığımız kimi, Uluxanlıya da qayıdacayıq. Və bizim vətəndə vətənsiz illərimiz tarixin arxivinə veriləcək!

***P.S. Şair dostum, ruh qardaşım Aydın Uluxanlının "Əlimiz-qolumuz bağlıdı" adlı şeirini 2007-ci il martında yazıb. Ondan 13 il 5 ay sonra əlimiz, qolumuz açıldı. İnanıram ki, bu xalqın hələ həsrətini çəkdiyi, amma halal haqqı olan bütün ünvanlara əli, qolu da, yolları da açılacaqdı.***

**Əbülfət MƏDƏTOĞLU**

# MİL DÜZÜNDƏ BİR ÜNVAN VAR

**Azərbaycanın aran reginonuna daxil olan Beyləqan rayonu Ağcabədi, Füzuli, İmişli, Xocavənd, həmçinin İran İslam Respublikasıyla həmsərhəddir. Bu rayon 1939-cu ildə, yəni Sovetlər dövründə inqilabçı Jdanovun şərəfinə yaradılmışdı. 1963-cü ildə Sovet İttifaqında aparılan islahatlarla əlaqədar olaraq rayon inzibati ərazi kimi ləğv edilərək İmişli rayonunun tabeçiliyinə verilmişdir. Lakin bir il sonra yenidən rayonun statusu bərpa olunmuş və o, Azərbaycanın digər rayonları kimi iqtisadi inkişaf zonasına aid edilmişdi. Maraqlıdır ki, məhz Sovet hökumətinin son illərində, yəni 1989-cu ilin mart ayının 19-da rayonun adı dəyişdirilərək Beyləqan qoyulmuşdu. Tarixi mənbələrdən məlumdur ki, Beyləqan qədim Örənqala şəhərinin mövcud olduğu ərazidə yaradılmışdı. Hələ IV əsrdə Örənqala şəhərinin əsası qoyulmuş və XII əsrdə monqol istilası zamanı şəhər xarabalığa çevrilmişdi. Rayona verilən ad isə burada yaşayıb-yaratmış Mücrəddin Beyləqaninin yubileyi ilə əlaqədar olmuşdu. Ümumiyyətlə, Beyləqan bir ərazi olaraq qədim İpəkyolunun üzərində yerləşdiyindən Bərdə, Gəncə və Təbrizlə sıx iqtisadi əlaqələri olubdu.**

Beyləqanın tarixinə etdiyimiz bu qısa səyahətdən sonra qeyd etmək lazımdır ki, təbiət etibarı ilə mil düzünün bu rayonunda quru subtropik iqlim qurşağı üstünlük təşkil edir. Qışı mülayim, yayı isə isti keçir. Deməli, bu ərazi yarımsəhra və quru çöl iqliminin üstünlük təşkil etdiyi bölgədir. Bunu ona görə xüsusi qeyd edirəm ki, rayonun iqtisadi imkanları məhz onun torpağının bərəkətindən, gücündən asılıdır. Yerin coğrafiyası buranın düzəngah, çöllük olmasını göstərir. Deməli, burada daha çox heyvandarlığın və bitkiçiliyin inkişafı üçün daha geniş imkanlar var. Görünür, elə Sovet hökuməti də rayonun bu iqtisadi imkanlarının nəzərə alaraq Beyləqanda qoyunçuluğun və dənli bitkilərin, eləcə də pambığın becərilib inkişaf etdirilməsinə xüsusi diqqət yetiribdi.



Beyləqan rayonunda xeyli sayda sənaye müəssisəsi qeydə alınmışdı. Lakin onlardan 8-i fəaliyyət göstərmiş, digərləri isə özünü doğrulda bilməmişdi. Bu da planlaşdırmanın və persektivin nəzərə alınmamasından baş vermişdi. Artıq Azərbaycan prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə həyata keçirilən Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq Beyləqanda da rayonun iqtisadi imkanları köklü şəkildə araşdırılmış və artıq müvafiq addımlar da atılmaqdadır. Xüsusilə rayon ərazisində pambıqçılığın yenidən bərpası, bu sahəyə diqqətin artırılması, həmçinin üzümçülüyə şərait yaradılması görülən işlərin sırasındadı. Bu gün də hər kəs Beyləqan rayonu ərazisində yetişdirilən və yerli əhaliyə kifayət qədər vəsait toplamaq imkanı verən üzümçülüyün inkişaf etdirildiyi dövrü xatırlayır. Həmin zaman kəsiyində Beyləqan ərazisində geniş imkanları olan bir neçə üzüm emalı zavodu da mövcud idi. Eləcə də Beyləqan pambıqçılarının qazandıqları uğurlar respublikanın hüdudlarını aşmışdı. Xüsusilə Mil düzünün qəhrəmanları Sevil Qazıyevanın, Sosialist Əməyi Qəhrəmanı Sərdar İmrəliyevin, eləcə də digərlərinin adı zamanında dillər əzbəri idi. Çünki onların ağ qızılla qazandıqları uğurlar həm rayonun, həm də respublikanın iqtisadi potensialına yeni çalarlar qatırdı.

Azərbaycanın mühüm kənd təsərrüfatı rayonlarından olan Beyləqanda faktiki olaraq 113 min hektardan artıq torpaq sahəsi var ki, onun da 79 min hektarı kənd təsərrüfatını inkişaf etdirilməsi üçün tam yararlıdır. Bu rayonda yaşlı nəslin nümayəndələrinin dediyi kimi, zəhmətlə hər şeyə nail olmaq mümkündür. Xüsusilə Araz çayının yatağından götürülən suların hesabına Mil düzündə əkin-biçin işlərini inamla həyata keçirmək olar. Təbii ki, rayonda bostan-tərəvəz məhsullarının istehsalına da geniş yer ayrılıb. Xüsusilə kartof, kələm, şəkər çuğunduru, eləcə də digər bostan məhsulları Beyləqan rayonun torpaqlarında məhsuldarlığı ilə seçilir.

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, Sovet dönəmində Beyləqan rayonu özünün böyük qoyunçuluq təsərrüfatı ilə da seçilirdi. Xüsusilə o zamanlar rayonun damazlıq qoyunçuluq təsərrüfatı sayılan "Dostluq" sovxozunun iqtisadi imkanları hər kəsin diqqətini çəkirdi. Məhz maldarlığın yem bazasının olması və örüş sahələrinin verdiyi imkanlar hesabına rayonda həm iri, həm də xırdabuynuzlu heyvanların bəslənməsinə hər kəsdə maraq var idi. Ona görə rayonda süd emalı müəssisəsi də fəaliyyət göstərirdi.

Bütün bunları xatırlatmaqla təkcə keçmişdən söz açmaq niyyətində deyiləm. Vurğulamaq istəyirəm ki, bu gün müstəqil Azərbaycanın iqtisadi qüdrətini artırmaq üçün digər bölgələr kimi Beyləqanın da iqtisadi xəritəsini göz önünə gətirmək və bu rayonun yaxın və uzaq kəsiyi üçün inkişaf planını reallaşdırmaq lazımdı. Yəni bu torpaqda məhsuldarlığı ilə seçilən üzüm, pambıq, dənli bitkilər əkib-becərməklə yanaşı, həm də heyvandarlığa da xüsusi diqqət yetirilməlidir. Məhz bu diqqətin yetirilməsi respublikamızın süd və süd məhsullarına olan tələbatın ödənilməsində, eləcə də ət, yumurta və yun istehsalının artırılmasında öz sözünü demiş olar.




**Burada bir məqamı da xatırlatmağı zəruri sayıram. Belə ki, Beyləqan rayonunun mərkəzi olan Beyləqan şəhərinin infrastrukturunun daha da müasirləşdirilməsi burada su,qaz, işıq, yol problemlərinin köklü şəkildə həll edilməsi də diqqət mərkəzində saxlanılmalıdır. Yəni bugünün reallıqlarına cavab verən şəhərin olması rayon sakinlərini, xüsusilə gəncləri Beyləqana daha çox bağlayar. Ümumiyyətlə isə rayon ərazisində yun emalını həyata keçirən müəssisənin, xalça sexlərinin, şirə emalı müəssisəsinin, eləcə də digər sahələr üzrə iş yerlərinin açılması həm Azərbaycan prezidentinin hər kəsin iş yeri ilə təmin edilməsi tələbinə cavab olar, həm də insanların sosial-məişət şəraiti daha da yaxşılaşar. Bütövlükdə isə qədim tarixi olan Beyləqanın yeni dövrün ahənginə uyğun səviyyəyə çatdırılması üçün olanlara, reallığa söykənib olmayanları arzu etdiklərimizi gerçəkliyə çevirməliyik. Bunu ölkə Prezidenti, həm də Azərbaycan gerçəklikləri hər birimizdən tələb edir.**

**Əbülfət MƏDƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# İlham bulaqları, söz irmaqları



*Musa Xanbabazadə*
*filoloq-ədəbiyyatşünas*

**Bir şairin lirik MƏNi ilə çoxdandır ki,ülfətdəyəm. Məmləkətin (dünyanın) dünənləri, bugünləri və sabahları barədə onunla söhbətdəyəm.O,şairin bir simvolik obrazı,bir simvolik qəhrəmanıdır.Ölkə(bəşər)gedişatının gah məmnunu,gah da peşimanıdır. Qara edir ömür-gününü məğlubiyyətlər.Sevinclərin qucağına atır onu qalibiyyətlər.Görən gözü yoxdur onun namərdləri,xəbisləri.Zərbələyir yorulmadan şeytanları-iblisləri.Qırmanclayır,şallaqlayır vicdanı yox nakəsləri.Güllələyir,şilləleyir ruhumuza çirkab atan yad səsləri.O həm Babək,Mübarizdir,həm Poladdır,həm də Həzi.Həm şəhiddir,həm əsgərdir,həm də qazi.Üzüdönməz,sözüdönməz mərd kişilər,qurd kişilər xislətlidir.Həcər,Nigar,Burlaxatun,Salatınlar tinətlidir.İçindədir yurd ağrısı,vətən dərdi.İçindədir el-obanın həm igidi,həm namərdi.MƏN şairin yoldaşıdır, qardaşıdır,sirdaşıdır.MƏN şairin hafizəsi,düşüncəsi,iç dünyası,yaddaşıdır.**

MƏN şairin həmdəmidir,sevincidir.Qəmidir.Zərrəsidir,həm də küllü-aləmidir.Bu MƏN təkcə əks eləmir şairi,əks eləyir xalqı-milləti.Əks eləyir bütün bəşəriyyəti.Bircə damcı,bircə zərrə əşyaları,okeanlıarın tərkibini özündə ehtiva etdiyi kimi,bu MƏN də dünyanı (fərdi)özündə ehtiva edir.Bu MƏN şairin öz içində,öz ruhunda,canındadır.Bu MƏN şairin ilham-ehtirasında,hiss-həyəcanındadır.O yol gedir şair ilə(şairlərlə)sabahlara-keçmişlərə.O yol gedir şair ilə tənəzzülə-geriliyə,tərəqqi-yüksəlişlərə.Şair gülür,o da gülür.Şair ölür,o da ölür.Şair batır dərdəqəmə.O da küsənir aləmə.Şair şaddır , bəxtiyardır,o da şah taxtında pürvüqardır.

Məni özünə-sözünə bağlayan,məni gizlicəgizlicə çağladan o MƏN,görən,hansı şairin ilhamının odu-közüdür?! O MƏN anam Azərbaycanın bir tikəsində-sultan Lənkəranda,xan Lənkəranda ömür-gün sürən AĞAMIR CAVADın şair sözüdür.AĞAMİR CAVADın öz elinə-obasına sevgi-məhəbbət dolu bir şair salamıdır,bir şair kəlamıdır.

Əziz oxucu,əziz şeirsevər ! Gəl qoşul bizlərə(mənə və Ağamir Cavad şairin qəhrəmanına)birlikdə ucaq Ağamir Cavadın poeziya kəhkəşanına.Gəl qoşa yol alaq Ağamir Cavadın poeziya gülüstanına-bu kəhkəşanın,bu gülüstanın bir parçasına-"DƏNİZ ADAM"("Bakı"nəşriyyatı-2021)dəryasına,"DƏNİZ ADAM"ümmanına.

Haqqın yolçusudur.Haqqın keşikçisidir.Haqqın fədaisidir.Haqqın sadiq bəndəsidir.Haqqın murididir.Haqqın tələbkar öyrəncisi-şagirdidir Ağamir Cavad.Çalışır-çarpışır haqqın bərqərarına,haqqın varoluşuna.Haqqın nur kimi,şəfəq kimi ürəklərə,ruhlara doluşuna.Allahın sinonimi HAQQ sözü və bu sözün muxtəlif məna çalarları(hüquq,həqiqət,ədalət,azadlıq,qismət payı,ödül-mükafat,borc-vəzifə...)çox sıx-sıx işlənir Ağamir Cavadın poeziyasında.Həm HAQQ,həm bu sözün digər komponentləri bəzəklənir,cilvələnir,rəngarəng poetik qiyafələrdə görünür Ağamir Cavadın poetik aynasında və bu aynanın çilçıraqlı söz işığında.Bu ayna-güzgüdən apaydın görünür ki,zaman-zaman təqiblənib,təhdidlənib,çeşidli işgəncə yaradıcılığına(dar ağacındanasılma,diri-diri soyulma,tonqalda yandırılma,daşqalaqetmə,at quyruğunda sürütmə,həbsə atdırma...)məruz qalıb haqq yolçuları.Fəqət dönməyiblər haqqı var-gur səsilə bəyan etməkdən,haqqı minlərə,milyonlara əyan etməkdən ! Yalançılar,talançılar,saxtakarlar,axtakarlar,hər cür xorlar əliqılınclı hücum çəkiblər haqqa.Qoymayıblar haqqın sevinci,nuru,odu-atəşi çatsın millətə-xalqa.Lakin nə haqq susub,nə haqqı öyənlər,nə haqsevərlər tükənib,nə haqqı söyənlər.

*...Tülkülənib indi aslan dərəsi,*
*Demə susub igidlərin nərəsi.*
*Haqq deyənin soyulubdu dərisi,*
*Kim deyir ki,haqqa çatmaq asanmış?*

Hamını,hər kəsi HAQQa,ALLAHa-o müqəddəs MƏBUDa,o əlçatmaz UCALIĞa,o dumduru,o büllur MÜQƏDDƏSLİYə çağırır,onun ƏZƏMƏT və QÜDRƏTinə səcdəyə,ibadətə səsləyir Ağamir Cavad-o nurlu,işıqlı,o pak istedad:

*Haqqın dərgahına gedən bir yoldum,*
*Sevgiylə yoğrulub,haqq ilə doldum.*
*Adımı yazdırıb abunə oldum*
*Allahın eşq adlı köşkünə,könlüm,*
*Eşqdəsən,eşq olsun eşqinə,könlüm!*

Çox təəssüflənir.Çox peşmanlanır.Çox məyus düşür Ağamir Cavad ürəklərin haqq yolundan uzaqlaşmasına.Şeytana-iblisə uymasına.Haqq-ədalət tərəzisinin əyilməsinə.Xalqın doğru-dürüst kəsiminin haqqının yeyilməsinə.İmtiyazlıların oğruları-əyriləri dəstəkləməsinə.Allaha arxa cevirib dünya malına hərislərə.Yaramaz şeytani əməllərə möhtərislərə.Yalançıların,talançıların aktivliyinə.Doğruların passivliyinə.Oğruların xəbisliyinə.Bütün bu neqativlərin,əxlaq və mənəviyyatı cılızlaşdıran gerçəkliklərin səbəbi insanların Allah sevgisinin gözəlliyini qəbul edib anlamamasıdır,siratül-müstəqim yolundan sapmasıdır,özlərini şeytani əməllərdə tapmasıdır,nəfsinin quluna çevrilməsidir:

*Qəlbimdə yurd salıb ilahi bir səs,*
*Könül nəğməsinə yoxdur bir əvəz.*
*İblisə uyanlar dərk edə bilməz*
*Allah sevgisinin gözəlliyini.*

Ölkəyə düşər talanlar.Ölkədə dördnala çapar yalanlar.Ağrılara-dərdlərə susar el-obaya yananlar ölkə,məmləkət Allah gözəlliyindən məhrum olanda:

*Ürəkləri oda salıb talanlar,*
*Görən,nə vaxt boşalacaq dolanlar?*
*Zaman-yalan,dil-dil ötər yalanlar*
*Haqq yolunda susub qalan dil yazıq*

Haram halalı üstələyər.Rəzalət fəzilətin başına kül ələyər.Ədalət əsarətə basılar.Saxtakarlar hakim olar.Şəffalıq əclaflıqdan asılar.İnsan dönər şeytan olar,dördayaqlı heyvan olar,nəfsinə,tamahına qurban olar ürəklərdə Allah işığı,Allah sevgisi,Allaha sədaqət,inam olmayanda:

*Ağamir yolunda ən böyük aşiq,*
*Sənsən hər sözünə verən yaraşıq.*
*Fikirimin göyündə ən parlaq işıq,*
*Qəlbilin dibində inci,dürr Allah.*

Məğrurlaşır,ucadan-uca görünür insan.Qürurlaşır,fəxarətləşir.Şadlıq-sevinclərə bürünür insan.Əyilməzliyini-dönməzliyini qılınca təslim etmir insan.Çıxmır,çıxa bilmir halallıq cəzirəsindən,kamal dairəsindən.Yalanlar seylabında,qorxular girdabında bitmir-tükənmir insan.Geyinmir dünyanın ilan-çayan köynəyini.Soyunmur əslinin-nəslinin iman köynəyini insan.Zamanın cəbrindən ilan kimi sürünmür,it kimi hürmür insan cevrəsində nəfsitox inanclılar-imanlılar,haqqa-ədalətə sevdalılar görəndə:

*Heç bir ölçüsünə sığa bilmədim,*
*Haramla mal-dövlət yığa bilmədim.*
*Öz halal çevrəmdən çıxa bilmədim-*
*Geyinə bilmədim zaman köynəyin.*

Cismani gözlər dünyanı göstərir bizlərə.Bizləri gah dağlara qaldırır,gah da endirir düzlərə.Ağı qaradan,ucanı alcaqdan seçir.Güllərdənçiçəklərdən ətir çəkir.Doymur tamaşasından gözəlliklərin,zəriflik və incəliklərin.Heyrətlənir,bayılır önündə göyçəkliklərin,tanrısal gerçəkliklərin.Aldadır bu gözlər çox zaman bizləri,sevdirir mənə,sənə,bizə,sizə kabinetlərdə vurnuxan gürzələri,başlar kəsən,evlər yıxan keçəl-küçəl Həmzələri.Çəkir ürəkləri yalanlara.Əlləri şərik qoşur talanlara bu gözlər.Kimin ki yoxdur üçüncü gözü-bəsirət gözü vay o adamın halına.Üçüncü göz qəlbnümadır,qiblənümadır.Odur haqqı nahaqdan ayıran.Odur bizləri şeytanlıqdan-iblislikdən paklığa,büllurluğa,təmizlik və doğruluğa çağıran.Üçüncü göz yoxdursa,itib-batacaqsan rəzilliklərdə,zəlilliklərdə,cılızlıqlarda ,köləliklərdə, kölgəlikgərdə ! Olarsan yalançı,talançı.Olarsan özgəçi,yabançı.Çağırarlar səni saxtakar,tamahkar,rüşvətxor.Gözlər səni,yaxalar səni Ağamir Cavadın rəsmini-portretini cızdığı o bədbəxt şəxsin taleyi:

*Aldandın dünyanın bar ağacına,*
*Düşdün tamahının tor ağacına.*
*Çəkdi ürəyinin dar ağacına*
*Yalanlar,yamanlar,kələklər səni.*

Hələ bitməyibdir xeyir-şər savaşları.Hələ axır cırtdan-cırtdan ölkələrin yaşları.Hələ kəsilməyibdir dünyanın başı üstdən barmaq hədəsi.Hələ ölkələr var ki,kəsir ayaqlarını zülmün kündəsi.Hələ zəifləri,acizləri dəyirmantək üyüdür canavarlar mədəsi.Görün,Mələklə Şeytanın,Xeyirlə Şərin qanlı döyüşlərini Ağamir Cavad necə də mahiranə poetikləşdirir:

*Zaman qara hörmücəkdir tor hörən,*
*Dünya nə vaxt haqqa gələr bəs görən?*
*Sərçeşmənin saf suyunu lil görən*
*Canavara quzu olur qurbanlıq.*

Bu günlər dünya ömür sürür səksəkədə.Yaşayır Qərb də,Şərq də təhlükədə.Beyni qan cahangirlər bu günlər elə "qan,qan"deyirlər.Kicik xalqlar,ölkələr stoluma,hökmümə qurban deyirlər.Yalanların,talanların tüğyanında itir-batır neçə ölkə.Raketlərin,dronların zərbəsindən külə dönür neçə-neçə müstəmləkə.Qana həris ölkələrin üzü gülür.Haqq axtaran ölkələrin başlarına kül tökülür:

*Ürəyimiz elə səksəkədə,gümanda,*
*Yollarımız hələ çəndə,dumanda.*
*Yalanların hökm etdiyi zamanda*
*Haqq gəzənin özü olur qurbanlıq.*

Lakin Ağamir Cavad əmin-arxayındır ki,qələbə,zəfər haqqındır,ədalətindir. Hegemonçular,işğalcılar liliput ölkələri hər nə qədər məruz qoysalar da işgəcəyə,zülmə,nəhayətdə o yırtıcı yalquzaqlar məhkumdurlar ölümə.Çünki haqqın arxasında dayanıbdı yeri-göyü xəlq eləyən tək Allah-sevgi-məhəbbətlərin yardımcısı,köməkçisi ucalardan-uca Xaliq:

*Könlüm haqq yoluna olubdur süvar,*
*Neçə bəd çığıra çəkmişəm divar.*
*Harda məhəbbət var,harda sevgi var,*
*Mən səni görürəm orda,İlahi !*

Eşq-bir mənəvi sərvət,bir mənəvi varidat.Tək ondan bəhərlənir bütün el,bütün elat.O elə varidat ki,bazarlarda satılmaz.Tərəzilərdə çəkilməz.Süfrələrdə yeyilməz.Toxum kimi,dən kimi torpaqlara səpilməz.Nə zorun,nə də gücün şiddətində əyilməz.Halallığı sevər o.Haram mala qatılmaz.Eşq Tanrıdan bəşərə həm paydı,həm mükafat.Eşq-sevgi cütlərini sabahlara uçuran qırılmayan-sınmayan qanaddır,qanad.Sevib-sevilənlərin yalnız eşq havasında ruhu-könlü olur şad.

Elə şair Ağamir Cavad da Tanrının sevgi payını-eşqi-məhəbbəti tərənnümə çalışır özünün "Dəniz adam"poetik çələngində.Hay-küydən,saxta səmimiyyət çabalarından uzaqdır Ağamir Cavadın sevgi şeirləri,məhəbbət təranələri.Bu şeirlərdə gözə dəymir nə bu günün məhəbbət aşiqləri,nə də ötən illərin eşq divanələri.Bu şeirlərdə nə Məcnun biyabanlığı var,nə Fərhad dağçapanlığı.Bu şeirlərdə nə Leyli çəkingənliyi var,nə Şirinin eşq etirafları.Bu şeirlərdə nə Selcanxatun fədakarlığı lövhələnir,nə Qanturalı qəhrəmanlığı.Bu şeirlərdə sevən oğlanlar,sevilən qızlar öz sevgi payını yaşayırlar.Və bu pay,bu qismət onlarını təzələyir ruhunu,doldurur içlərinə eşqin atəşini-odunu.Gənclər sevirlər bir-birini göz dolusu,könül xoşluğuyla.Sevirlər bir-birini sonavarmaz coşquyla.Sevirlər bir-birini göz-qaş kimi,söz-söhbət kimi,duz-çörək kimi,sevirlər səs-nəfəs kimi...

*Sənsən ünüm,səs-sorağım,*
*Ömrə nur saçan çırağım.*
*Bu dünyada saxladığım*
*İzim qədər sevdim səni.*

Ağamir Cavadın sevib-sevilənləri ağgünlü,ağbaxtlıdır.Ağotaqlı,ağtaxtlıdır.Dünya ağ rəngdədir onlara.Ağ rəngədə,bəyazlıqda görürlər onlar dünyanı,küllü-cahanı.Axı ağ rəng "İnsan səadətinə səbəb hər şeydir.Təsəlli üçün deyilmiş yalandır.İnsan ülfətidir.Çiçəkli bahar budağıdır.Göyərçin qanadlarıdır.Məhəbbət çalarlıdır"(Rəsul Rza).Məhəbbətdə sadiqlərə yüksəklik,ucalıq özü bəyazdır.Gül açmış vüsalın nazı bəyazdır.İlahi sevginin üzü bəyazdır.Məhəbbət aşiqlərinə şair Ağamir Cavadın hətta sözü də bəyazdır:

*Min rəngə boyayıb dünyanı fələk,*
*Sevgiylə yaşayır,döyünür ürək.*
*Üzündə nur saçan Tanrı eşqitək*
*Ağamir Cavadın sözü bəyazdır.*

Ağamir Cavadın lirik təqdimatında gözəldir eşqin vüsalı da,həsrəti də.

Gözəldir eşqin ürəkoxşayan,ruhcoşduran ədası-nazı da,canüzən,nəfəstəngidən məşəqqəti də.Gözəldir gecəni-gündüzə qatmaq da.Acılı-şirinli xəyallarda itib-batmaq da.

Gözəldir sağda-solda azıb itmək də.Məcnun söyüdlərtək yarın yolunda bitmək də.Nəinki gözəldir,hətta şərəf-şandır talanmaq da,odlarda yanmaq da.Aşiqlər bütün bunlardan usanmırbezmir və bunları özlərinə şərəf-şan qəbul edirlər:

*Bir anlıq vüsal üçün*
*yandım nə qədər oda.*
*Gəzirəm dağı-aranı.*
*İtirmişəm sağ-solu,*
*Bilməm hansı tərəfdi.*
*Çapıb taladın məni.*
*Bu sevgi döyüşündə*
*talanmaq da şərəfdi*

Ağamir Cavadın eşq-məhəbbət yolçuları çox gözəl bilirlər ki,vüsalda çırpıntı yox,vüsalda iztirab yox,vüsalda bir sönmə var.Həsrətdəsə bir canatma,bir qovrulma-yanma var,yara doğru dönmə var.Bilirlər ki,həsrət,vüsal bir-birinə həm rəqibdi,həm həbibdi.Hər ikisi sevənlərin yanındadır,qanındadır,ruhunda-həycanındadır.Bir-biriylə çarpışırlar,bir-biriylə qapışırlar.Düşürlər alovaoda.Nəhayətdə sevgi yüklü bir müqəddəs dünyada qovuşurlar hər istəyə,qovuşurlar hər murada:

*Bir həsrət göynədir içimi.*
*Ayaqla keç üstündən.*
*Bir vüsal yandırır içimi-*
*özünü at oda.*
*Yaşamaq iztirabdı,eşqdi.*
*Göynəyə-göynəyə çəkirik həsrəti,*
*Yana-yana çatırıq murada*

Sevgi-məhəbbəti,ailə həyatını,ər-arvad doğmalığını tərənnümə çəkən ən gözəl şeirlərindəndir Ağamir Cavadın "Sonanın qızı" şeri.Bu şeri təkrar-təkrar hər oxuyanda,inan,ey oxucu,titrəyibdir ürəyimin telləri.Səmimiyyət,təbiilik,yaşanmış duyğuların munisliyi hopub şerin hər beytinə,hopub şerin hər bəndinə.

Şeirdəki harmoniya,ahəngdarlıq,axıcılıq,şirinlik oxucunu anındaca sehrləyir,anındaca ovsunlayır,elə anındaca sala bilir kəməndinə.Şeir oxucunu inandırır ki,həyat yoldaşı (qadın) kişi ömrünün zəhmətkeş bostançısıdır,kişini haqq ocağında şah-sultan mənziləsinə ucaldandır.Qadın özü isə kişinin taxtı-tacıdır :

*Ömrümü şumlayıb bostan eylədin,*
*Yayıb haqq sevgimi dastan eylədin.*
*Məni eşq yurdunda sultan elyədin,*
*Taxtımsan,tacımsan,Sonanın qızı.*

Amalçıdır,məsləkçidir həyat yoldaşına.Sevincdən xoşlanır,kədəri isə sürmətək çəkir qaşına.Könül verir halallığa.Haramlığı tutur daşa Ağamir Cavadın üzünə üz qoyduğu qadın:

*Həyat yollarında amalım sənsən,*
*Sevincim sən oldun,məlalım sənsən.*
*Haramdan uzaqsan,halalım sənsən,*
*Ağrımsan,acımsan,Sonanın qızı.*

Şerin sonrakı bəndlərində poetik baxımdan bir-birindən heç də geri qalmayan nurlu-işıqlı epitetlərdə,orijinal-bakirə bənzətmə və metaforalarla naxışlayır-süsləyir mədhinə-vəsfinə söz əsirgəmədiyi o Sonanın qızını-özünün vəfalı-cəfalı ömür-gün yoldaşını Ağamir Cavad :

*...Günahım,sucumsan,Sonanın qızı*
*...Ən gözəl seçimsən,Sonanın qızı*
*...Xəracım,bacımsan,Sonanın qızı*
*...Qisasım,öcümsən.Sonanın qızı*


**(ardı 8-ci səhifədə)**

# Rənglərin dünyası, rənglərin sehri

## (Rəssam Sadıxov Fərhad  Sadıxın yaradıcılığı haqqında)

**Hər zaman söz dünyası ilə bərabər rənglərin dünyası da marağıma səbəb olub. Fırçanın dili ilə danışmaq, əllərinin istisi ilə ürəyindən keçənləri, təfəkkürünün süzgəcindən keçirdiklərini, daha doğrusu duyğu və düşüncələrini özünəməxsus tərzdə fırçaların dilinə buraxmaq özü bir aləmdi. Və elə onları duymaq özü də bir dünyadı, bir sehirli-sirli aləmdi.**



Bu gün təqdim etmək  istədiyim o şəxs də Azərbaycanın tanınmış rəssamı və astroloqu dünyada tanınan, öz təfəkürü və düşüncə tərzi ilə seçilən Fərhad Sadıxovdur.

Rəssam 2 dekabr 1973-cü ildə dünyaya gəlib. 6 saylı orta məktəbdə ibtidai təhsilə başlayıb. Fərhad orta məktəb illərindən öz düşüncəsi, davranışı ilə həmyaşıdlarından fərqlənib, rəhglərin ruh dünyasına sığınıb. Uğurları da gənc yaşlarından onu təqib edib. 1997-ci ildə "Birlik" Beynəlxalq Elmi-Tədris Assosiasiyası nəzdində Ali Xüsusi Attestasiya Komisiyasının qərarı ilə Azərbaycan Respublikası ərazisində və xaricdə təcrübə keçmək icazəsi ilə Parapisxoloq və Okkult Elmləri üzrə Mütəxəssis kvalifikasiyası verilmişdir.

Fərhad  Sadıxovun sonrakı uğurları sanki bu ideyadan bəhrələnmiş və davam etmişdir. Sadıxov 2006-ci ildən isə Beynəlxalq İncəsənət Fondu yanında Moskva Rəssamlar Assosiasiyasının həqiqi üzvüdür.

Fərhad müəllimin rəssamlıq fəaliyyəti Rəssamlıq Akademiyasının vitse prezidenti, dünya şöhrətli rəssam Tahir Salahovun da diqqətindən yayınmamışdır. Tahir Salahov Fərhad Sadıxovun yaradıcılığındakı fəlsəfi ümumiləşdirmələrin və bədii kəşflərin dərinliyini yüksək şəkildə qiymətləndirmişdir. Tahir müəllim  Fərhad Sadıxovun yaradıcılığı haqqında yazır: "Onun sənətinin əsas istiqaməti bütün təzahür müxtəlifliyində mənəviyyat axtarışı idi. Onun əsərlərində islam mədəniyyətinin böyük ənənələri, Azərbaycan miniatürləri və Şərq ornametləri dünyanın bir çox dinlərinin və mədəniyyətlərinin rəmzləri və atributları ilə birləşdirilib. Müəllif öz sənəti ilə iddia edir ki, mövcud olan hər şey bir-biri ilə bağlıdır, hər bir ünsür bütövün bir parçasıdır və dünyanın birliyi onun tərkib hissələri olmadan mümkün deyil. Elmi araşdırmalar və fərziyyələr, kulturoloji tədqiqatlar və okkultizmin sirləri, dünyaya açıqlıq, xeyirxahlığın və hormoniyanın li qüvvələrinə inam və sonsuz  fantaziya - hər şey onun yaradıcılığında öz əksini tapıb".

Fərhad Sadıxov yaradıcılığı Azərbaycandan kənarlarda - Rusiyada, Yaponiyada, Fransada, İsraildə, ABŞ-da sevilir və bir çox şəxsi  kolleksiyalarda saxlanılır. Onun yaradıcılığında çox əsərləri diqqət çəkir. Xüsusi ilə "Göy qübbəsi", "Od Rəbbləri", "Günəşin nəğmələri", "Drakonların Sivilizasiyası", "Naviqatorun uçuşu", "Sönmüş ulduzların misteriyası", "Odlar yurdu döyüşçüsü", "Kundalini - Şakti yoqası" və onlarca əsərində rəssamın mənəvi aləmi, işıqlı təfəkkürünün gücünü görmək olur.

Rəssamın uğurlarından biri də 1998-ci ildə YUNESKO-nun kurasiyasında tarixi abidə olan İçərişəhərin ərazisində rəssamın şəxsi kosmoqrafik miniatur sərgisi keçirilmişdir ki, bu da respublika televiziya və mətbuatında, həmçinin paytaxt sakinlərinin şüurunda geniş rezonans doğurmuşdur.

Onun digər uğurlarından biri isə Azərbaycan Respublikası Turizm və İdman Nazirliyinin nəşr etdiyi rəsmi kotoloqa (Azərbaycan Qızıl Gəncləri, 2003-cü ildə) daxil edilmişdir.

Diqqət çəkən və bənzərsizliyi ilə seçilən bir layihəsi Fərhad Sadıxovun geniş və əhatəli yaradıcılığının daha tam şəkildə açılmasına səbəb olmuşdur. Bu layihə London qalereyasının  Bakıdakı filialında baş tutmuşdur. Layihə maraqlı və qeyri-adı bir başlıqla - Odun Ruhu adı altında təqdim edilmişdir. Daha sonar isə "Birlik" Respublika Azərbaycan Xalqlarının Həmrəylik cəmiyyətində müəlliflərin fantastik hekayələrindən ibarət "Özgə vaxtlar" kitabının təqdimatı keçrildi. Təqdimat  qrafika rəssamı Fərhad Sadıxovun kosmoqrafik miniatürlərdən ibarət sərgisi ilə müşaiət olundu ki, bu da tədbir iştirakçılarının marağına səbəb oldu. "Odun ruhu" layihəsi öz yeniliyi və bənzərsizliyi ilə diqqət çəkdi.



Fərhad Sadıxovun yaradıcılığında yenilik yarada bilmək istəyi maraq doğurur və bu da yaradıcılığda önəmli cəhətlərdən ən birincisidir. Cəsarət və rəngarənglik rəssamın yaradıcılığının əsas məziyyətlərindəndir desək heç də yanılmarıq. Məhz  rəssamın müasir incəsənətdə yeganə tərəfdarı olduğu "Ruhistan" adlı yeni bir istiqaməti inkişaf etdirməyini də bu baxımdan qiymətləndirmək olar. Müəllif  "Ruhistan"da müasir nəslin mənəvi axtarışını, ruhun səxavətini  və dünyaya təzə enerji axını bəxş etmək istəyini önə çəkir və bununla yeni bir ideyadan yola şıxır.

Rəssam fəaliyyətini Moskvada da davam etdirmiş, orada yaşayarkən da Azərbaycan adını hər zaman uca tutmuşdur. Onun 2014-cü ildə Moskvada, Buddist  Şərq Klubu Şanti-də "Mandala Günəş mahnıları" incəsənət lahiyəsinin ilk və unikal sərgisi keçirilmişdir. Burada Azərbaycanın bütün çox rəngli və çox ölçülü mədəniyyətini kosmoqonik dünya görüşündə tətbiqi texnika və videoinstalyasiya sahələrində təqdim etmişdir. Elə həmin ildə də Moskvada ikinci sərgisini təşkil etmişdir.

Böyük bir qürur hissi ilə qeyd edək ki, 2018-ci ildə Fərhad Sadıxov Elm və Din ümumittifaq elm və təhsil jurnalının son səhifəsində çap olmuşdur. O, bu şərəfə layiq ilk Azərbaycanlı rəssam kimi də yadddaşlara həkk olacaq.

Yeri gəlmişkən həmyerlimiz fundamental metafizik -əsərin (Krima-müqəddəs od) layihəsi əbədiyyət yoqasının müəllifidir.

Fərhad müəllim ömrünün ən püxtələşmiş yaradıcılıq dövrünü yaşayır. Uğur və layihələri günü-gündən artır, dərk olunur, sevilir. Dayanmadan çalışan və öz fəaliyyəti ilə gözəlliklərə imza atan, ruh dünyamızı aydınladan rəssam bu yaxınlarda daha bir uğuru ilə rəsmsevərləri heyran etmişdir. Onun əsərləri iyun ayında kataloq halında çap olmuşdur.

Kataloq üç dildə - Azərbaycan, rus və ingilis dilində təqdim edilmişdir. Bu ilin sentyabr ayında müəllif üç dildə nəşr edilən bu kataloqun təqdimatını keçirməyi planlaşdırır.

**Fərhad Sadıxova yaradıcılığında yeni uğurlar diləyir və Azərbaycanımızı dünyada mükəmməl şəkildə təmsil etdiyi üçün təşəkkürlərimizi bildiririk.**

**Mərziyyə Nəcəfova (Sələhəddin)**
**filologiya elmləri doktoru,**
**AYB-nin üzvü**

## Təbrik edirik!




**Şəkildə gördüyünüz bu Kişinin - Kəremin ad günüdür, şad günüdür. Onun dörd yaşı tamam olur. Bu xoş gün münasibəti ilə onu atası Kənan, anası Lamiyə, babaları Kərəm, Faiq, nənələri Xuraman, Aminə, dayıları İlkin, Nəsimi, əmisi Sənan, bibiləri Ətrabə, Gülşən, Samirə, Ceyran, Xırda, dayısı uşaqları Faiq, İlknur, Nuray, əmisi uşaqları Fatimə, Fateh, İnci ürəkdən təbrik edirlər.**

**Biz də bu təbrikə qoşularaq Kərəmi və bütün ad günü olanları ürəkdən təbrik etməklə, atalı-analı böyümələrini, xoşbəxt və Vətənə layiq olmalarını Allahdan arzu edirik!**

## 10 min il yaşı olan ayaq izləri



**Arxeoloqlar Yuta ştatının Qreyt-Solt-Leyk səhrasında çoxlu sirli "kabus izlər" aşkar edib.**

Bu barədə Kornell Universitetinin mətbuat xidmətindən xəbər verilib.

Onların sözlərinə görə, izlər yalnız yağışdan sonra görünür; onlar nəmlə dolur və tündləşir. Quruduqdan sonra yenidən yox olurlar.

Komanda bu ilin iyul ayında əvvəlcə bir neçə izə rast gəlib. Ancaq georadardan istifadə etməklə ətraf ərazinin hərtərəfli yoxlanılmasından sonra yetkin insanlara və beş yaşdan kiçik uşaqlara aid ən azı 88 ayaq izi müəyyən edilib.

"Kabus izlər" ən azı 10.000 il əvvələ aiddir. Bəzi alimlər isə ayaq izlərinin 12.000 il əvvəldən - son Buz Dövründən qala biləcəyi barədə fikir irəli sürüblər.

"İnsanlar, ehtimal ki, dayaz suda gəziblər. Qum tez bir zamanda onların izlərini doldurub, lakin qumun altında olan palçıq təbəqəsi onları qoruyub", - deyə alimlərdən biri düşüncələrini bölüşüb.

**O da bildirilir ki, əvvəlki tədqiqat qrupu ayaq izlərinin tapıldığı yerin 2 km-də 12.000 il əvvələ aid ovçu-yığıcı düşərgəsi tapıb. Bu düşərgədə ayaq izlərini qoyan insanlar məskunlaşa bilərdi. Hazırda arxeoloqlar tədqiqat işlərini davam etdirirlər.**

**Eminquey**

# İlham bulaqları, söz irmaqları

**(əvvəli 7-ci səhifədə)**

Ağamir Cavad şerin sonuncu bəndində "Dəryanın dibindən dürr çıxarmışam//,Ləl dolu ovcumsan,Sonanın qızı"misralarında sevgi dünyasını dəryaya,Sonanın qızını dürrə,lələ,öz ovcunu isə ləl-cəvahiratları qoruyan xəzinəyə bənzədərək tərənnüm obiyektini oxucuya daha dərindən sevdirməyə müvəffəq olur :

***Dünyanın bətnindən sirr çıxarmışam,***
***Qəlbimdən üzümə nur çıxarmışam.***
***Dəryanın dibindən dürr çıxarmışam***
***Ləl dolu ovcumsan,Sonanın qızı***

Ağamir Cavadın məhəbbət şeirlərində qadın anadır,həyat yoldaşıdır,çətin gündə,dar ayaqda yurd savaşçısıdır,elə başçısıdır,bir evin,bir ocağın sultanlıq taxtıdır,hansı yaşda olursa-olsun,elə gözəllik paytaxtıdır.Qadın kişi ömründə əzizlərin əzizidir,ona dünya əvəzidir.

"Dəniz adam"kitabında Ağamir Cavad böyük məhəbbətlə danışdırır,nitqləndirir Azərbaycanı-o bağrı yaralını,o taleyi qaralını.Danışdırır nuru ilə zülmətləri dağıdanı,əbədiyyət qazananı.Haqq yolunda qan tökəni.Yağıların torpağında turp əkəni.Danışdırır Ağamir Cavad əsrlər boyu torpaqları bölünsə də,fəqət dili bölünməyən,ruhu parcalanmayan Azərbaycanı.Danışdırır şair Ağamir Cavad zülmişgəncələrdə məslək-amalından keçməyən,zor-şiddət məngənəsində hacallanmayan Azərbaycanı.Danışdırır Ağamir Cavad Azərbaycanı-44 günlük Böyük Savaşda Zəfər çalmış o dağ qartalını.Mədh edir,vəsf edir Ağamir Cavad o qartalın həm istiqbalını,həm də istiqlalını.Şərəf və rəşadət nəğmələri oxuyur Ağamir Cavad 44 günlük Savaşda torpaqlarımızın xilaskarlarına : əsgər və zabitlərimizə,şəhid və qazilərimizə-bizlərə doğmadan da doğma əzizlərimizə :



***...Dinlərsən neçə min şəhid nağılın***
***Tarixin bətnindən gələn hər səsdə.***
***Vətən sevgisinin ruhu doğulur***
***Şəhid oğulların məzarı üsdə***

***...Böyük qələbəylə çağlayır qanım,***
***Vətəndir şöhrətim,vətəndir canım.***
***Gözün aydın olsun,Azərbaycanım,***
***Zəfərlə açıldı bu gün səhərin,***
***Var ol,komandanım,var ol,əsgərim*!**

"Dəniz adam"oxucuları çağırır təmizliyə saflığa.Çağırır aydınlığa,paklığa və şəffaflığa.Və deyir ki,dəniz adam o kəsdir ki,gərək ayna ruhunda olsun göylərin ənginliyi,dərin ağlında-zəkasında sezilsin dünyanın zənginliyi. "Dəniz adam"ın əksər şeirləri oxucuya təkrar-təkrar tapşırır ki,günlərin bir günündə çətin anlarda,bərk ayaqlarda ləkə salma dəyişməz andına-imanına,sinə gər əsrin min bəlalı,fırtınalı tufanına.Uyma nə fitnəyə,nə kələyə zamanla gəlsən də,kəllə-kəlləyə.Və nəhayət,Ağamir Cavad yorumunda mavi göylər altında bəyaz mahnılarıyla köçün sabahlara daşıyan,ürəklərdə,yaddaşlarda min bir iz qoyan adam-dəniz adamdır və nəhayət,Tanrıya yaxın hər Allah bəndəsi dəniz adamdır-pak eşqiylə,işıqlı yoluyla,halala,haqqa sadiqliyilə :

***Eşqi pak,yolu işıq,***
***Halala,haqqa aşiq***
***Tanrıya əziz adam-***
***dəniz adam***

"Çəkdiyim şəkillərin ruhu", "Eşq işığı" ,"İşıq adam", "Yanmış budaq üstə oxuyan bülbül", "Ömürün eşq yolu", "Dəniz adam"şeir topluları Ağamir Cavadın sürbələnmiş durna qatarlarıdır-şairin poeziya kəhkəşanına uğurladığı söz-ruh-ilham çaparlarıdır.Qoy bir an da nizamlı uçuşundan dayanmasın Ağamir Cavadın durna qatarları.Qoy yorulub yollarda yubanmasın Ağamir Cavadın sözlə,sevgiylə silahlı çaparları.Əmin-yəminəm daha da gur çağlayar və yeni-yeni poetik güldəstələr bağlayar şeirsevərlərə Ağamir Cavadın ilham bulaqları,söz irmaqları.

# Kədərdən vüsala

## Damət Salmanoğlunun şeirləri haqqında

**Damat Salmanoğlunu uzun illərdi tanıyıram, insanlar içində bir qəribliyi də var. Elə bilirəm çox uzaqdan gəlib, şair Camal Yusifzadə demiş;  çox - çox uzaqdan gəlir Yazıçılar Birliyinə, qatıldığı tədbirlərə.  O, hər  səhər gəlib dostlarla görüşür, yenə çıxıb gedir gəldiyi uzaq  yerə. Əslində bəlkə də  o, heç uzaq  yerdən gəlmir, bizim hər birimizin  gəldiyimiz yerdən də yaxın yerdən gəlir. Bəs onu mənə uzaq göstərən nədir?  Məncə bu, onun şeirləri ilə bağlıdır. Ümumiliyin içində fərqli görünmək hissi həmişə adamı toplumdan uzaq göstərir. Damət də belə.**

Damət mütəmadi olaraq dövri mətbuatda çap olunur, şeirləri internet saytlarında yayımlanır, sosial şəbəkələrdə şeirləri müzakirəyə səbəb olur. Əgər şeir müzakirə yarada bilirsə, bu, həqiqətən təqdir olunası bir işdir. Damət  hadisə və detallara fərdi münasibət göstərir, fərdi münasibət sonradan şairin içtimai "mən"ini təsdiqləyir. "Şeh məhəbbəti " şeirinə diqqət yetirək.

***Bir söylə, sən niyə beləsən axı?***
***Tez küsüb-inciyən, bir az da çılğın.***
***Gah gülür gözlərin sevinc içində,***
***Gah da fikirlisən, kədərli, dalğın.***

***Bəlkə, ruhlarımız min illər öncə,***
***Yaşayıb birlikdə can deyə-deyə.***
***Atdığın hər addım yad gəlmir mənə,***
***Doğmasan, əzizsən, bilmirəm niyə?***

Adi şehə münasibət məsələsi şair psixologizmini səciyyələndirir, onu müxtəlif hadisələrdən, çeşidlərdən keçirir, müxtəlif aspektlərdən təhlil edir.  Şair şehə xitab edir, o nəyə görə küsür, inciyir, nəyə görə çılğındır? Gah gülür, gah kədərlənir. Gah da fikirli və dalğın görünür. Əslində şeh  yaşadığımız bu sirli qoca dünyanı özündə ehtiva edir. İlk baxışda  şeh gözümüzə  cavan, gənc görünə bilər.

Əslində belə deyil, o da dünyanın özü kimi qoca və qədimdir. Çox sirlərdən, müharibə və talanlardan, vüsal və ayrılıqlardan halıdır. Çox göz yaşları görüb, onlardan qəhərlənib. Yəni bir damcının bətni dünyanı və kainatı tədqiq etməyə imkan verir. Şeirin sonunda şairin gəldiyi nəticə  çox ağla batandır. Bəlkə də o, həmin şehlə min illərdir ki, tanışdır.  Min illərdir yol gəlirlər, bəlkə də hər ikisinin beyni eyni rüşeyimdəndir.  Düşüncələri eynidir. Allah onların ikisini də eyni yaradıb. Bəlkə  müəyyən vaxtdan sonra şeh adama çevrilib və ya əksinə. Kimi bilir bəlkə də, şeh insana, insan  da şehə çüvrilə - çevrilə bu günümüzə qədər gəlib çıxıblar. Bu şeir Ramiz Rövşənin "Yenə bu şəhərdə üzə- üzə gəldik" misrası ilə başlayan şeiri ilə səsləşir.

***Ömrüm başdan-başa yalandı bəlkə,***
***Taleyim başqaymış doğrudan elə.***
***O yoldan ötən qız, anamdı bəlkə,***
***Bəlkə də, oğlumdu bu oğlan elə.***

Bu şeirdə olduğu kimi, bəlkə də o şeh insanın bir bədən hissəsidir, bəlkə onun  göz yaşıdır və ya elə gözüdür. Damətin "Gənclik qatarı" şeiri də müəyyən bir zaman çalarını anlatmaq, xatılatmaq baxımından maraqlı gəldi mənə.  Nədənsə heç vaxt vağzallar yaddan çıxmır. Çünki vağzal qopub gəldiyin yerlə məskünlaşdığın yer arasında bir əlaqə mərkəzidir. Burda keçmiş də var, gələcək də. Kənd də var, şəhər də. Ayrılıq da var vüsal da.



Burda kimisə tapa bilərsən, amma itirmək də var burda. Saydıqlarım fiziki vağzaldı, bu vağzala söykənərək Damət şeir də başqa bir asiossasiya yaradır. "Gənclik" və  "Qocalıq" vağzalını dilə gətirir.

***İndi bu vağzalda sənin yerində***
***Qocalıq qatarı gözləyir məni.***
***Gənclikdən yadigar xatirələrim***
***İndi bu qatarda izləyir məni.***

Bəli, günlərin bir güni "Gənclik" qatarı gedəcək, onun yerinə "Qocalıq" qatarı gələcək və hamını aparacaq. Hara? Əbədiyyətə!

Damət Salmanoğlunun yaradıcılığını vətən şeirləri xüsusi yer tutur. Vətən Müharibəsində igidlərimizin göstərdikləri qəhrəmanlıqlar onun vətənpərvərlik şeirlərinin nəqarətini, yurdun gözəllikləri isə şeirlərinin mənasını, ruhunu təşkil edir. Nədən yazırsa - yazsın şair birinci növbədə şeirin poetik çalarına önəm verir, əsl şeiri publisistikadan ayırır.

Şairin aşağıdakı "Ləpir" şeirinə  diqqət yetirək.

***Qar üstə birqızın ləpiri qalıb,***
***Unudub, bəzəkli çətiri qalıb.***
***Yayılıb aləmə çiçək qoxusu,***
***Keçdiyi yollarda ətiri qalıb.***
***Göydən narı-narın qar səpələnir,***
***Sanki heç qar deyil, həsrət ələnir.***
***Şirin xatirələr dərdə bələnir,***
***Ruhum xəyalların əsiri qalıb.***
***Sızlayan yanıqlı telə dönmüşəm,***
***Acı həsrət dolu ilə dönmüşəm,***
***Qəfil yanıb-yanıb külə dönmüşəm,***
***Sənə olan eşqim dipdiri qalıb.***

Bu şeirdə xatirədən tutmuş vüsalın özəlliyinə qədər hər şey öz yerini tutub, özü də poetik şəkildə. Ayağın altındakı ləpirlə başın üstündəki çətirin  həm qafiyə olması, həm də bədənin başı və ayağını tutaraq bu aralıqda baş verən sosial, psixoloji  sarsıntıları nəzərətə götürməsi, bəzən qoruması şeirin quruluşunu təşkil edir. Sevgili hara getsə, ayağının altındakı  ləpirlə başının üstündəki çətir onunla gedəsidir, çünki bu dünya işi, dünya nizamıdır. Amma bu gedişdə bir kədər var. Kədər həmişə sevginin təsdiqi olub və indi də belədir. Ona görə də aşiqin başına qar dərd kimi ələnir. Sevginin başında nə qədər qovğalar baş versə də, aşıq bu kədərin, od - alovun külünün altında yenə də dipdiridir.

**Damət Salmanoğlunun şeirləri hansı nəsnələri tərənnüm və təsvir edirsə, hamsının sonunda sönməyən işıq və heç vaxt öləzimiyən ümid var. Onun şeirləri günü - gündən inkişaf edir. Bir sözlə, şeiri, xəyalı çəkib aparan poetik enerji həmişə  kədərdən vüsala adlayır. Uğur olsun!**

**Qəşəm Nəcəfzadə**

# Azərbaycanın UEFA reytinqində xalı artdı

**Avrokuboklarda 3-cü təsnifat mərhələsinin ilk oyunlarından sonra Azərbaycanın UEFA reytinqindəki xalı artıb.**

Qol.az xəbər verir ki, Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində "Ferentsvaroş"la (Macarıstan) Bakıda heç-heçə (1:1) edən "Qarabağ" ölkəmizin aktivinə 0,125 xal yazdırıb. Ötən gün isə "Neftçi" Konfrans Liqasının 3-cü mərhələsində "Rapid"ə (Avstriya) evdə qalib gəlməklə (2:1) Azərbaycanın hesabına 0,250 xal qazanıb. Beləliklə, ölkəmizin 2022/23 mövsümündəki xallarının sayı




1,625-ə, son 5 mövsümdə isə 14,250-yə çatıb. Buna baxmayaraq, Azərbaycanın UEFA reytinqindəki mövqeyi dəyişməz olaraq qalıb - 29-cu pillə. 28-ci sırada 15,375 xalla Polşa qərarlaşıb. 1-ci pillədə 88,855 xalla İngiltərədir. İspaniya 2-ci (78,712), Almaniya isə 3-cüdür (67,856). Türkiyə 21,600 xalla 20-ci sırada yer alıb.

Qeyd edək ki, "Qarabağ"ın "Ferentsvaroş"la cavab oyunu avqustun 9-u Macarıstanda, "Neftçi"nin "Rapid"lə görüşü isə avqustun 11-i Avstriyada olacaq.

## Gördüklərim, eşitdiklərim...

### Köç yoxsa, qayıdış?

**İndi hamı köçdən yazır. Köç etməkdən, köç edənlərdən, köçə aid böyük-böyük yazılar çap olunur. Amma nədənsə son zamanlar tez-tez işlədilən bu ifadənin hansı mənanı daşıdığı və hansı əhəmiyyət kəsb etməsinə fikir verən yoxdur. Köç nə deməkdir, bunun fərqinə varan təəssüf ki, tapılmır. Köç təkcə bir yerdən başqa ünvana köçmək demək deyil. Bu söz daha geniş və dərin məna daşıyır.**

30 illik həsrət, nisgil və ürək yanğısı ilə Vətənə, doğma yurda qayıdan insanların bu əbədi qayıdışına köç demək həqiqətlə uzlaşmır. Soydaşlarımız son 30 ili çətin və məşəqqətli olsa da Vətənin başqa məkanında, elə Vətənin özündə yaşayırdılar. İndi isə minbir unudulmaz xatirələrlə bu Vətən övladlarının həsrətində son qoyuldu. Əzəli torpaqlarımız Vətənin qeyrətli oğullarının canı, qanı bahasına düşmənin caynağından alındı, azadlığa qovuşdu. İndi həmvətənlərimiz əvvəlki torpaqlara, doğulub boya-başa çatdıqları, hər qarışı onlardan ötrü müqəddəs, əzizdən əziz olan torpağa qayıdırlar. Gülə-gülə, ağlaya-ağlaya, amma qayıdırlar. Onların bu gün axıtdıqları göz yaşları sevinc yaşlarıdır. Bu sevincli damlalardan pak, təmiz həyatda nə var?!

Vətən övladları, soydaşlarımız öz torpaqlarımıza qayıdırlar. Yaşamaq, yaratmaq, lazım gələrsə bu torpaqdan ötrü ölmək üçün. Yəni bu köç deyil. Vətəndən Vətənə köçməz, köç etməzlər. Vətənin hər guşəsi, zərrəsi vətənsevər oğullar üçün müqəddəsdir. Həmvətənlərimiz illər boyu yol gözləyən torpaqlarımıza qayıdır. Dinə, imana, inama, ədalətə, qeyrətə qayıdırıq. Doğma Vətən torpağına geri dönürük. Necə deyərlər, evdən köçərlər, eldən köçməzlər. Biz köçmürük, qayıdırıq. Bu gedişin adı Böyük QAYIDIŞDIR! Qayıdışınız mübarək, əziz həmvətənlər!

### Təkqapı

**A.kişinin, oğlu futbol oynuna böyük həvəs göstərir, günün əksər hissəsini futbol oynamaqla keçirirdi. Orta məktəbi bitirdikdən sonra o, idman akademiyasının futbol fakültəsinə qəbul olur. Bakıda kirayə ev tapmaq müşgül məsələ olduğundan atasını şəhərə çağırır. Atası rayondan şəhərə gəlib, minbir əziyyətdən sonra ona həyət evində bir otaq tapır. Və oğlunu bu otağa yerləşdirəndə o, atasına otağın darısqallığından şikayət edib, çox balacadır, deyir. Atası onun ancaq futbol oynamaq haqqında fikirləşdiyinə işarə edərək, eybi yoxdur, futzal oynayarsan, deyir. Oğlu yenə narazılığını bildirəndə Ata onun sözünü yarımçıq kəsir: "Daha nə edək, olan budur. Təkqapı oynayarsan..."**

**Adil MİSİRLİ**

Verilir Xətai rayonu  M.Hadi küçəsi, məhəllə 2944 TVINSART MMC mənzil 143 ünvanında yaşayan vətəndaş Əyyubov Qabil Razim oğluna ondan ötrü ki, həqiqətən o, 24.07.2022-ci il tarixli müraciətində bildirmişdir ki, özünə məxsus Xətai rayonu M.Hadi küçəsi məhəllə 2944-də yerləşən TVINS ART yaşayış kompleksində 2-ci blok, 10-cu mərtəbədə 3 otaqlı 115,15 kv metr olan mənzilə aid olan müqavilə və maliyyə arayışını itirdiyi üçün etibarsız sayılır.

***

Suraxanı rayon Bülbülə qəsəbəsi S.Əliyev küçəsi, ev 205 ünvanında yaşayan Nəsirova Yeganə Kamil qızının adına Sumqayıt Pedaqoji Özəl Kolleci tərəfindən verilmiş BB II №003936 saylı, qeydiyyat nömrəsi 872 olan diplom itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Zərdabi qəsəbə sakini Əliyev Mübariz Tohid oğluna Xaçmaz rayonu Alıc-Qışlaq kənd sakini Məhərrəmov Əvəz Fərəc oğlu tərəfindən ƏN-VIII № 089286 saylı Etibarnamə ilə etibar edilən Mersedes Benz 208D markalı nəqliyyat vasitəsinin (qeydiyyat nişanı 90GV266, mühərrik 601192012035668, ban WDB9013611P582608, buraxılış ili 1996,) ban nömrəsi itdiyi üçün etibarsız sayılır.

Ramiz Məmmədzadə tanınmış pedaqoq, maarif xadimi,
**Aliyyə Təhmasibin**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073  Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN"  nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks:  539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 90**
Çapa imzalanmışdır:
05.08.2022